

# ANIM GÜNÜ

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 209 (9376) 27 SENTYABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Şəhidlərimizi əbədi ehtiramla yad edirik







# İKİ GÖZ YAŞI

Bu gün Şəhidlərimizin ruhu şaddır!

Qisasları alınıb və alınır!

Doğma yurdu zorən tərk edənlər sevinərək geri dönürlər!

Bu gün insan səsinə, insan nəfəsinə həsrət qalan Vətən torpağı yenidən öz övladlarını qoynuna alır!

Torpağın əsl sahibləri hayların viran qoyduqları yaşayış məntəqələrinə deyil, dövlətin sürətlə inşa etdirdiyi "ağıllı" şəhər və kəndlərə qayıdırlar, dolu evlərə dönürlər!

Bu gün Azərbaycan Ordusu əvvəlkindən də qüvvətli və qüdrətlidir!

Dövlət başçısı hər işi vədəsində və özü bildiyi kimi edir!

Nə ermənilərin yalan şivənlərini, nə də havadarlarının gündə bir açıqlama vermələrini eşidən vardır!

Qarabağı cənnətə çeviririk!

Qarabağa və Şərqi Zəngəzura qalib dövlət, qalib xalq, qalib millət kimi dönürük!

Böyük qayıdışa, böyük sevincə, bu sevincin şirin göz yaşlarına görə həm də sizə minnətdarıq, Şəhidlər!

Siz daim bizimləsiz, qəlbimizdəsiniz, fəxrimizsiniz, Vətənin Şəhid övladları!

İlham Əliyev şəhidlərimizin qisasını döyüş meydanında aldı!

"Dəmir yumruğ"u ilə düşmən ordusunu məhv edərək aldı!

İşğalçı ordunu qorxaqlar və fərarilər yığnağına çevirməklə aldı!

Göydən başlarına od yağdıraraq, gizləndikləri yuvalarını darmadağın edərək aldı!

Həm də artıqlaması ilə aldı!

Müzəffər Ali Baş Komandanımız həm də qüdrətli "dəmir yumruğ"u, müdrik siyasəti, çevik diplomatiyası, polad iradəsi, dönməz və dəyişməz qətiyyəti sayəsində acı göz yaşlarını sevinc göz yaşlarına çevirdi.

→ 3



# Entoni Blinken İlham Əliyevə zəng edib





Sentyabrın 26-da ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı 24 saatdan az müddətdə yekunlaşan antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər verilmədiyini diqqətə çatdırıb.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah prosesinin həyata keçirildiyi və onların Azərbaycan ərazisindən çıxarılması işinin həyata keçirildiyi ABŞ tərəfinə bildirilib. Son beş gün ərzində yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə edildiyi vurğulanıb.

Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələrinin və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsinin toplanmış silah və hərbi texnikaya baxış keçirdiyi qeyd olunub.

Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin edilməsi məqsədilə hazırda müvafiq iş aparıldığını vurğulayıb.

Azərbaycan nümayəndələri ilə erməni sakinlərin nümayəndələri arasında reinteqrasiya istiqamətində dialoq aparıldığı, erməni sakinlərə Azərbaycan tərəfindən humanitar yardımlar göndərildiyi, ərazidə infrastrukturun bərpa edildiyi dövlət başçısı tərəfindən qeyd olunub.

Erməni sakinlərə yardımların göstərilməsi istiqamətində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığın həyata keçirildiyi, ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə Azərbaycan tərəfinin hazır olduğu diqqətə çatdırılıb.

ABŞ Dövlət katibi Entoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, bölgədə sabitliyin təmin edilməsinin, yerli ermənilərlə dialoqun vacib olduğunu bildirib.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Bu il avqustun 20-də Zati-alinizlə Budapeşt şəhərində görüşərək gələcək əməkdaşlıq məsələləri ilə bağlı müzakirə aparmaq imkanına görə Sizə minnətdarlığımı bildirirəm.

Mən Qarabağ bölgəsində baş verən hadisələri diqqətlə izləyirəm. Qeyd edim ki, onilliklər boyu davam edən mübahisələrin həlli bir çox dünya dövlətlərinin tarixində olduğu kimi, güclü və ağıllı liderin cəsarətini və müdrikliyini tələb edir.

Yaranmış yeni vəziyyətin region və onun sakinlərinin tam inteqrasiyası üçün imkanlar açacağına ümid edir, Qarabağ bölgəsinə və bütün Azərbaycana sülh və tərəqqi diləyirəm.

Zati-aliləri, Sizə dərin ehtiramımı bildirir, cansağlığı və firavanlıq, dost Azərbaycan xalqına rifah arzularımı çatdırıram.

*Hörmətlə,*

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın***
***Serb Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Sizi Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün tam təmin olunması istiqamətindəki davamlı fəaliyyətiniz və əldə etdiyiniz tarixi nailiyyətlər münasibətilə təbrik etməkdən böyük şərəf hissi duyuram.

Mən Sizin Qarabağda yaşayan ermənilərin reinteqrasiyası prosesi, onların hüquqlarına zəmanət verilməsi ilə bağlı mövqeyinizi, həmçinin müxtəlif mədəniyyətlərə və dini inanclara münasibətinizi tam şəkildə dəstəkləyir və yüksək qiymətləndirirəm. Azərbaycanın müxtəlif etnik və dini icmalar arasında anlaşmaya göstərdiyi diqqət və dəstəkdən qürur duyuram.

Cənab Prezident, Sizə fəaliyyətinizdə uğurlar arzulayıram, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Rosen PLEVNELİEV,***
***2012-2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq***
***Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Zati-alinizin sarsılmaz qətiyyəti və əzmi sayəsində Qarabağda qanunsuz erməni silahlı birləşmələrinə qarşı həyata keçirilmiş antiterror tədbirlərinin zəfərlə başa çatması bizim kimi, bütün Türk və İslam dünyasında sevinclə qarşılandı.

Fürsətdən istifadə edərək, Sizə və lideri olduğunuz Azərbaycan xalqına ən xoş arzularımı, təbriklərimi və ehtiramımı ifadə edirəm.

***Ekmələddin İHSANOĞLU,***
***İslam Əməkdaşlıq Təşkilatının 9-cu***
***Baş katibi, Nizami Gəncəvi Beynəlxalq***
***Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün tam təmin olunması münasibətilə Sizi təbrik edirəm. Bu hadisə Cənubi Qafqaz regionunun tərəqqisi üçün yeni imkanların yaranması baxımından bir şansdır.

Cənab Prezident, Sizin Avropa İttifaqı ilə əlaqələrin inkişafına göstərdiyiniz diqqət, Ukraynaya dəstəyiniz, müxtəlif xalqların nümayəndələrinə və dini konfessiyalara hörmətiniz bizim üçün çox əhəmiyyətlidir.

İcazə verin, Rumıniya ilə Azərbaycan arasında mənim xüsusi önəm verdiyim strateji tərəfdaşlığın dərinləşməsinə göstərdiyiniz daimi dəstəyə görə Sizə təşəkkür edim.

Zati-alinizlə Qlobal Bakı Forumunda görüşməyi səbirsizliklə gözləyirəm.

*Dərin hörmətlə,*

***Ana BİRÇAL,***
***2018-2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini,***
***ədliyyə naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# Xankəndiyə 30 ton benzin, 34 ton dizel yola salınıb

2023-cü il sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş görüşdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin, ilk növbədə, bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsinə dair xahişinə uyğun olaraq, sentyabrın 26-da Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 30 ton benzin, 34 ton dizel yola salınıb.

***Azərbaycan Respublikası***
***Prezidentinin Administrasiyası***

# Xankəndiyə 38 ton benzin, 16 ton dizellə dolu növbəti 2 avtomobil göndərilib

Azərbaycan Respublikasının Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli və orada yaşayan erməni sakinlərinin ehtiyaclarının təmin olunması üçün təxirəsalınmaz tədbirlər davam etdirilir.

2023-cü il sentyabrın 26-da bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi məqsədilə Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 38 ton benzin, 16 ton dizellə dolu növbəti 2 avtomobil yola salınıb.

***Azərbaycan Respublikası***
***Prezidentinin Administrasiyası***

# Xüsusi təyinatlı yanğınsöndürmə avtomobili heyəti Xankəndiyə köməyə gedib

Xəbər verildiyi kimi, sentyabrın 25-də Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində yanğınla müşayiət olunan partlayış hadisəsi baş verib. Hazırda ərazidə yanğın davam edir.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin 15 ədəd xüsusi təyinatlı yanğınsöndürmə avtomobili heyəti ilə birgə hələ də davam edən yanğının söndürülməsi üçün Ağdam-Əsgəran-Xankəndi yolu ilə Xankəndi şəhərinə yola düşüb. Ehtiyac yaranacağı təqdirdə əlavə qüvvələr də cəlb olunacaq.

***Azərbaycan Respublikası***
***Prezidentinin Administrasiyası***

# Xankəndiyə növbəti humanitar yardım karvanı aparılıb

Sentyabrın 26-da Xankəndiyə növbəti humanitar yardım karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, 4 yük avtomobili 40 ton unu, gigiyenik vasitələri, yataq dəstlərini ünvana çatdıracaq. Həmçinin növbəti təcili tibbi yardım avtomobili Xankəndi yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş partlayış nəticəsində yaralanan şəxslərə tibbi ləvazimatlar aparır.

Humanitar yardım Ağdam-Əsgəran-Xankəndi yolu ilə Xankəndiyə yola salınıb.

# Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün yaradılmış komissiyanın növbəti iclası keçirilib

Sentyabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun yanında Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün Nazirlər Kabinetinin 2023-cü il 21 iyun tarixli Sərəncamı ilə yaradılmış komissiyanın növbəti iclası keçirilib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Gədəbəy rayonunun Söyüdlü kəndində fəaliyyət göstərən "Azərbaycan Beynəlxalq Mədən Şirkəti"nin (AIMC) mədən ərazisində ekoloji monitorinqin keçirilməsi, sağlamlıq, ətraf mühit və əməyin mühafizəsi üzrə qiymətləndirilmənin aparılması məqsədilə dəvət olunmuş dağ-mədən sektorunda beynəlxalq təcrübəyə malik Böyük Britaniyanın "Micon" International Co Limited Şirkətinin keçirdiyi monitorinqlərin nəticələrinə dair hesabat və tövsiyələr müzakirə edilib.

Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə iyunun 20-də Gədəbəy rayonunun Söyüdlü kəndində yaranmış xoşagəlməz hadisə ilə əlaqədar beynəlxalq şirkət tərəfindən ərazidə monitorinqlərin aparılması, ətraf mühit, təhlükəsizlik və sağlamlıq məsələlərinin qiymətləndirilməsinə dair müvafiq tapşırıq verdiyini bildirib.

Komissiyanın sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Söyüdlü kəndində tullantıxana sahəsində və ətraf ərazilərdə son iki ay ərzində aparılmış monitorinqlərin nəticələri və bu müddət ərzində görülmüş işlər barədə hesabat verib.

Qeyd edilib ki, əhalini narahat edən məsələlərin həlli istiqamətində verilən tapşırığın təxirəsalınmadan icrası ilə əlaqədar "Micon" International Co Limited Şirkəti Azərbaycana dəvət olunub və 2023-cü il 25 iyul-1 avqust tarixlərində beynəlxalq şirkətin ekspertləri tərəfindən Gədəbəy mədən sahəsi və ətraf ərazilərdən - Gədəbəy şəhəri, Söyüdlü, Yenikənd, Arıxdam kəndləri və Qumlu yaşayış massivində müstəqil monitorinqlər keçirilib, həmçinin Gədəbəy və Mis çaylarından su, torpaq nümunələri götürülmüş, atmosfer havasında zərərli qazların, eləcə də toz hissəciklərinin konsentrasiyası, radiasiya fonu və səs-küyün səviyyəsi ölçülüb.

Belə ki, Gədəbəy sahəsində 20 nöqtədə yeraltı, 18 nöqtədə yerüstü su nümunələri götürülüb, su keyfiyyəti üzrə monitorinq məlumatları 35 parametr üzrə (suda sianidin miqdarı, ümumi, sərbəst və zəif turşulu mühitdə dissosiasiya olunan miqdarları) təhlil edilib.

Gədəbəy mədən sahəsindən və ətraf ərazilərdən, o cümlədən tullantı anbarı və boru kəməri dəhlizi ətrafındakı sahələrdən və ətraf yaşayış məntəqələrindən ümumilikdə 29 nöqtədən torpaq nümunələri götürülərək 17 parametr üzrə (pH göstəricisi, sulfatlar, kalsium, maqnezium, ümumi sianid, radiasiya və s.) təhlillər həyata keçirilib.

Gədəbəy mədən sahəsi və ətraf yaşayış məntəqələri daxil olmaqla, 8 nöqtədə portativ qaz, toz, səs-küy, vibrasiya və radioaktivliyi ölçən analizatorlar vasitəsilə havanın keyfiyyətinin monitorinqi üzrə ümumilikdə 32 ölçmə işi yerinə yetirilib.

"Micon" International Co Limited Şirkəti tərəfindən hazırlanan hesabatda "Azərbaycan Beynəlxalq Mədən Şirkəti"nin sağlamlıq, ətraf mühit, əməyin mühafizəsi və yerli icmalarla əlaqələrin idarə edilməsi məsələlərində fəaliyyətinin çatışmayan tərəflərinin qiymətləndirildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, nümunələrin təhlillərinə əsasən, su obyektlərində bir sıra göstəricilərin normadan artıq olduğu aşkarlanmış, lakin bunun ətraf mühit və insan sağlamlığı üçün təhlükə mənbəyi olmaması müəyyənləşdirilib.

İstehsal və yaşayış sahələrində yeraltı suların monitorinqi zamanı zavod ərazisindəki üç müşahidə quyusunun suyunda kiçik miqdarlarda sianidin olduğu qeydə alınıb. Qeyd olunan göstəricilər yol verilə bilən qatılıq həddindən dəfələrlə aşağı olsa da, bu fakt ətraf mühitə potensial risk kimi nəzərə alına bilər.

Vurğulanıb ki, eyni zamanda istehsal sahəsi və ətraf ərazilərdən götürülmüş torpaq nümunələrində bir sıra göstəricilərin miqdarı yol verilə bilən qatılıq həddindən çox olub. "Micon" şirkəti bunu regionun filizləşmə xüsusiyyətləri və tarixi mədənçiliyin mövcudluğu ilə izah edib.

Müəssisənin 2016-cı ildə hazırlanmış sianidin idarəedilməsi planı mövcuddur, lakin planın yenilənməsi tövsiyə edilir.

Bildirilib ki, əsas emal müəssisələrində qurğu və avadanlıqlar köhnə olduğundan mədən sahəsinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün istismar, ekoloji, sosial və təhlükəsizlik istiqamətlərində investisiya yatırımı tələb olunur.

Eyni zamanda ərazidə monitorinqlərin aparıldığı, qeydə alınan risklərin araşdırıldığı və əhalini narahat edən məsələlərlə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi istiqamətində "Azərbaycan Beynəlxalq Mədən Şirkəti" qarşısında insan sağlamlığına, texnogen təhlükəsizliyə, istehsalatın modernləşdirilməsinə aid bir sıra tələblərin qoyulduğu və tövsiyələrin verildiyi qeyd olunub.

"Azərbaycan Beynəlxalq Mədən Şirkəti" ərazidə monitorinq keçirən "Micon" International Co Limited Şirkətinin təhlil və tövsiyə xarakterli hesabatı ilə tanış olub və hesabatda göstərilənlərlə razılaşaraq qeyd olunan tövsiyə və tapşırıqların icrası ilə bağlı müvafiq icra qrafiklərinin qısa müddət ərzində hazırlanmasını və təqdim olunmasını öz üzərinə götürüb.

Baş nazir Əli Əsədov yaxın günlərdə komissiya tərəfindən Gədəbəy şəhəri, Söyüdlü, Yenikənd, Arıxdam kəndləri və Qumlu yaşayış massivinin sakinləri, qeyri-hökumət təşkilatları və media nümayəndələrinin iştirakı ilə görüşün keçirilməsi və əhalini narahat edən məsələlərin həlli, eyni zamanda görüləcək işlərlə bağlı tapşırıqlar verib.

Müvafiq tövsiyə və tapşırıqlara uyğun olaraq "Azərbaycan Beynəlxalq Mədən Şirkəti" tərəfindən yenidənqurma, modernləşdirilmə ilə bağlı icra qrafiki hazırlanaraq təqdim olunduqdan və aidiyyəti dövlət qurumları ilə razılaşdırıldıqdan sonra zavodun fəaliyyətinin mərhələli şəkildə bərpa olunması təmin edilə bilər.

# Baş nazir Əli Əsədov Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən tədbirlərində iştirak edən nazirlərlə görüşüb

Sentyabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısında və II Türk Aqrobiznes Forumunda iştirak edən kənd təsərrüfatı nazirləri ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısının və II Türk Aqrobiznes Forumunun əhəmiyyətini vurğulayıb, bu tədbirlərin Türk dövlətləri arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Bildirilib ki, Türk dünyası ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən ardıcıl tədbirlər barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunub, bütün digər sahələr kimi aqrar sektorun da inkişafı üçün əlverişli şərait yaranıb.

Azərbaycanda aqro-ərzaq sisteminin davamlı transformasiyasının təmin edilməsi istiqamətində yaşıl enerji, rəqəmsallaşma və innovativ həllərin tətbiqi barədə söhbət açılıb.

Ölkədə aqroparkların yaradılması prosesinin geniş vüsət aldığı bildirilib, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatının inkişaf potensialı barədə məlumat verilib.

Görüşdə Azərbaycanla Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətləri arasında kənd təsərrüfatı sahəsində həyata keçirilən layihələr, həmçinin əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# İKİ GÖZ YAŞI




*Otuz il bundan əvvəl doğma yurdu göz yaşları ilə tərk etdilər!*

*Bu gün də ağlaya-ağlaya geri dönürlər!*

***O da göz yaşları idi, bu da göz yaşıdır!***

*Amma böyük zəhmətlə tikib qurduqları, bəzəyib rahat yaşadıqları evlərini, abad həyət-bacalarını zorla, ölüm və girov düşmə qorxusu qarşısında məcburən tərk etdiklərindən acı göz yaşlarını ixtiyarsız axıdırdılar.*

Hələ şəhid qəbirlərini də tək buraxıb gedirdilər!

Qeyri-müəyyənliyə, qaranlığa doğru, üstəlik, ümidsizcəsinə...

Kişilərin isə göz yaşları görünmürdü!

Çünki içlərinə, ürəklərinə axırdı...

**İndi isə heç kim göz yaşlarını gizlətməyə çalışmır!**

**Sadəcə arabir əllərinin arxası ilə silirlər.**

**Bu göz yaşları isə sevincdən doğan yaşlardır!**

*Doğma yurda qayıtmaq xoşbəxtliyi nəsib olduğundan, məcburi köçkün həyatına, qəribçiliyə son qoyulduğundan sevinərək ağlayırlar!*

Öz evləri murdar düşmənləri tərəfindən yandırılıb dağıdılsa da, boş yurda qayıtmırlar!

**Dövlət başçısının göstərişi ilə salınan "ağıllı kənd və şəhərlər"dən ibarət təmirli, rahat mənzillərinə dönürlər!**

İnamla, əminliklə qayıdırlar!

Əbədi, qorxusuz, xoş və xoşbəxt günlər yaşamaqdan ötrü qayıdırlar!

*Böyük qayıdışı yaradana təşəkkür və minnətdarlıq hissi ilə qayıdırlar!*

*Düşməndən qisas alındığı üçün rahat və əmin qayıdırlar!*

❖ ❖ ❖

**Acı göz yaşlarını bu gün axan sevinc göz yaşlarına Müzəffər Ali Baş Komandan İlham Əliyev çevirdi!**

** Ulu Öndər Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirməklə;*

** Prezident seçilərkən xalqa verdiyi vədləri şərəflə yerinə yetirməklə;*

** Bütün sahələrdə, bütün istiqamətlərdə yorulmadan, dayanmadan fəaliyyət göstərməklə;*

** Müdrik, uzaqgörən siyasət yeritməklə;*

** Müstəqil Azərbaycanı güclü və sayılan dövlət səviyyəsinə ucaltmaqla!*

**Prezident İlham Əliyevin möhtəşəm uğur və nailiyyətlərinin səbəbi onun Heydər Əliyev siyasi kursuna arxalanması, bu kursu şərəf və ləyaqətlə, yaradıcılıqla davam etdirməsidir.**

Dövlət başçısı hansı sahəyə qol qoyubsa, onun sürətli inkişafını, yüksəlişini, uğurunu təmin edib.

**İlham Əliyev prezidentlik fəaliyyətinə başlayarkən ölkə enerji böhranı keçirirdi.**

Bölgələrə elektrik enerjisi böyük fasilələrlə verilir, bu hesaba artezian quyuları və su nasosları işləmədiyindən əkinçilikdə məhsul itkisi baş verir, kəndlinin zəhməti əlində qalırdı.

Seçkiqabağı kampaniyada vədlərindən biri belə oldu:

"Mən ilin və günün bütün saatlarında ən ucqar kəndlərdə belə daimi elektrik enerjisinin olmasını təmin edəcəyəm!"

Kəndlərin qazlaşdırılmasında da çətinliklər var idi.

O zaman ölkə Rusiyadan qaz idxal edirdi, hətta bir neçə dəfə qazın verilişinin dayandırılması ilə bağlı təhdidləri də eşitmişdik.

**Bu gün Azərbaycanın hər bir guşəsində gecə-gündüz işıq yanır, ölkə üzrə qazlaşdırma 96 faizi keçib.**

Həm də Azərbaycan nəinki özünü təbii qaz və elektrik enerjisi ilə gen-bol təmin edir, üstəlik, Avropanın enerji təchizatında ən etibarlı tərəfdaşa çevrilib.

**İlham Əliyevin enerji siyasəti ölkənin bu sahədəki ehtiyacının tam və dolğun ödənilməsini, dövlət büdcəsinə böyük məbləğdə gəlirlərin gəlməsini, habelə digər dövlətlərlə bu sahədə əməkdaşlığı yaratmaq və inkişaf etdirməklə Azərbaycanın dostlarının sayının artmasına xidmət edir.**

❖ ❖ ❖

Ulu Öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıdana qədər məcburi köçkünlər Allahın ümidinə qalmışdılar:

* Kim harda yer tapa bilirdisə, yerləşirdi;

* Kim təsadüfi iş tapırdısa, çörəkpulu qazanırdı;

* Kim başına çarə qılırdısa, birtəhər günləri yola verirdi.

*Nə onlara dövlət səviyyəsində qayğı və yardım göstərilir, nə yerləşmələrinə kömək olunur, nə də yeni yerləşdikləri məkanda iş yerləri yaradılmasına təşəbbüs edilirdi.*

Ulu Öndər dönüşündən dərhal sonra humanitar yardımlar üçün beynəlxalq təşkilatlara, dost ölkələrə müraciətlər edildi, yeni ictimai zümrənin vəziyyətinin öyrənilərək tədbirlər görülməsi üçün təhlillər aparıldı, özü işğal rayonlarının nümayəndələri ilə görüşdü, çadır şəhərciklərinə səfərlər edərək bu binəva insanlarla təmas qurdu, ehtiyac və çətinliklərini öyrəndi.

**Cənab İlham Əliyevin vədlərindən biri bu sahə ilə bağlı oldu:**

"Çadır şəhərciklərində bir nəfər də olsun məcburi köçkün qalmayacaqdır!"

Əlbəttə, bir milyondan çox insanın bütün ehtiyacını dərhal ödəmək mümkün deyildi, heç dövlət büdcəsi də buna imkan vermirdi.

Amma Azərbaycan Prezidenti öz sözünü deyərək iradəsini ortaya qoymuşdu!

Beləliklə, dövlətin gördüyü təsirli və ardıcıl tədbirlər sayəsində qaçqın və məcburi köçkünlərin sosial durumu əhəmiyyətli dərəcədə yaxşılaşdı, onlara sistemli dövlət yardımı təmin edildi, 116 yeni tipli qəsəbə salınaraq 300 mindən çox insan məskunlaşdırıldı.

*Onların yeni şəhərciklərdə müvəqqəti yaşayacaqları bilinsə də, dövlət bu sahəyə böyük diqqət və qayğısını, maliyyə vəsaitini əsirgəmədi!*

❖ ❖ ❖

Keçid dövrünün ağrı-acısı, kolxoz və sovxozların dağılması, bir çox müəssisənin ləğvi regionlarda vəziyyəti çətinləşdirmiş, xeyli problem yaratmışdı!

Bazar iqtisadiyyatı münasibətlərinə keçidlə bağlı islahatların gecikdirilməsi, dövlətin bu sahədə aydın və konkret planlarının olmaması əlavə problemlər yaradırdı.

**Ulu Öndər Heydər Əliyevin qayıdışından sonra yeni Konstitusiyanın qəbulu, özəlləşdirməyə dair iki dövlət proqramının hazırlanaraq icrası, ən əsası, aqrar islahatların keçirilməsi mühüm dəyişikliklərə səbəb oldu.**

*Lakin yeni dövrün yeni Azərbaycanını yaratmaqdan ötrü çox işlər görülməli, çox layihələr gerçəkləşdirilməli idi.*

Buna həm də xeyli zaman tələb olunurdu.

**Ömür vəfa etmədiyindən bu missiyanı da İlham Əliyev həyata keçirməli oldu.**

*Həm də mərhələlərlə, böyük uzaqgörənlik və yaradıcılıqla, dövrün çağırışlarını nəzərə almaqla!*

**Prezident İlham Əliyevin təşəbbüsü ilə regionların sosial-iqtisadi inkişafına dair indiyəcən dörd dövlət proqramı qəbul edilib.**

Hamısı da çox uğurla həyata keçirilib və keçirilməkdədir.

❖ ❖ ❖

Bugünkü Bakı dünyanın ən gözəl və müasir şəhərlərindən biridir.

Bunu Bakıya gələn hər bir qonaq, əcnəbi turist etiraf edir.

Ölkə paytaxtından çıxaraq respublikanın istənilən istiqamətində irəliləsən, gördüklərinə heyran qalaraq zövq alırsan:

* Yollar rahat, təhlükəsiz, müasir tələblərə cavab verir;

* Yolboyu keçdiyin yaşayış məntəqələri bir-birindən abad və gözəldir;

* Hamı özünə yeni, yaraşıqlı evlər tikib, kənd yerlərində maraqlı arxitekturası olan 2-3 mərtəbəli evlər göz oxşayır;

* Rayon mərkəzlərində saysız-hesabsız müasir üslubda evlər, ictimai binalar, park və xiyabanlar, istehsal sahələri mövcuddur;

* İnsanlar geyim-keçimi, həyat şəraiti, mədəni səviyyəsi ilə şəhərdəkilərdən heç də geri qalmırlar.

**Bütün bunların hamısı müstəqillik dövründə, xüsusən son 20 ildə baş verib.**

❖ ❖ ❖

Azərbaycan idmançılarının ən yüksək ranqlı yarışlarda qalib gəlmələri, qızıl medal almaları artıq bizim üçün adiləşib!

Halbuki müstəqilliyin ilk illərində belə deyildi, hətta komandaların beynəlxalq yarışlara göndərilməsinə vəsait belə tapılmırdı.

**İlham Əliyevin Milli Olimpiya Komitəsinə sədrliyə başlaması bu sahədə vəziyyətin kökündən dəyişməsinə səbəb oldu.**

Baxımsızlıqdan dağılmış idman qurğuları yenidən bərpa olundu, yeni idman sarayları və arenaları tikildi, ölkədən getmiş təcrübəli məşqçilər və idmançılar geri qaytarıldı, onlara lazımi şərait yaradıldı, sistemli idman yarışları keçirilərək idmançıların ustalığının yüksəlməsinə nail olundu, Azərbaycan bütün beynəlxalq səviyyəli yarışların iştirakçısına çevrildi.

**Qısa müddətdə yaradılan bu dönüş yeni, vətənpərvər idmançılar nəslinin formalaşması ilə nəticələndi.**

Ən yüksək səviyyəli yarışlarda - Olimpiya, dünya, Avropa çempionatlarında, I Avropa Oyunlarında və IV İslam Həmrəyliyi Oyunlarında fəal iştirak edən Azərbaycan gəncləri qələbələr qazanaraq Azərbaycan bayrağını ucaldır, Dövlət himnimizi qürurla səsləndirirdilər.

İdman həm də yeni əsgər və zabitlərin, qorxmaz və igid döyüşçülərin yetişdirilməsinə yardımçı oldu!

**Məhz İlham Əliyevin yarış meydanlarında hazırladığı bu gənclər 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazandılar, mədəniyyət paytaxtı Şuşanı əlbəyaxa döyüşlə, misli görünməmiş qəhrəmanlıqla azad etdilər.**

❖ ❖ ❖

Birinci Qarabağ müharibəsində Azərbaycan ona görə məğlubiyyətə uğrayaraq 20 faiz ərazisini itirmişdi ki, güclü ordusu və əsl Sərkərdəsi yox idi!

Ermənistana isə Moskvadan hər cür kömək göstərilir, silah-sursat göndərilirdi.

Hətta 366-cı sovet polku Xocalı soyqırımının törədilməsində hayların ən yaxın yardımçısına və faciənin əliqanlı iştirakçısına çevrildi!

*Qüdrətli ordu güclü iqtisadiyyatdan qaynaqlanır.*

*Yeni gənclər nəslinin yetişdirilməsi məsələnin yalnız bir tərəfidir.*

*Həmin gənclərə hərbi biliklərin və vərdişlərin aşılanması, ordunun yüksək səviyyədə təchizatı və ən yeni silahlarla silahlandırılması da vacib cəhətlərdəndir!*

**Ölkə iqtisadiyyatının dinamik və sürətli inkişafını təmin edən, tarixinin ən qüdrətli Azərbaycanını yaradan Prezident İlham Əliyev ordumuzu ən yeni və müasir silahlarla silahlandırdı, sistemli təlimlər təşkil edərək, qardaş Türkiyənin təcrübəsindən bəhrələnərək mükəmməl bir səviyyəyə çatdırdı.**

*Bu ordu öz gücünü və imkanlarını Aprel döyüşlərində, Günnüt əməliyyatında nümayiş etdirdi!*

Lakin düşmən havadarlarına sığınaraq qudurduğundan bütün bunları görmək, sülhə gəlmək istəmədi.

Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" sərsəmləməsi isə cənab İlham Əliyevin səbir kasasını daşdırdı.

2020-ci il sentyabrın 27-də "İrəli!" əmrini verdi!

Beləliklə, "dəmir yumruğ"a çevrilən Azərbaycan Ordusu öz qüdrətini döyüş meydanında göstərdi!

❖ ❖ ❖

*Müharibənin ilk günlərindən bəlli oldu ki, Azərbaycan hərbi əməliyyatlarda yeni taktika və strategiya tətbiq edir!*

*44 günlük Vətən müharibəsinin əvvəlindən sonunadək bütün dünya döyüşləri mavi ekran vasitəsilə izləyə, hər bir insan isə gözləri ilə görə bildi!*

"Dəmir yumruq" düşmənin başını əzdi, düşmən ordusunu darmadağın etdi!

Beləliklə, Müzəffər Ali Baş Komandan İlham Əliyev İkinci Qarabağ müharibəsi zamanı düşməndən xalqımızın qisasını, şəhidlərimizin qanını, otuz il bizə əziyyətli qaçqın ömrü yaşadılmasının əvəzini artıqlaması ilə aldı!

**Kapitulyasiya aktı isə acı göz yaşlarının xoşbəxt, şirin göz yaşlarına çevrilməsinin başlanğıcı oldu!**

❖ ❖ ❖

Bu gün bütün məcburi köçkünlər doğma yurda dönəcəkləri anı səbirsizliklə gözləyirlər.

Lakin mənfur düşmən özünəməxsus barbarlığını sonadək göstərmişdir:

* Ərazilərə milyonlarla ölümsaçan minalar basdırılmış;

* Evlər qarət olunaraq dağıdılmış, tikinti materialları kimi satılmış;

* İnfrastruktur dağıdılmış;

* İnsanların normal yaşayışı üçün vacib şərait tam məhv edilmişdir.

*Azərbaycanın dövlət başçısı isə Qarabağı cənnətə çevirəcəyini vəd etmişdir və həmişəki kimi sözünün üstündə durur!*

**Birinci vitse-prezident Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun dəstəyi ilə qayıdışın daha da sürətlənməsi üçün əlindən gələni əsirgəmir!**

**Cənab İlham Əliyev tərəfindən imzalanan "Böyük qayıdış" proqramı hər gün, hər ay uğurla reallaşır!**

İnsanlar həsrətində olduqları yurda - "ağıllı kənd və şəhərlər"ə ürəklərində sevinc və rahatlıq, gözlərində yaş qayıdırlar!

**Hərdən xoşbəxtlik də insanları ağlada bilirmiş!**

❖ ❖ ❖

Bu gün Şəhidlərimizin ruhu şaddır!

Qisasları alınıb və alınır!

*Doğma yurdu zorən tərk edənlər sevinərək geri dönürlər!*

Bu gün insan səsinə, insan nəfəsinə həsrət qalan Vətən torpağı yenidən öz övladlarını qoynuna alır!

**Torpağın əsl sahibləri hayların viran qoyduqları yaşayış məntəqələrinə deyil, dövlətin sürətlə inşa etdirdiyi "ağıllı şəhər və kəndlər"ə qayıdırlar, dolu evlərə dönürlər!**

Bu gün Azərbaycan Ordusu əvvəlkindən də qüvvətli və qüdrətlidir!

Dövlət başçısı hər işi vədəsində və özü bildiyi kimi edir!

Nə ermənilərin yalan şivənlərini, nə də havadarlarının gündə bir açıqlama vermələrini eşidən vardır!

*Qarabağı cənnətə çeviririk!*

*Qarabağa və Şərqi Zəngəzura qalib dövlət, qalib xalq, qalib millət kimi dönürük!*

**Böyük qayıdışa, böyük sevincə, bu sevincin şirin göz yaşlarına görə həm də sizə minnətdarıq, Şəhidlər!**

**Siz daim bizimləsiz, qəlbimizdəsiniz, fəxrimizsiniz, Vətənin Şəhid övladları!**

❖ ❖ ❖

İlham Əliyev şəhidlərimizin qisasını döyüş meydanında aldı!

"Dəmir yumruğ"u ilə düşmən ordusunu məhv edərək aldı!

İşğalçı ordunu qorxaqlar və fərarilər yığnağına çevirməklə aldı!

Göydən başlarına od yağdıraraq, gizləndikləri yuvalarını darmadağın edərək aldı!

Həm də artıqlaması ilə aldı!

**Müzəffər Ali Baş Komandanımız həm də qüdrətli "dəmir yumruğ"u, müdrik siyasəti, çevik diplomatiyası, polad iradəsi, dönməz və dəyişməz qətiyyəti sayəsində acı göz yaşlarını sevinc göz yaşlarına çevirdi.**

* Dövlətimizi qalib dövlətə;

* Xalqımızı qalib xalqa;

* Ordumuzu XXI əsrin ən yeni müharibəsini aparan orduya;

* Azərbaycanımızı şanlı-şövkətli, dünyanın hər yerindən baxanda xoşbəxt insanların qürurla yaşadığı aydın görünən diyara çevirdi!

Bu gün ağlayaraq geri dönənlər qürur və fəxarətlə, sevinc göz yaşları ilə ucadan deyirlər:

Qarabağ Azərbaycandır!

**Bəxtiyar SADIQOV**

# Müqəddəs ali ehtiram



**27 Sentyabr qürur, fəxarət günümüzdür. Tarixi zəfərimizə aparan 44 günlük Vətən müharibəsinin başlandığı gün və bu müqəddəs savaşda 30 illik həsrətimizə canı və qanı bahasına son qoyan igid, qəhrəman oğullarımızın Anım Günüdür.**

Düzdür, xalqımız bu müqəddəs günləri hər il milli iradənin, milli ruhun, ləyaqətin təntənəsi günü kimi qeyd edir. Amma məhz 2023-cü ildə, yəni müharibənin başlanmasının üçüncü ildönümündə bu əziz günü, ərazisinin suverenliyini tam təmin etmiş bir ölkənin vətəndaşları kimi qeyd etməyimiz ən böyük nemətdir.

Xalqımız bu Şanlı Zəfəri bizə yaşadan qəhrəmanlarımızla hər zaman fəxr edir. Şəhidlik zirvəsinə ucalaraq xalqın qəlbində əbədiləşən vətənpərvərlərimiz fəxarətlə anılır. Çünki onlar Vətəni bütün dəyərlərdən ali hesab etdilər, bizlər üçün, qüdrətli Azərbaycanın üçrəngli bayrağı ilə məsud yaşaması naminə canlarından keçib müqəddəsləşdilər. Xalqımızın həm hüznlə, həm də qürurla qeyd etdiyi Anım Günü ölməz qəhrəmanlarımızın əziz xatirəsinə, şəhid ruhlarına ümumxalq ehtiramın göstəricisidir.

## 30 il haqqı tapdanan dövlətin uğur hekayəsi

Bu savaş və qazanılan zəfər 30 il ikili standartlara məruz qalaraq haqqı tapdanan bir dövlətin, yurd-yuvası talan edilərək məşəqqətlər içərisində yaşamağa məcbur edilən bir xalqın əzminin, mübarizliyinin real təcəssümüdür.

Düz 30 il dünya Azərbaycan həqiqətləri qarşısında lal və kor oldu. Xristian təəssübkeşliyi, "səlibçi birliklər"in haqqı tapdanan azərbaycanlılara xain hücumları, şər-böhtanları bizi yolumuzdan döndərə bilmədi. Çünki bu yolda apardığımız mübarizədə qətiyyətli, uzaqgörən və dünyaşöhrətli liderlərimiz vardı.

Erməni yalanlarına, antiazərbaycançı şəbəkələrin şər-böhtanlarına sinə gərən Ulu Öndər Heydər Əliyev və onun siyasi məktəbinin ən layiqli yetirməsi cənab İlham Əliyev yürütdükləri diplomatiya ilə öncə haqq səsimizi dünyaya çatdırdılar və Ermənistanı işğalçı dövlət kimi tanıtdırdılar.

Ümummilli Lider Heydər Əliyev uzaqgörənlik və müdrikliklə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün böyük işlər gördü, sağlam təməllər yaratdı. Bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyev isə yeni əsrin qüdrətli lideri kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın əvəzedilməz xidmətləri sayəsində dünya birliyi Ermənistanın terrorçu dövlət olmasını, Azərbaycan torpaqlarını işğal etdiyini etiraf etməyə başladı. Dünyaşöhrətli lider kimi cənab İlham Əliyev dəvət olunduğu, iştirak etdiyi bütün beynəlxalq toplantılarda işğalçı Ermənistanın terrorçu siyasətini ifşa etdi, antiazərbaycançı şəbəkənin şər-böhtanlarını susdurdu.

Məhz cənab İlham Əliyevin, Mehriban xanım Əliyevanın yürütdükləri diplomatiya sayəsində dünya dövlətləri, beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın işğalçı dövlət olduğunu təsdiqləyən qətnamələr, bəyanatlar, sənədlər qəbul edildi. Dünyanın ən böyük siyasi təşkilatı olan BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı ordusunun Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməsi barədə qəbul etdiyi 4 qətnaməsi icrasız qalmışdı. Ancaq başqa dövlətlərin xeyrinə qəbul edilən hansısa sənədin mürəkkəbi qurumamış icrasını təmin edən bu ali qurum sıra Azərbaycana çatanda susqunluq göstərmişdi. Yəni qəbul etdiyi qətnamə 27 il arxivdə tozlandı. Münaqişənin sülh yolu ilə həll olunması üçün yaradılan ATƏT-in keçmiş Minsk qrupu yalnız artıq mövcud olmayan və Ermənistana sərf edən status-kvonun saxlanması üçün əlindən gələni etdi. İşğalçı dövlət isə bu cəzasızlıqdan yararlanaraq daha da həvəsləndi və Azərbaycana qarşı saysız-hesabsız təxribatlar törətdi.

Bütün bunlar sülhün tərəfdarı olan Azərbaycanın səbir kasasını doldurdu. Azərbaycanı siyasi-iqtisadi və hərbi cəhətdən dünyanın ən güclü dövlətlərindən birinə çevirən Prezident İlham Əliyev BMT qətnamələrinin icrasını təmin etdi - öz qüdrətli ordusunun gücü, öz Sərkərdə məharəti ilə. Bununla da cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Hayastanın 200 illik "Böyük Ermənistan" xülyasına son qoydu.

## Böyük zəfərə aparan yol

Azərbaycan 30 ilə yaxın müddətdə ərazisinin 20 faizini işğal edən Ermənistanla danışıqlar apararaq münaqişəni sülh yolu ilə nizamlamağa çalışdı. Uzun illər danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə müşahidə edildi ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyir, status-kvonu möhkəmləndirməyə, əbədi etməyə çalışır.

Prezident İlham Əliyev ölkənin ərazi bütövlüyünün bərpası üçün ilk növbədə iqtisadi gücün vacibliyini bəyan etmişdi. Bundan sonra düzgün strategiya və düşünülmüş məqsədyönlü siyasət nəticəsində Azərbaycan güc toplamağa başladı, iqtisadi müstəqillik təmin edildi, Azərbaycan iqtisadi cəhətdən heç kimdən, heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı olmayan müasir dövlətə çevrildi, dünya üçün çox nadir inkişaf modelini yaratdı. Ölkənin iqtisadi cəhətdən yüksəlişi ordu quruculuğunda da dönüşə səbəb oldu, Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi, hərbçilərin bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Azərbaycanın müdafiə sənayesi inkişaf etdirildi, ordunun daxili tələbatının böyük hissəsi ölkəmizin istehsalı hesabına təmin olundu. Azərbaycan 1000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal etməyə başladı və ən müasir silahların ixracatçısına çevrildi. Azərbaycan Ordusunun yüksək döyüş qabiliyyəti Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlarda bütün dünyaya nümayiş etdirildi.

Azərbaycan xalqı ötən 30 illik dövr ərzində işğalla barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərdi. Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi və onun əldə edilməsi zaman məsələsinə çevrildi. Azərbaycan dəfələrlə Ermənistanı işğal etdiyi ərazilərimizdən geri qayıtmağa çağırdı. Lakin Ermənistan nəinki bu çağırışlara məhəl qoymadı, əksinə, Azərbaycanın yeni torpaqlarını işğal etməyə həvəsləndi, ardıcıl hərbi təxribatlar törətmək yolunu seçdi. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt döyüşləri də düşmənə dərs olmadı.

2020-ci ilin iyul ayında Ermənistan Azərbaycanla dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törətdi. Bu dəfə də Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə endirərək ona layiqli cavab verdi. Bu döyüşlərdə general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyev və daha bir neçə zabitimizin qəhrəmancasına şəhid olması bir daha göstərdi ki, Azərbaycanın generalları və digər yüksək rütbəli zabitləri əsgərləri ilə birlikdə çiyin-çiyinə döyüşürlər.

## Vətən müharibəsi - ədalətin bərpası

Tovuz döyüşləri 44 günlük Vətən müharibəsinin qığılcımı oldu. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan "dəmir yumruq" adını alan əməliyyat Vətən müharibəsinə çevrildi.

44 günlük Vətən müharibəsi dövründə Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.

Otuz ilə yaxın müddətdə işğal altında olan, hər bir azərbaycanlının dərd qaynağına çevrilən, xatırladıqca alnımızı qırışdıran Qarabağımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir diplomatik bacarığı, ali rəhbər keyfiyyətləri, güclü sərkərdəlik məharəti sayəsində böyük qəhrəmanlıqla azad edildi. Noyabrın 8-də Şuşanın azadlığı ilə şanlı zəfərimizi qeyd etdik.

Noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza ataraq üzərinə öhdəlik götürdü. Əgər 44 günlük müharibədəki zəfərimiz cənab İlham Əliyevin sərkərdə məharətinin nəticəsidirsə, Ağdam, Laçın və Kəlbəcərin bir güllə atılmadan düşməndən təmizlənməsi isə Azərbaycan Prezidentinin diplomatik bacarığının təntənəsidir.

## Qarabağ və Şərqi Zəngəzurun bərpası, Heydər Əliyev Fondunun əvəzsiz xidmətləri

Müharibə başa çatdıqdan sonra Azərbaycan Prezidenti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması haqqında sənəd imzaladı və işğaldan azad edilmiş torpaqlarımızda misli görünməyən tikinti-quruculuq işlərinə başlanıldı. Azərbaycan yalnız öz iqtisadi qüdrəti, yəni heç bir beynəlxalq təşkilatdan maliyyə yardımı almadan Böyük qayıdış proqramının icrasına başladı.

Təkcə 2023-cü ildə Qarabağ və Şərqi Zəngəzurda layihələrin həyata keçirilməsinə 5 milyard 260 milyon manat məbləğində vəsaitin ayrılması bunu təsdiqləyən reallıqdır.

Ötən 3 il ərzində işğaldan azad edilmiş ərazilərimizdə bütün infrastrukturlar qurulub və keçmiş məcburi köçkünlərimizin doğma yurd yerlərinə qayıdışına start verilib. Bu gün Zəngilanda, Laçında, Füzulidə, Talışda həyat yenidən qaynayır. Ardıcıl olaraq soydaşlarımızın köç karvanı üzü Qarabağa, Zəngəzura doğru hərəkət edir. Əlbəttə ki, bütün bunlar hər bir azərbaycanlının ürəyini dağa döndərir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda tarixi-dini və mədəni abidələrimizin bərpası prosesləri də davam etdirilir. Bu prosesdə məxsusi olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu əvəzedilməz layihələri - mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyası xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyevanın göstərişi ilə 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan dini abidələrimiz, məscidlərimiz yenidən həyata qaytarıldı və bu istiqamətdə proseslər indi də davam etdirilir.

Ümumiyyətlə, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanması və bərpası istiqamətindəki fəaliyyəti hər kəs tərəfindən dəyərləndirilir. Bu gün isə qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyev Fondu qədim Qarabağ və Şərqi Zəngəzur torpaqlarında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpasını həyata keçirməklə tariximizə çox böyük töhfə verir.

## "Qisas", "Qətiyyətli cavab", suverenliyi tam təmin edən 23 saatlıq antiterror tədbirləri

Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri Ermənistanı və onun havadarlarını yenə də ciddi narahat edirdi. Qarabağda qeyri-qanuni cinayətkar rejimin qalıqları mütəmadi olaraq hərbi təxribatlar törədərək Azərbaycanı yeni müharibəyə təhrik edirdilər.

Amma ermənilərin hər təxribatında Azərbaycan Ordusu düşmənə layiqli cavab verirdi. Bunu "Qisas" və "Qətiyyətli cavab" əməliyyatlarının uğurlu nəticələri də təsdiqləyir. Havadarlarının dəstəyi ilə yenə də silahlanan və Xankəndidə qondarma quruma "seçkilər" keçirən rejimin mütəmadi olaraq təxribatlara əl atması Azərbaycanı öz torpaqlarında antiterror tədbirləri görməyə məcbur etdi.

Azərbaycan dövləti bu il aprelin 23-də Laçın rayonunda sərhəd-buraxılış məntəqəsi yaratdı. Ermənistan və onun arxasında dayananlar ölkəmizə qarşı müxtəlif fitnələr ortaya atdılar. Amma heç bir təzyiq Azərbaycanı yolundan döndərə bilmədi.

Prezident İlham Əliyevin söylədiyi kimi, 23 aprel Azərbaycanın ərazi bütövlüyünün tam bərpası demək idi.

Sentyabrın 19-da isə Qarabağdakı separatçılar yenidən təxribat törətdilər və mina terroru nəticəsində polis əməkdaşları və mülki şəxslər həlak oldular. Buna görə də Azərbaycan Ordusu separatçı qüvvələrə qarşı antiterror tədbirlərinə başladı. Cinayətkar dəstələrə çox ağır zərbələr endirildi. Düzdür, 44 günlük müharibədən sonra Azərbaycan ərazi bütövlüyünü bərpa etmişdi, amma 23 saatlıq antiterror tədbirləri nəticəsində bütün ərazilərdə suverenlik tam bərpa edildi. Azərbaycan qarşıya qoyulan bütün hədəflərinə nail oldu, bütün kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü.

İkinci Qarabağ müharibəsində gücünü nümayiş etdirən qüdrətli Azərbaycan birgünlük uğurlu antiterror tədbirləri ilə bir daha göstərdi ki, öz suveren ərazilərində "boz zona"nın yaranmasına imkan verməyəcək. Bu qələbə ilə Azərbaycan həm də bütün şərtlərini qəbul etdirdi və bundan sonra öz ərazisinə tam nəzarət edəcək. Bu əməliyyatla qeyri-qanuni cinayətkar rejim cəmi bir günə tərk-silah olundu və Azərbaycanın şərtlərini qəbul edərək ağ bayraq altında Yevlax şəhərində danışıq aparmağa hazır olduğunu bəyan etdi. Bir gün sonra Azərbaycan mərkəzi hakimiyyətinin təmsilçiləri ilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə görüş keçirildi və bu, Ermənistanla Azərbaycan arasında sülhün imzalanma prosesinə müsbət impuls oldu. Azərbaycan Qarabağın erməni sakinlərinin xahişi ilə onlara humanitar yardımlar göndərərək, bir daha dünyaya humanist siyasətini, sülhsevərliyini nümayiş etdirdi.

## Prezidentin çağırışına AHİK səfərbər oldu

Bu antiterror tədbirləri zamanı igid Azərbaycan oğulları şəhidlik zirvəsinə ucaldılar. Onlar canları bahasına Azərbaycanın suverenliyini tam təmin edən qəhrəmanlar kimi adlarını tarixə yazdırdılar.

Ümumiyyətlə, Azərbaycan xalqı və dövləti Vətən uğrunda şəhid olan qəhrəman övladlarının işıqlı xatirəsini hər zaman əziz tutur, onları daim xüsusi ehtiramla yad edir, qazilərin əməyini yüksək qiymətləndirir və onlarla qürur duyur.

Bu yolda canlarını belə əsirgəməmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün ölkəmizdə Anım Günü kimi qeyd olunması ilə bağlı sərəncam imzalayıb. Bu, şəhid ruhlarına, onların doğmalarına ən ali ehtiramın əlamətidir. Cəmiyyətimizdə şəhidlərin yeri ən ali məqamdadır. Həm dövlətimiz, həm də cəmiyyətimiz onlara layiq olduqları qiyməti verir. İstər şəhid ailələri, istərsə də qazilər və veteranlar hərtərəfli dövlət qayğıları ilə əhatə olunublar.

Hələ müharibənin gedişi zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ata-ana qayğısı ilə hospitala baş çəkərək yaralı əsgərlərimizlə görüşür, onlarla söhbətləşir, müalicə şəraitləri ilə maraqlanırdılar.

Prezident və Mehriban xanım Əliyevanın çağırışı ilə şəhid ailələri və qazilərimizə layiqli xidmətlərin göstərilməsi prosesi bu gün də davam etdirilir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və üzv təşkilatları tərəfindən görülən tədbirlərə nəzər yetirsək, görərik ki, müxtəlif dövrdə AHİK və onun üzv təşkilatları Vətən müharibəsi, ondan sonrakı dövrdə 15 milyon 890 min 160 manat vəsait xərcləyiblər. O cümlədən Vətən müharibəsi dövründə İcraiyyə Komitəsinin qərarları ilə AHİK və onun üzv təşkilatları tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına 1 milyon 41 min 890 manat ianə edilib. Naxçıvan Muxtar Respublikasında yaşayan, döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuş şəhid ailələrinə kömək göstərilməsi məqsədilə muxtar respublikanın Həmkarlar İttifaqları Şurasına 250 min manat, Qarabağ Dirçəliş Fonduna 1 milyon 240 min 170 manat vəsait, Silahlı Qüvvələrə və cəbhə bölgəsinə 2 milyon 329 min 954 manat, "YAŞAT" Fonduna 680 min 876 manat ianə edilib. Şəhid və qazi ailələrinə 4 milyon 624 min 163 manatlıq birdəfəlik yardım göstərilib.

AHİK tərəfindən 202 şəhidin 347 övladı himayəyə götürülüb. O cümlədən 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşlərinin 23 şəhidinin 41 azyaşlı övladının hər birinə 18 yaşına çatana qədər hər ay pul ödənilməkdədir. Sahə həmkarlar ittifaqları tərəfindən 2022-2023-cü illərin 6 ayı ərzində şəhid və qazi ailələrinə 2456 yollayış verilib. O cümlədən AHİK tərəfindən hərbi vəzifələrini yerinə yetirərkən və ya həqiqi hərbi xidmət nəticəsində əlil olmuş 400 nəfərin sanatoriya-kurort müəssisələrində müalicəsi və istirahətlərinin təşkili üçün 357 min manat vəsait ayrılıb.

İndiyə kimi AHİK tərəfindən 46465 aztəminatlı ailə, o cümlədən şəhid və qazi ailələri üçün ərzaqla dolu avtomobil karvanı yola salınıb. Bu məqsədlə 3,7 milyon manata yaxın vəsait xərclənib. Bura Naxçıvan da daxildir.

Qazi və şəhid ailələrinə xüsusi qayğının göstərilməsi dövlətin prioritetidir. Ehtiyacı olan bütün qazilərə, şəhid ailələrinə dövlət tərəfindən lazımi kömək göstərilməkdədir. Müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün ən müasir protezlər sifariş edilmişdir. İndiyədək 10 mindən artıq şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Həm Birinci, həm də İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə mənzillər verilir. Müharibə əlillərinə 7 mindən artıq minik avtomobili təqdim edilib. Şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün yaradılan "YAŞAT" Fondu tərəfindən 75 milyona yaxın vəsait toplanmış və müvafiq istiqamətlər üzrə həmin vəsaitin xərclənməsi davam etdirilir. Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər.

## Azadlığın təntənə günləri, tarixi şans

27 sentyabr şəhidlərimizin ruhunu ehtiramla andığımız Anım günüdür. Məhz həmin qəhrəmanlarımız sayəsində xalqımız qarşıdakı günlərdə azadlığın təntənə günlərini qeyd edəcək.

İyulun 31-də Prezident İlham Əliyev şanlı zəfərin yaratdığı reallıqlar fonunda yeni sərəncam imzalayaraq işğaldan azad edilmiş ərazilərimiz üzrə şəhər günləri təsis etdi. Bundan sonra hər il 26 avqust - Laçın Şəhəri Günü, 4 oktyabr - Cəbrayıl Şəhəri Günü, 17 oktyabr - Füzuli Şəhəri Günü, 20 oktyabr - Zəngilan Şəhəri Günü, 25 oktyabr - Qubadlı Şəhəri Günü, 8 noyabr - Şuşa Şəhəri Günü, 20 noyabr - Ağdam Şəhəri Günü, 25 noyabr - Kəlbəcər Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olunacaq.

Bu, şanlı zəfərimizin yaratdığı gerçəklikdir. Artıq xalqımız torpaqlarımızın işğal tarixlərinin ağrılı-acılı, nisgilli günlərini deyil, azadlıq tarixlərinin sevincini bir-biri ilə paylaşaraq xoşbəxt bayram günlərini qeyd edəcək.

*Sentyabrın 20-də xalqa müraciət edən Prezident İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan suverenliyini tam təmin edib və Qarabağda yaşayan erməni sakinlərimiz üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir. Ya Azərbaycan vətəndaşlığını qəbul edib ölkəmizin ərazisində yaşamalı, ya da bu torpaqları birdəfəlik tərk etməlidirlər. Seçim onlarındır.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Tarixin ən şərəfli dövrü

*İşğalçı Ermənistanın hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də "dəmir yumruq" əks-hücum əməliyyatını başladan Azərbaycan Ordusu öz vəzifəsini layiqincə yerinə yetirərək torpaqlarımızı işğaldan azad etdi.*

Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti və müdrik rəhbərliyi ilə 30 ilə yaxın davam edən işğala cəmi 44 gün ərzində son qoyuldu. Tariximizə Vətən müharibəsi kimi həkk olunan bu savaş milli qürurumuzun təntənəsinə, xalqımızın şərəf salnaməsinə çevrildi, Azərbaycanı bütün dünyada qalib dövlət kimi tanıtdı.

Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunması ilə bağlı ümidlərini heç vaxt itirmədi. Bunu yaşadan isə Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən olunan və Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən siyasi kurs idi. Böyük şəxsiyyət Heydər Əliyev Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılmasına imkan vermədi, respublikamızın düzgün inkişaf strategiyasını müəyyənləşdirərək həm də torpaqlarımızın işğaldan azad edilməsinə doğru gedən yolun etibarlı təməllərini yaratdı.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan cənab Prezident İlham Əliyevin uğurlu rəhbərliyi ilə respublikamızın dinamik inkişaf yoluna qədəm qoyması isə torpaqlarımızın işğaldan azad olunması üçün əlverişli zəmin formalaşdırdı. Prezident İlham Əliyevin siyasi fəaliyyətinə nəzər salanda görürük ki, dövlətimizin başçısı respublikamıza rəhbərliyinin ilk vaxtlarından torpaqlarımızın işğaldan azad edilməsi üçün olduqca sistemli və mükəmməl fəaliyyət həyata keçirdi, atdığı bütün addımlarla gələcəkdə baş verə biləcək müharibədə Ermənistanı məğlub etmək üçün hərtərəfli hazırlıq gördü. Prezident İlham Əliyev daim qətiyyətlə bildirirdi ki, Ermənistan öz xoşu ilə torpaqlarımızı işğaldan azad etməsə, Azərbaycan müharibə yolu ilə öz ərazi bütövlüyünü təmin edəcək.

Cənab Prezident necə demişdisə, elə də etdi. Ermənistanın 3 il əvvəl - 2020-ci il sentyabrın 27-də törətdiyi təxribatlara cavab olaraq Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasının icrasına başladı. İlk gündən işğal altındakı yaşayış məntəqələrimiz azad edildi. Ermənistanın ordusu barədə yaratdığı miflər, "məğlubedilməzlik" imici müharibənin ilk günündən darmadağın edildi. Cəmi 44 gün ərzində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin, Qarabağın tacı olan Şuşanın azad edilməsi Azərbaycan Ordusunun gücünü, əsgər və zabitlərimizin qəhrəmanlığını dünyaya nümayiş etdirdi.

Bu savaş Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinin, qətiyyətinin, uzaqgörənliyinin, siyasi xarizmasının növbəti təsdiqi oldu. Qürur hissi ilə deməliyik ki, Vətən müharibəsinin davam etdiyi günlərdə Azərbaycan xalqı bir daha öz liderinin siyasi əzmkarlığına, sarsılmaz qətiyyətinə, mətin iradəsinə şahidlik etdi. Həmin günlərdə dünya erməniliyinin, Ermənistanın təəssübkeşlərinin ölkəmizə qarşı olan beynəlxalq təzyiqlərini yaxşı xatırlayırıq. O təzyiqləri dəf etmək, onlara sinə gərmək hər siyasətçinin, hər prezidentin işi deyil. Yalnız İlham Əliyev kimi qətiyyətli liderlər bunun öhdəsindən gələ bilərlər. Məhz bu kimi yüksək siyasi keyfiyyətləri ilə Prezident İlham Əliyev Ermənistanı 2020-ci il noyabrın 10-da kapitulyasiya sənədinə imza atmağa məcbur etdi.

Tarixi ədaləti bərpa edən bu şanlı zəfər uzun müddət qətiyyətlə aparılan uğurlu siyasətin məntiqi nəticəsi oldu. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında xilaskarlıq missiyasını şərəflə yerinə yetirən rəşadətli Azərbaycan Ordusu düşməni təslim olmağa məcbur edərək əzəli, əbədi torpaqlarımızı işğaldan qurtardı. Hər bir azərbaycanlı kimi, biz ağsaqqallar da bu şanlı Qələbənin müəllifi olan möhtərəm Prezidentimizin yenilməz sərkərdəlik qətiyyəti və yüksək diplomatiya istedadı ilə fəxr edirik və hər zaman ona öz dərin təşəkkürümüzü bildiririk.

Vətən müharibəsində torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin qanı və canı bahasına işğaldan azad olundu. Azərbaycan xalqı hər zaman igid vətən övladlarının fədakarlığını yüksək qiymətləndirəcək, şəhidlərimizin xatirəsinə ehtiram göstərəcək. 27 Sentyabr - Anım Günündə bir daha şəhidlərimizin ölməz ruhu qarşısında baş əyir, qazilərimizə cansağlığı diləyirik. Döyüş meydanında qazandığımız qələbələrə görə xalqımız daim öz şəhidlərinə və qazilərinə minnətdar olacaq.

Qeyd edim ki, Azərbaycan Ağsaqqallar Şurası Vətən müharibəsi günlərində öz mənəvi missiyasını layiqincə yerinə yetirdi. Müharibədən sonrakı dövrdə də Ağsaqqallar Şurasının rəhbərliyi və idarə heyətinin üzvləri mütəmadi olaraq şəhid ailələrini və qaziləri ziyarət edirlər. Xalqımıza qələbə sevincini yaşadan qazilərimizə cəmiyyət olaraq öz qayğımızı əsirgəməməliyik. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti, respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri ilə qazilərimizin sağlamlığına göstərilən diqqət və qayğı hər kəs üçün nümunədir. Ağsaqqallar Şurasının mərkəzi ofisində və rayon şöbələrində daim şəhid ailələri və qazilərlə görüş keçirilir. Hesab edirəm ki, bu cür tədbirlərin keçirilməsi mənəvi-psixoloji baxımdan olduqca mühüm əhəmiyyət kəsb edir.

Vətən müharibəsindəki zəfər regionda yeni reallıqlar yaradıb. Ən böyük reallıq, əlbəttə ki, torpaqlarımızın işğaldan azad olunmasıdır. Bu gün azad edilmiş ərazilərimizdə aparılan bərpa işləri isə Azərbaycanın gücünün və qüdrətinin quruculuq meydanındakı ifadəsidir. Torpaqlarımızı azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev indi bu ərazilərə yeni həyat bəxş edir, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı hər birimizi qürurlandırır və təsirləndirir.

Vətən müharibəsindən sonra qarşıda duran əsas vəzifələrdən biri də Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə inteqrasiyası idi. Lakin onları girovluqda saxlayan Qarabağdakı separatçı rejim hər vəchlə buna mane olurdu. 10 noyabr üçtərəfli Bəyanatına uyğun olaraq Ermənistan ordusunun bölmələrinin hələ də Qarabağdan çıxarılmaması, üstəlik, son zamanlar Azərbaycan Ordusunun bölmələrinə, Qarabağda bərpa işləri həyata keçirən vətəndaşlarımıza qarşı təxribatların sayının çoxalması, separatçıların döyüş mövqelərini möhkəmləndirməyə çalışmaları, reinteqrasiya prosesinə mane olmaları "dəmir yumruğ"un növbəti dəfə işə düşməsinə zərurət yaratdı.

Sentyabrın 19-da 4-ü polis, 2-si mülki şəxs olmaqla 6 vətəndaşımızın erməni terrorçularının basdırdıqları tank əleyhinə minaya düşərək həlak olmaları artıq səbir kasamızı daşdıran hadisə oldu. Həmin gün başlanan və cəmi 23 saat davam edən antiterror tədbirləri ilə Qarabağdakı erməni separatçıların darmadağın edilməsi, onların Azərbaycan mərkəzi hakimiyyətinin şərtlərini qəbul etməsi bir daha dövlətimizin gücünün və qüdrətinin ifadəsi oldu. Buna qədər reinteqrasiya prosesini pozan Qarabağın erməni sakinləri adından çıxış edənlər özləri Yevlaxa gəlib Azərbaycan hakimiyyətinin şərtlərini qəbul etdilər.

Qarabağdakı separatçı rejimi aradan qaldıran Azərbaycan dövləti bu ərazilər üzərində suverenliyini tam bərqərar etdi. Bununla da cənab İlham Əliyev başda Fransa olmaqla Qərbin və erməni diasporunun 200 illik erməni layihəsini birdəfəlik məhv etdi, saxta "böyük Ermənistan" xülyasına son qoydu. Bu tarixi uğurun və qələbənin müəllifləri möhtərəm Prezident, Müəzəffər Ali Baş Komandan İlham Əliyev və qəhrəman ordumuzdur. Qoy Uca Tanrı xalqımızı, Prezidentimizi və ordumuzu hər zaman qorusun və uca etsin!

***Eldar QULİYEV,***
***Milli Məclisin Hesablayıcı komissiyasının sədri, Azərbaycan Ağsaqqallar Şurasının sədri, professor***



# Ömrümüzə yazılan Anım Günü

Ermənistan bütün dövrlərdə milli zəmində azərbaycanlılara qarşı düşmənçilik siyasəti aparıb. 1948-1956-cı illərdə Ermənistandakı tarixi dədə-baba torpaqlarından 150 minə yaxın soydaşımız deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilib.

1987-ci ildən başlayaraq daha 300 minə yaxın azərbaycanlı öz doğma yurdundan qovuldu, bununla da Ermənistan monoetnik dövlətə çevrildi. 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərimizin, şəhərlərimizin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

1990-cı illərin əvvəllərindən başlayaraq xarici havadarları tərəfindən silahlandırılan ermənilər Azərbaycan ərazisinin 20 faizini  işğal etdi. Başlıbel, Ağdaban, Bağanis-Ayrım, Meşəli, Qaradağlı kəndlərində vəhşiliklər törədildi. Belə faciələrdən ən dəhşətlisi Xocalıda törədildi. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirdi. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü, 8 ailə tamamilə qətlə yetirildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu.

BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyən işğalçı dövlət sülh danışıqlarından yayınır, regionda status-kvonu saxlamağa çalışırdı.

Prezident İlham Əliyev qətiyyətlə demişdi ki, Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verilməyəcək. Bu, Azərbaycan dövlətinin qətiyyətli, davamlı xarici siyasətinin mahiyyətini ifadə edirdi.

Lakin Ermənistan yenə də işğal məqsədilə ərazilərimizə hücumlar edir, müxtəlif miqyaslı təxribatlar törətməyə çalışırdı. Azərbaycan Ordusunun hissələri bu təxribatların qarşısını qətiyyətlə alırdı.

2020-ci il sentyabrın 27-də düşmən yenidən genişmiqyaslı təxribat törətdi. Ordu hissələrimiz bunun qarşısını qətiyyətlə aldı. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı başladı. Bu döyüşlər İkinci Qarabağ müharibəsinin - Vətən müharibəsinin başlanğıcı oldu...

Azərbaycan Ordusu düşmənin işğal müddətində yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi müdafiə sədlərini darmadağın edib, qələbələr qazanmağa başladı. İgid oğullarımız döyüşə-döyüşə Şuşaya yaxınlaşdılar. Noyabrın 8-də Şuşanı işğaldan azad etdilər. Noyabrın 10-da üçtərəfli Bəyanat imzalandı. Bu bəyanat Azərbaycanın qalibiyyət, Ermənistanın məğlubiyyət sənədi oldu.

Bu şanlı zəfəri dəyərləndirən Prezident İlham Əliyev bildirmişdi: "Mən dəfələrlə demişdim  ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik".

Vətən müharibəsi nəticəsində Ermənistanın işğalçılıq siyasətinə son qoyuldu. Milli həmrəyliyin, peşəkar rəhbərliyin, effektiv hərbi strategiyanın və ordumuzun gücü düşməni kapitulyasiya aktına imza atmağa məcbur etmişdir. Qəhrəman hərbçilərimizin şücaəti sayəsində, şəhidlərimizin qanı hesabına Azərbaycan şanlı qələbə qazandı.

Prezident İlham Əliyevin sərəncamı ilə Vətən müharibəsində şəhid olanlarımıza dövlət səviyyəsində diqqət göstərilir. Bu qayğıdan biri də Anım Gününün qeyd edilməsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə sentyabrın 27-si Anım Günü kimi təsis olunmuşdur. Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü üçün canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir. Anım Günü ölkədə gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması, ölkə vətəndaşlarının birliyinin daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan ictimaiyyəti, dünya azərbaycanlıları, Azərbaycanı və azərbaycanlıları sevənlər Anım Gününü böyük ehtiramla qeyd edirlər. Xalqımız heç zaman şəhidlərini yaddan çıxarmayacaq, sentyabrın 27-də də böyük ehtiramla, dövlətə, dövlətçiliyə böyük sədaqətlə anacaq.

Bu il Anım Gününü həm də şəhidlərimizin ruhuna gözaydınlığı ilə qeyd edəcəyik. Çünki bu il sentyabrın 20-də Azərbaycan Ordusunun lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin suverenliyi tam təmin olundu. Bu döyüşlərdə də şəhidlərimiz oldu. Ermənistanın  başladığı ədalətsiz müharibədə şəhid olan igidlərimiz hamımızın əzizidir. Anım Günündə qəhrəmanlarımızı ehtiramla anırıq...

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Qətiyyətli siyasətin və ordumuzun gücünün təcəssümü

*Bu gün torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsinin başlanmasının üçüncü ili tamam olur.*

Olduqca qürurvericidir ki, 44 gün davam edən bu savaşın növbəti ildönümünü, Anım Gününü yeni qələbələr, tariximizi daha da şərəfləndirən böyük uğurlarla qarşılayırıq. Ötən həftə Qarabağda keçirilən antiterror tədbirləri nəticəsində cəmi 23 saat ərzində erməni separatçılarının başının əzilməsi ilə torpaqlarımız üzərində dövlətimizin suverenliyi tam bərpa edildi.

3 il əvvəl torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsi tariximizə Prezident İlham Əliyevin qətiyyətli siyasətinin təntənəsi, Azərbaycan Silahlı Qüvvələrinin yüksək döyüş qabiliyyətinin nümayişi, döyüşən hər bir zabit və əsgərimizin, gizir və çavuşumuzun əlahiddə qəhrəmanlığı, xalqımızın milli həmrəyliyinin təcəssümü kimi həkk edildi. Bu savaş xalqımızın heç vaxt torpaqlarımızın işğal altında qalması ilə razılaşmayacağı həqiqətinin təsdiqi oldu. Bu Qələbə Azərbaycanın intibahının, möhtərəm Prezident İlham Əliyevin inkişaf və yüksəliş strategiyasının, modern ordu quruculuğunun möhtəşəm nəticəsi kimi tarixə düşdü. Cəmi 44 gün ərzində torpaqlarımızın azad edilməsi bu il anadan olmasının 100-cü ilini böyük sevgi və minnətdarlıqla qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin siyasi kursunun və əbədiyaşar ideyalarının davamının nə qədər doğru və düzgün olmasının təcəssümünə çevrildi.

Xüsusilə qeyd edilməlidir ki, torpaqlarımızın azad edilməsinə doğru gedən yolda Müzəffər Ali Baş Komandan İlham Əliyev tarixə qovuşmuş Minsk qrupunun Azərbaycanın milli maraqlarına cavab verməyən heç bir təklifini və təşəbbüsünü qəbul etmədi. Cənab Prezident Azərbaycanın ərazi bütövlüyünün ziddinə olan hansısa kiçik bir halı belə yaxına buraxmadı. Bütün çıxışlarında, görüşlərində cənab İlham Əliyev Azərbaycan ərazilərində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini, respublikamızın ərazi bütövlüyünün mütləq bərpa olunacağını qətiyyətlə bəyan etdi.

Bunun üçün Silahlı Qüvvələrimizdə müasir hərbi standartlara uyğun islahatlar həyata keçirildi, bütün qoşun növlərinin döyüş imkanları ən modern səviyyəyə çatdırıldı. Vətən müharibəsinə qədər paradlar zamanı ordumuzun arsenalına daxil edilmiş hərbi texnikaların keçidini seyr etdikcə ürəyimiz dağa döndü, torpaqlarımızın işğaldan azad ediləcəyi ilə bağlı inamımız daha da yüksəldi. Şanlı Aprel qələbəsindən, Tovuzda erməni təxribatının qarşısının layiqincə alınmasından sonra hər bir Azərbaycan vətəndaşı əmin oldu ki, torpaqlarımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra başlanan və 44 gün davam edən "dəmir yumruq" əməliyyatı isə bu əminliyimizi və torpaqlarımızın işğaldan azad ediləcəyinə olan inamımızı həqiqətə çevirdi. Ordumuzun həmin gündən başlatdığı hərbi əməliyyatlar bir gün belə axsamadı. Ermənistanın 30 ilə yaxın bir dövrdə möhkəmləndirdiyi  "Ohanyan sədləri" qəhrəman ordumuz tərəfindən elə savaşın ilk saatlarında keçildi. İlk gündən ordumuz Qələbə dastanını yazmağa başladı, Silahlı Qüvvələrimizin döyüşən şəxsi heyəti bütün cəbhələrdə şücaətlər göstərdi.

Əlbəttə, müharibə qansız, itkisiz ötüşmür və biz işğaldakı torpaqlarımızı vətən uğrunda canlarından keçən şəhidlərimizin qəhrəmanlığı, fədakarlığı ilə azad etdik. Lakin böyük fəxarət hissi ilə deməliyik ki, şəhidlərimizin qanı yerdə qalmadı, çünki onların uğrunda mübarizə apardıqları Vətən torpaqları azad olundu.

Bu günlərdə Azərbaycanın hər yerində Şəhidlər xiyabanları ziyarət edilir, şəhidlər yad edilir. Xalqımız hər zaman öz şəhidlərini böyük ehtiramla yad edəcək, xatırlayacaq. Prezident İlham Əliyevin sərəncamı ilə 27 Sentyabr tarixinin Anım Günü kimi tarixiləşməsi də şəhidlərimizin xatirəsinə olan dərin ehtiramın nümunəsidir.

Vətən müharibəsi çoxsaylı qürurdoğuran milli həqiqətlərin təsdiqi oldu. Bunlardan biri də Azərbaycan gəncliyinin vətənpərvər ruhda formalaşmasıdır. Torpaqlarımızın azadlığı uğrunda əldə silah döyüşənlərin böyük əksəriyyəti gənclər idi. Hansı ki, onlar  nəinki Qarabağı, heç torpaqlarımızın işğalı ilə nəticələnən 1990-cı illərin əvvəllərinin ağrı-acı ilə dolu günlərini belə görməyiblər. Amma onların hamısı vətənpərvər idi. Çünki vətən sevgisi ilə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda böyüyüb formalaşmışdılar, milli dəyərlərə bağlı idilər. Vətən savaşında böyük qəhrəmanlıqlar göstərən, şəhidlik zirvəsinə ucalan gənclərimizin döyüş yolu, qəhrəmanlıqları hər zaman böyüməkdə olan gənclərimiz üçün örnək olacaq.

44 günlük müharibədə Naxçıvanın igid oğulları da qəhrəmancasına  döyüşdülər, onların hər biri öz şəxsi nümunəsində qəhrəmanlıq salnaməsi yaratdı. Həm müxtəlif qoşun növlərində xidmət edən naxçıvanlılar, həm də Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti öz şücaətləri ilə düşmən üzərində qələbənin qazanılmasına böyük töhfələr verdilər.

Vətən savaşından sonra yaranmış yeni reallıqlar zəminində Azərbaycan dövləti öz milli maraqlarını qətiyyətlə təmin edir. Bu sırada Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlərin tədricən doğma yurdlarına dönüşü son 3 ilin əsas hadisəsidir.

Vətən müharibəsində kapitulyasiya aktını imzalayan Ermənistanın 10 noyabr üçtərəfli Bəyanatına əsasən üzərinə götürdüyü öhdəliklərdən biri Qarabağdakı bütün hərbi bölmələrini çıxarması idi. Amma bir neçə gün bundan əvvələdək erməni silahlıları nəinki ərazilərimizdən çıxarılmamışdılar, hətta zaman-zaman onlar ordumuza və mülki şəxslərimizə qarşı terror və digər təxribatlar törətmişdilər. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun minalanması nəticəsində 4 polisimizin və 2 mülki vətəndaşımızın həlak olması isə erməni silahlı dəstələrinə qarşı antiterror  tədbirlərinin keçirilməsini qaçılmaz etdi. Beləliklə, sentyabrın 19-da günorta saatlarında başlayan və cəmi 23 saat davam edən antiterror tədbirləri Azərbaycan Ordusunun möhtəşəm qələbəsi, Qarabağdakı erməni hərbi dəstələrinin darmadağın edilməsi ilə nəticələndi.

Bu hadisə bir daha Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, ordumuzun gücünün təcəssümü kimi tarixə düşdü.  Bir daha təsdiq olundu ki, başda Fransa olmaqla dünya erməniliyinin və erməni təəssübünü çəkənlərin nə deməsindən, nə istəməsindən asılı olmayaraq, Azərbaycan dövləti öz milli maraqlarını qətiyyətlə təmin edəcək.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

# Qəhrəmanlıq salnaməsini yazanlar

## Qələbəni bizə bəxş edən igidlərimizə ömür boyu borcluyuq




Azərbaycanın şanlı qələbəsindən, zəfər tarixinin başlanğıcından üç il ötür. 2020-ci il sentyabrın 27-də başlayıb 44 gün davam edən əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Ermənistanın işğalçılıq siyasətinə son qoyaraq düşmən tapdağı altında olan torpaqlarını azad etdi.

Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi, sarsılmaz qətiyyəti ilə Azərbaycanın rəşadətli, qüdrətli ordusu dünya hərb tarixinin ən müasir müharibəsini apardı və qalib olaraq Azərbaycanın adını ucaltdı.

27 Sentyabr canını, qanını Vətən uğrunda qurban verənlərin, bizi zəfərə qovuşduran igidlərimizin qəhrəmanlıq salnaməsinin yazıldığı gün - Anım Günüdür.











### XXI əsrin müharibəsi

**Ziyafət ƏSGƏROV,**
*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri:*

- Bu gün Azərbaycanda Anım Günüdür. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canını qurban vermiş şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə cansağlığı arzulayıram.

Anım Günü eyni zamanda bizim böyük zəfərimizin başlanğıcı oldu. Ermənistan otuz ilə yaxın torpaqlarımızı işğal altında saxladı. Bu dövrdə müxtəlif səviyyələrdə danışıqların getməsinə baxmayaraq, Hayastan öz xoşuna torpaqlarımızı tərk etmək istəmədi. Dövlət başçımızın dəfələrlə müraciətlərinə baxmayaraq, erməni silahlıları ərazilərimizdən çıxmadı. Belə bir vəziyyətdə bu məsələnin hərbi yolla həllinin vacib olduğunu bir daha anladıq. Artıq 2020-ci il sentyabrın 27-də növbəti erməni təxribatlarına cavab olaraq, Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçdilər və 44 günlük müharibə ərzində torpaqlarımızı işğaldan azad etdilər.

Bu savaşda ermənilərin orduları haqqında yaydığı fikirlərin puç olduğu aydınlaşdı. Qısa müddətdə Azərbaycan Ordusu Ermənistan ordusunu darmadağın etdi. Müharibə ərzində Ermənistan tərəfindən döyüşdən yayınan on mindən çox fərari müəyyən olundu.

27 Sentyabr Azərbaycanın zəfərinin başlanğıcı olmaqla yanaşı, insanlarımıza yeni ruh yüksəkliyi verdi. Xalqımız əmin oldu ki, çox güclü Prezidenti, Ali Baş Komandanı, qüdrətli ordusu var. Müharibədən əvvəl həm beynəlxalq müstəvidə, həm beynəlxalq münasibətlər, həm də hüquq çərçivəsində və ordumuzun daha da gücləndirilməsi istiqamətində məsələlər öz həllini tapmışdı. Əlbəttə ki, burada xalq-iqtidar, xalq-ordu birliyi əsas faktorlardan biri idi.

Otuz ilə yaxın müddətdə BMT-dən tutmuş bütün platformalarda həm Prezident İlham Əliyev, həm digər dövlət rəsmiləri, həm də deputatlar tərəfindən lazım olan işlər görüldü. Beynəlxalq müstəvidə və hüquq çərçivəsində dünyaya sübut edə bildik ki, Qarabağ Azərbaycanın tarixi ərazisidir, hər kəs bunu qəbul etməlidir və qəbul etdilər də.

Digər tərəfdən güclü ordumuz daha da möhkəmləndirildi. Artıq tam əmin idik ki, torpaqlarımızı Ermənistanın işğalından azad edə bilərik. Belə də oldu. Xalq öz Komandanı, Prezidenti ətrafında sıx birləşdi və qısa müddətdə ordumuz torpaqlarımızı düşməndən azad etdi.

Bu müharibə təkcə torpaqlarımızın işğaldan azad edilməsi ilə deyil, həm də XXI əsrin müharibəsi kimi yadda qaldı. Silahlı Qüvvələrimizə daxil olan bütün strukturlar arasında birliyin olması və onların görəcəyi işlərin əlaqələndirilməsi həm də legitimlik baxımından bir nümunə oldu. Müasir hərbin tələblərinə uyğun müharibə apardıq. Zabit, əsgər heyətimiz sübut etdi ki, Azərbaycanın Silahlı Qüvvələri hərb elminin ən yüksək texniki, texnoloji nailiyyətlərini yüksək səviyyədə mənimsəyib və ən müasir müharibə aparmaq qabiliyyətinə malikdir.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında bəyanat imzalandı. Həmin bəyanatın, demək olar ki, bəndlərində göstərilən bütün öhdəliklər Azərbaycan tərəfindən yerinə yetirilsə də, Ermənistan üzərinə düşən öhdəlikləri icra etmədi. Zəngəzur dəhlizi ilə bağlı Ermənistan bəyanat versə də, bu günə qədər o yol çəkilməyb. Ermənistanın qanunsuz silahlı birləşmələrinin Qarabağdan çıxarılması məsələsi 4-cü maddədə yer alsa da, üç il ərzində bu da yerinə yetirilmədi. Sentyabrın 19-da lokal xarakterli antiterror tədbirləri ilə Ermənistanın bu öhdəliyi yenə də güc yolu ilə yerinə yetirildi. Qarabağda qalan erməni silahlı birləşmələri darmadağın edildilər.

Aprelin 23-də Dövlət Sərhəd Xidməti tərəfindən Laçında sərhəd keçid məntəqəsi qurmaqla ərazilərimizə tam nəzarət edə bildik, yəni Azərbaycanın ərazi bütövlüyü tam təmin olundu. Amma Qarabağda qalan erməni silahlı tör-töküntülərinə silahı yerə qoyub təslim olmaları ilə bağlı dəfələrlə xəbərdarlıq edilməsinə, hətta bununla bağlı Xocalıda bir dəfə görüş keçirilməsinə baxmayaraq, yalnız antiterror tədbirlərindən sonra bu, baş tutdu. Bununla da Azərbaycan Qarabağda suverenliyini tam bərpa etdi.

Sentyabrın 21-də Qarabağın erməni nümayəndələri ilə görüşdə humanitar yardımla bağlı xahişə əsasən, Azərbaycan tərəfindən onların bütün ehtiyacları qarşılanır və bundan sonra da qarşılanacaq. Eyni zamanda Ermənistanın silahlı dəstələri antiterror tədbirləri zamanı məhv edildikdən sonra qalan silah-sursatın təhvil verilməsi prosesi gedir. Qarabağda yaşamaq istəməyən ermənilər üçün də hər cür şərait yaradılır. Azərbaycanın Konstitusiyası və qanunlarına müvafiq olaraq ərazilərimizdə qalıb yaşamaq istəyən erməni vətəndaşlarımıza isə hər cür təminat verilir. Dünya növbəti dəfə Azərbaycanın humanizm prinsiplərinə sadiqliyinə şahidlik edir.

### Qəhrəmanlarımız qürur mənbəyimizdir

**Sevinc FƏTƏLİYEVA,**
*Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini:*

- Üç il əvvəl sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun rəşadəti, ermənilərin və havadarlarının bölgədəki siyasətinin iflası ilə nəticələndi. Bütün təzyiqlərə, təhdidlərə baxmayaraq, Azərbaycan qələbə qazandı və tarixi ədalət bərpa olundu.

Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı artıq dastana çevrilib. 27 Sentyabr - Anım Günündə də xalqımız şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad edir.

1992-ci ildə təsis olunmuş ATƏT-in Minsk qrupu fəaliyyəti dövründə problemin həllinə yox, yalnız dondurulmasına çalışdı və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qaldı. Minsk qrupu həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslədi. Məsuliyyətli ölkə olaraq Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirərək, münaqişənin danışıqlar yolu ilə həllinə çalışmışdı. Bu dövrdə dünyanın mötəbər beynəlxalq təşkilatı olan BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirdi, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətləndi. Dörd qətnamə 27 il kağız üzərində qaldı. Bu illər ərzində Ermənistan işğal siyasətini davam etdirib, ərazilərimizdə təxribatlar törədib, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açaraq onların rahat yaşamasına imkan vermədi. 2016-cı il Aprel və 2020-ci il Tovuz döyüşləri zamanı Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vuraraq ona öz gücünü göstərdi. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmadı.

2020-ci il 27 sentyabr tarixdə Ermənistan tərəfindən növbəti hərbi təxribat törədildi, Azərbaycanın yaşayış məntəqələri və döyüş mövqeləri şiddətli artilleriya atəşinə tutuldu. Nəticədə hərbi qulluqçular ilə yanaşı, Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak oldu. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bütün cəbhə boyu əks-hücuma keçmək əmri verdi. 44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdi.

Milli həmrəyliyin, peşəkar rəhbərliyin, effektiv hərbi strategiyanın və ordumuzun gücü düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müxtəlif dairələrdən olan müntəzəm təzyiq və təhdidlərə rəğmən Azərbaycan öz haqq savaşında zəfər çaldı. Bu zəfər sayəsində "Ermənistanın güclü ordusu var", "erməni xalqı döyüşkən xalqdır", "Azərbaycan xalqı döyüşə bilmir" kimi miflərə birdəfəlik son qoyuldu.

Müharibədə qələbə qazanan Azərbaycan regionda yeni reallıqlar yaratdı. Azərbaycan dövləti, Prezident İlham Əliyev regionun inkişafı ilə bağlı önəmli təşəbbüslərlə çıxış etdi. Əgər Ermənistan bu təşəbbüslərə qoşularsa, inkişaf edə bilər, əks halda bu ölkənin heç bir perspektivi yoxdur. Ermənistan revanşist əməllərə əl atmağa cəhd göstərərsə, bilməlidir ki, "dəmir yumruq" yerindədir.

Azərbaycanın tarixinə qələbə səhifəsi yazmış İlham Əliyevə xalqın inam və etimadı sonsuzdur. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda bərpa etmək, dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir. Bu il 19-20 sentyabrda şanlı ordumuzun Qarabağ ərazisində qanunsuz erməni hərbi birləşmələrinə qarşı keçirdiyi antiterror tədbirləri də dövlətimizin gücünü göstərdi. Artıq Azərbaycanın suverenliyi tam təmin olunub. Bu yolda canını qurban vermiş bütün şəhidlərimizin ruhu şaddır.

### Qələbənin təməlinin qoyulduğu gün

**Arzu NAĞIYEV,**
*Milli Məclisin deputatı:*

- Azərbaycan xalqı 27 Sentyabrı Ermənistanın işğalçılıq siyasətinə qarşı əks-hərbi əməliyyatların başlandığı gün kimi qeyd edir. Bu gün Azərbaycan Ali Baş Komandanının qətiyyətinin, rəşadətli Azərbaycan Ordusunun gücünün və şəhidliyi şərəf sayan Azərbaycan hərbçisinin anasının vəhdətinin bariz nümunəsi olan 44 günlük Vətən müharibəsinin Anım Günüdür. Anım Günündə şəhidlərimizi bir daha anır, qazilərimizi yada salırıq. Həm şəhid ailələrinin, həm də qazilərimizin qayğı ilə əhatə olunması Azərbaycan dövləti tərəfindən həyata keçirilir, onlara xüsusi diqqət göstərilir.

Azərbaycanın 27 Sentyabr haqq müharibəsinin üçüncü ili lokal antiterror tədbirlərinin həyata keçirilməsi ilə yadda qaldı. Bütün Azərbaycan ərazisində suverenlik tam bərpa olundu. Bu, Ali Baş Komandanın, Azərbaycan Ordusunun qətiyyətidir. Hər bir ananın şərəf saydığı şəhidliyin qətiyyətidir. Buna görə düşünürəm ki, qazandığımız qələbə bütün dövlətlərə - həm dostlarımıza, həm düşmənlərimizə mesajdır. Təbii ki, dostlar bundan sevinir, düşmənlər isə kədərlənsələr də başa düşürlər ki, Azərbaycan xalqı öz müstəqilliyi, suverenliyi uğrunda əlindən gələni edir. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə aparılan dinc quruculuq işləri dünyaya göstərdi ki, biz vuruşduğumuz kimi, eyni zamanda quruculuq işləri ilə məşğul ola bilirik. Bu, əsas məqamlardan biridir. Azərbaycanın gözü heç vaxt heç kimin torpağında olmayıb, heç bir dövlətlə problem yaşamaq istəməyib.

Bütün bunlar təsdiq edir ki, indi Azərbaycan xalqı birmənalı şəkildə vətəni, torpağı qorumaq üçün istənilən addımı atmağa hazırdır. Bu gün Azərbaycan xalqının illərlə gözlədiyi qələbənin təməli qoyulmuş gündür.

### Tarixi zəfər xalqımıza davamlı olaraq qələbələr gətirir

**Elşad MİRBƏŞİROĞLU,**
*Milli Məclisin deputatı:*

- Azərbaycan keçmiş münaqişə vəziyyətində humanizm prinsipini üstün tutaraq məsələnin dinc vasitələrlə həllinin tərəfdarı olub və öz davranışlarında səmimi şəkildə bunu nümayiş etdirib. Lakin Ermənistan tərəfi hər zaman Azərbaycana qarşı təxribatlarını davam etdirib, danışıqlarda sadəcə olaraq imitasiyalarla məşğul olub.

Əslində, Ermənistan danışıqlarda deklorativ iştirak etməklə, sadəcə vaxt udmağa çalışırdı ki, işğal altında saxladığı Azərbaycan ərazilərinin zamanla statusunu dəyişdirə bilsin. Azərbaycan isə hər zaman qeyd edirdi ki, nəticəsiz danışıqları sonsuzluğa qədər davam etdirməyəcək və Azərbaycan Ordusu hərbi yolla torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Lakin Ermənistan və havadarları Azərbaycanın bu mövqeyini düzgün qiymətləndirməyi bacarmadılar və ölkəmizə qarşı təxribatlarını davam etdirdilər.

2020-ci ilin yayında isə xüsusi azğınlıqla genişmiqyaslı təxribatlar törədirdilər. Sərhəd boyunca bu təxribatları genişləndirməklə, yeni ərazilərimizi işğal etməyə çalışdılar. Buna nümunə kimi həmin dövrdə Ermənistanın müdafiə naziri olan Tonayanın fikirlərini xatırlamaq kifayətdir. O, ABŞ-də erməni icması ilə görüşü zamanı "yeni torpaqlar naminə yeni müharibə" ifadəsini işlətmişdi. Yəni ermənilər Azərbaycanın yeni ərazilərini işğal etmək niyyətini güdürdülər. Təbii ki, belə olan halda biz artıq düşmənə, işğalçı Ermənistana öz yerini göstərməli idik.

2020-ci ilin sentyabrında Azərbaycan Ermənistanın növbəti təxribatlarının qarşısını almaqla bərabər, torpaqlarımızın işğaldan azad olunması əməliyyatlarını da uğurla həyata keçirməyə başladı. Qısa zaman kəsiyində haqqında miflər uydurulmuş təcavüzkar, işğalçı Ermənistan ordusu Azərbaycan Ordusu tərəfindən darmadağın edildi. 44 günlük müharibənin elə ilk günlərində erməni silahlılarının 20-25 faizi məhv edildi, eyni zamanda müharibə vaxtı Ermənistan ordusunda 10 mindən artıq fərari oldu.

Silahlı Qüvvələrimiz 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi. Bununla da İkinci Dünya müharibəsindən sonra Azərbaycan torpaqlarını öz gücünə, iradəsinə əsasən işğaldan azad etməyi bacaran tək dövlət oldu.

Savaşdan sonra da Azərbaycan imzasını qoyduğu sənəddə ifadə olunan şərtlərə uyğun tam səmimi davranış nümayiş etdirdi, Ermənistan isə əksinə, yenə təcavüzkar, təxribatçı mövqeyindən bir addım da geri çəkilmədi, ölkəmizə qarşı mina terrorunu davam etdirdi. Yalnız son üç ildə ermənilərin mina terrorunun qurbanlarının sayı 300 nəfəri ötüb. Bu da onu göstərir ki, Ermənistanla həmişə güc dilində danışmaq lazımdır.

2020-ci il 10 noyabr Bəyanatının 4-cü maddəsinə əsasən, Ermənistan silahlı birləşmələri Azərbaycan ərazilərini tərk etməli idi, amma sözügedən maddə də Ermənistan tərəfindən icra olunmadı. Necə ki, ölkəmiz 2020-ci ildə BMT TŞ-nin 4 qətnaməsini özü həyata keçirmişdi, bu ilin sentyabrında da birgə bəyanatın 4-cü maddəsinin şərtlərini özü təmin etdi. Qeyri-qanuni silahlı birləşmələri torpaqlarımızı tərk etməyə məcbur etdi.

2020-ci ildən sonra Azərbaycan Ordusu sıralarında çox ciddi islahatlar keçirildi, Komando hərbi birləşmələri yaradıldı. Lokal xarakterli antiterror tədbirlərinin həyata keçirilməsi zamanı Komando hərbi birləşmələrinin təsirli rolu özünü aydın göstərdi. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, biz şahidi olduq ki, indiki Azərbaycan Ordusu 2020-ci ildə torpaqlarımızı işğaldan azad edərək tarixi şanlı qələbə qazanmış müzəffər ordumuzdan qat-qat güclüdür. Ordumuzun maddi-texniki təchizatı istiqamətində də çox təsirli addımların atılması müsbət nəticələrini bu ilin sentyabrında göstərdi.

2020-ci il sentyabrın 27-si Azərbaycan xalqının, dövlətinin, hərb tarixinin qızıl səhifəsinin yazıldığı gündür. Bu zəfər digər bütün istiqamətlərdə də xalqımıza davamlı olaraq qələbələr gətirməkdədir və bundan sonra da gətirəcək.

### Zəfərə aparan siyasi iradə, vətən sevgisi və hərbçilərimizin peşəkarlığı

**Bəhruz MƏHƏRRƏMOV,**
*Milli Məclisin deputatı:*

- 27 Sentyabr Azərbaycanın dövlətçilik tarixində yeni era deməkdir. Yüz illər ərzində torpaq itirən, müharibələrdə məğlub olan Azərbaycan məhz üç il əvvəl başlanan Vətən müharibəsində cənab İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə qazandığı şanlı qələbə sayəsində qalib, itirdiyi torpaqları geri qaytaran, yalnız özünün deyil, bütövlükdə bölgəmizin taleyini dəyişən güc sahibinə çevrildi.

27 sentyabr 2020-ci ildə hücuma keçən ermənilərin nəinki qarşısı alındı, üstəlik, 30 il ərzində möhkəmlənən mövqelərə, qurulan istehkamlara baxmayaraq, Azərbaycan erməni işğalına cəmi 44 gündə son qoydu.

Bu gün qələbəmiz barədə düşünəndə yalnız bir qənaətə gəlmək olar: bizi zəfərə aparan güclü siyasi iradə, vətən sevgisi və hərbçilərimizin peşəkarlığı oldu. 30 il ərzində Ermənistanın havadarları bütün dünyaya, eyni zamanda xalqımıza təlqin etməyə çalışırdılar ki, Azərbaycan ərazi bütövlüyünü heç vaxt müharibə yolu ilə bərpa edə bilməz. Az qala bütün dünya bizi işğal faktoru ilə barışmağa vadar edirdi. Lakin cənab İlham Əliyev tam iqtisadi müstəqilliyə nail olmaqla, siyasi suverenliyimizi möhkəmləndirməklə, həmçinin ordu quruculuğu prosesini peşəkar formada həyata keçirməklə, cəmiyyətdə ideoloji işi ən yüksək səviyyədə qurmaqla hərbi və siyasi qələbə əldə edərək yeni bir Azərbaycan yaratdı. Qüdrətli "dəmir yumruq" ətrafında bir nəfər kimi cəm olan gücə çevrildik. Lakin qələbələrimiz bununla bitmədi.

Müharibədən çıxmış bir ölkə olmağımıza baxmayaraq, dünyada hökm sürən təlatümlərə rəğmən qələbədən cəmi 8 gün sonra Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva işğaldan azad olunmuş rayonlara səfər etdilər və elə həmin tarixdən də bu ərazilərdə bərpa-quruculuq prosesinə başlanıldı.

Cənab Prezidentin dediyi kimi, bütün bu işlərin yeganə maliyyə mənbəyi Azərbaycan büdcəsi oldu. Cəmi 8 aya Füzuli hava limanı tikildi, ilyarıma artıq Böyük qayıdışın ilk köçü başladı. Bu gün isə artıq Ağalı, Talış, Laçın, Zabux, Füzulidə hər gün sayı artmaqda olan soydaşlarımız əbədi olaraq məskunlaşırlar.

Ordumuz regionun ən güclüsüdür. Cəmiyyətimizdə isə döyüş ruhu kifayət qədər yüksəkdir. Bir sözlə, biz hazırda tariximizin ən güclü dövrünü yaşayırıq.

Məhz bu güc, bu qüdrət, ən əsası isə möhtərəm Prezidentin qətiyyəti ilə sentyabrın 19-da lokal antiterror xarakterli tədbirlərlə dövlətimiz nəinki bölgədə, hətta dünyada separatizmlə mübarizədə real nəticəyə nail olaraq, Qarabağda Konstitusiya quruluşunu bərpa etdi. Müzəffər Ali Baş Komandan separatizmlə mübarizədə Azərbaycan modelini ortaya qoyaraq cəmi 23 saat ərzində 44 günlük savaşımızda yarımçıq qalmış bir prosesin nöqtəsini qoydu. Beləliklə, Azərbaycan ərazisinin hər qarışında özünün nəzarətini, yurisdiksiyasını bərpa etdi. Azərbaycan xalqı bu reallığı yaradan liderə - cənab İlham Əliyevə, onun qalib ordusuna həmişə minnətdar olacaq. Eyni zamanda şəhidlərimizi ehtiramla anacaq, onların qəhrəmanlığı ilə qürur duyacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# Ürəklərdə yaşayan qəhrəman



44 günlük Vətən müharibəsi günləri hamımızın cəbhədən gələn qələbə xəbərlərini həyəcanla izlədiyimiz günlər idi. Bir gün sosial şəbəkədə "Ucarlılar Bərgüşad kəndindən olan şəhidi Mehdili Niftalı Qnyaz oğlunu böyük bir izdihamla yola saldılar" xəbərini oxudum.

Bərgüşad kəndi Ucarda şəhidlərinə, müharibəyə gedib qəhrəmanlıq göstərən oğullarının sayının çoxluğuna görə Ucar rayonunda birincidir. 44 günlük müharibənin qəhrəmanlarından olan Niftalı əsgər yoldaşım Qnyazın oğlu idi. Həmin vaxt karantin rejimi olduğu üçün Bakıdan Ucara gedib-gəlmək mümkün deyildi. Ucara gedib dostumla bir yerdə olmaq, dərdinə şərik çıxmaq imkanım olmadığı üçün çox üzüldüm.

İllər sonra keçmiş əsgər yoldaşımla onun evində görüşdüm... Qarşımda 37 il əvvəlki şən, şux, pəhləvan cüssəli Qnyazın əvəzinə indi beli dərddən bükülmüş, gözləri çuxura düşmüş, sinəsi dağlı, amma olduqca qürurlu bir ata dayanmışdı. Qəhrəman bir oğulun, vətəni canından çox sevib, ruhunu göylərə təslim edən bir oğulun atası... Gözlərimin içinə baxıb, məni təpə-dırnaq süzüb, təkrar qucaqlayıb bağrına basan dərdli dostum dillənir:

- Bilirdim ki, gələcəksən. Mənim qəhrəman Niftalımdan yazacağını çox gözləyirdim…

Dərdli atanın dodaqları titrəyir, gözündə yaş sellənir… Özünü toparlayıb əlinin arxası ilə gözünün yaşını silib söhbəti davam etdirir:

- Vaxt keçdikcə dərdim ağırlaşır, qardaş. Deyəsən bu dərd məni aparacaq. Sən özün necə adam olduğumu gözəl bilirsən. Mən uşaqlarıma da ləyaqətli, vətəncanlı, qorxmaz olmağı öyrətmişəm. Altı övladım var idi, beş oğlan, bir qız. Niftalım beşinci idi… Özümüz ailədə az uşaq olmuşuq. Çoxuşaqlı ailələrə həmişə həsəd aparmışam. Düşünmüşəm ki, çox uşağı olmağın nə ziyanı var?! Uşaqlar bir-birlərinə hayan, dayaq olarlar. Niftalı çox ailəcanlı, ata-ananın qədrini, böyük-kiçiyin yerini bilən oğul idi. 9-cu sinfi bitirib Bakıya getmişdi. İşləyirdi, evi o dolandırırdı. Qazandığını özü yeməzdi, geyinməzdi, evə göndərərdi. Çox ürəyi açıq övlad idi. Vətənsevər idi. Ermənilərin torpaqlarımızı işğal edib, insanların dədə-baba yurdlarından didərgin salınmaları ilə heç cür barışmırdı. 2016-cı ildə Aprel döyüşləri vaxtı hərbi komissarlığa müraciət edib döyüşlərə getmək istədi. Lakin ehtiyac olmadığı üçün onu cəbhəyə göndərmədilər. Amma bu dəfə Niftalı 21 sentyabrda Bakıdan evə yox, birbaşa Ucara, Hərbi Səfərbərlik üzrə Çağırış İdarəsinə gəlib oradan cəbhə xəttinə yollandı. Qeyrətli bala idi, vətənini, torpağını canından çox sevirdi.

Azərbaycanın igid oğlu kimi dünyanı tərk edən şəhid Niftalı Qnyaz oğlu Mehdili 2011-ci ildə şəhid Ağamusa Mustafayev adına 1 saylı məktəbin 9-cu sinfini bitirib. 2014-cü il iyulun 3-dən 2016-ci il yanvarın 2-nə kimi Azərbaycan Ordusunun sülhməramlı bölüyündə hərbi xidmətdə olub. 27 sentyabr 2020-ci ildə ermənilərin təxribatına cavab olaraq keçirilən əməliyyatda Niftalı da var idi. Niftalı 14 oktyabrda Vətənin azadlığı uğrunda gedən döyüşlərdə igidlik nümunəsi göstərərək qəhrəmancasına şəhid olub. 16 oktyabrda doğulub böyüdüyü doğma Bərgüşad kəndində böyük bir el məhəbbəti ilə dəfn olunub. Vətənin qəhrəman oğlu Mehdili Niftalı Qnyaz oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azadlığına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Bacısı Vüsalə Niftalılı günlərinin xatirələrini yada salır:

- Niftalı ilə birlikdə çox gözəl keçən uşaqlıq günlərimiz olub. Boylu-buxunlu, ağıllı, gülərüz qardaşımla həmişə fəxr etmişəm. Mənə qəhrəman bacısı olmaq şərəfini də yaşatdı. O, həmişə ürəyimdə gülərüzlü olaraq yaşayacaq. Niftalı olan yerdə sevgi var idi, həyat var idi…

Müharibədə olduğu hər gün zəng edirdi. Sonuncu dəfə oktyabrın 11-də zəng etmişdi. Gülürdü. Kefi kök idi… Qələbə ilə qayıdacağını deyirdi. Mən söhbəti uzatmaq istəmirdim, qorxurdum ki, düşmən telefonun dalğası ilə qardaşımın yerini müəyyənləşdirər, başına bir iş gələr. O, məndən hamını təkrar-təkrar soruşurdu. Yəqin şəhid olacağını bilirmiş qardaşım. Mənə dedi ki, heç nədən narahat olma. Qələbə bizimdir. Dualarınızı əskik etməyin. Dua edin ki, qələbə sevinci ilə qayıda bilək. Heyf, qələbəni görmədən şəhid oldu. Bizə qürur yaşadan qardaşım, qələbə bizim oldu.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Qazaxın ilk Vətən müharibəsi şəhidi

## Tale Elvin Orucovu Rusiyadan Azərbaycana Qarabağın azad olunmasında iştirak etmək üçün gətirmişdi

Şanlı Qələbəmizdən 3 il keçməsinə baxmayaraq, Azərbaycan xalqı zəfər dolu həmin günlərin qürurunu bu gün də yaşayır. Bu o qələbədir ki, başlanğıcını 27 sentyabrdan götürmüş və 10 noyabrda Azərbaycanın tam qələbəsi ilə başa çatmışdır.



Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun əsgər və zabitləri döyüş meydanında tarixi ədaləti bərpa etdilər. Prezidentin "Qarabağ Azərbaycandır!" hayqırtısını təkrar edən igid Vətən oğulları döyüş meydanında göstərdikləri qəhrəmanlıqlarla hərb tariximizə yeni salnamə yazdılar. Bütün dünyaya Azərbaycan dövlətinin və ordusunun gücünü, qüdrətini bir daha nümayiş etdirdilər. Bu yolda şəhidlərimiz də oldu. "Torpaq əgər uğrunda ölən varsa Vətəndir". Odur ki, bu gün hər birimiz ölkə vətəndaşı olaraq bizlərə 44 günlük haqq savaşında sevinc, fərəh, qürur dolu saysız-hesabsız qələbələr bəxş edən şəhidlərimizə, şanlı Azərbaycan Ordusunun əsgər və zabitlərinə, hərbçilərinə bir ömür boyu minnətdarıq.

Azərbaycanın Vətən müharibəsində parlaq qələbə qazanmasında, torpaqlarımızın işğaldan azad olunmasında, işğalçı düşmənin torpaqlarımızdan qovulmasında qəhrəmancasına şəhid olan igid oğullarımızdan biri də gizir Elvin Orucovdur - İkinci Qarabağ müharibəsində Qazaxın ilk şəhidi olan Elvin Orucov.

İndi onun qısa, lakin mənalı ömür yolunu Qazaxda demək olar ki, hamı əzbər blir. Gizir Elvin Orucov 18 dekabr 1991-ci ildə anadan olmuşdur. 1999-cu ildə Rusiya Federasiyasının Nijni Novqorod şəhərində orta məktəbin 1-ci sinfinə getmiş, lakin ailəsi doğma vətənə - Azərbaycana köçdüyü üçün təhsilini 2005-ci ildən İsmət Qayıbov adına Qazax şəhər 3 nömrəli tam orta məktəbdə davam etdirmişdir. 2009-cu ildə həmin məktəbin 11-ci sinfini bitirdikdən sonra 2010-cu ildə həqiqi hərbi xidmətə getmişdir. 2012-ci ildə hərbi xidməti başa vuran Elvin ürəyində bəslədiyi çoxdankı arzusunu həyata keçirməyi qarşısına məqsəd qoymuşdur. Ömrünü hərbi xidmətə həsr etməyi qərara alan Elvin 2011-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində tank komandiri kursunu bitirərək gizir rütbəsi almışdır. O, xidmətdə olduğu bütün dövrlərdə ona tapşırılan işi layiqincə yerinə yetirmiş, əsl hərbçi kimi nümunə göstərmişdir. Hətta "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi" medallarına layiq görülmüşdür.

Elvin Orucov xidmətdə olduğu kimi, döyüşlərdə də fərqlənmişdir. Aprel döyüşlərinin iştirakçısı olan Elvin Vətən müharibəsi başlayanda Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə əsl qəhrəmanlıq göstərmişdir. 2020-ci il sentyabrın 27-də Füzulinin Alxanlı kəndi istiqamətində gedən döyüşlərdə onun komandiri olduğu tank minaya düşərək partlamış və nəticədə ekipajın üzvləri şəhid olmuşlar. O, ailəli idi. Emil adlı oğlu və Elay adlı qız övladı bu vətənə və xalqa əmanətdir.

Bütün şəhidlərimiz kimi, Elvin Orucovun da göstərdiyi şücaət dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ölümündən sonra Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Vətən uğrunda", 25 dekabr 2020-ci il tarixli sərəncamına əsasən isə "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Vətən müharibəsində qələbəmizin 3-cü ildönümü günlərində Elvun Orucovun məzarı önündə hər gün çoxlu insan olur. Vaxtilə onun təhsil aldığı məktəbin şagirdləri və müəllimləri onu yad etmək üçün Şəhidlər xiyabanına gəlir, Zəfər Gününü onlara bəxş edən igid oğullarımızın xatirəsinə ehtiram göstərirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Əfsanəyə dönən igidlər

Torpaq, yurd, vətən oğulları ilə tanınır. Dar gündə, vətənin başı üstünü qara buludlar alanda oğullar əyninə əsgər paltarı geyir, əlinə silah alıb odun-alovun içinə atılırlar. Döyüş meydanında onları bir məqsəd, bir amal birləşdirir: torpaqlarımıza göz dikən mənfur düşməni məhv etmək!

Xalqımızın igid oğulları məhz bu iradə ilə ayağa qalxaraq Birinci və İkinci Qarabağ müharibələri zamanı döyüşə atılmışlar. Yüzlərlə, minlərlə gəncimiz bu yolda canlarından keçib şəhidlik zirvəsinə ucalmışdır. Nə qədər gənc isə sağlamlığını itirib qazi olmuşdur.

Biləsuvarlı gənclər də hər iki müharibədə mərdliklə döyüşərək qəhrəmanlıq nümunəsi göstərmişlər. Mübariz İbrahimovun şücaəti, qəhrəmanlıq, vətənpərvərlik nümunəsi xalq arasında əfsanəyə çevrilmişdir. M.İbrahimov 2010-cu il iyun ayının 18-dən 19-na keçən gecə Tərtər rayonunun Çaylı kəndi istiqamətində erməni işğalçılarının hər gün atəşkəs rejimini pozmalarına cavab olaraq böyük igidlik və şücaət göstərərək qəhrəmancasına həlak olmuşdur. Mübariz düşmənləri lərzəyə salmış, dəhşətli anlar yaşatmış, öz xalqının isə milli ruhunu, mübarizə əzmini daha da yüksəltməyə nail olmuşdur. Bununla o, bir daha sübut etmişdir ki, Azərbaycan xalqı heç vaxt doğma torpaqlarının düşmən tapdağı altında qalmasına razı olmayacaq.

Prezident İlham Əliyev 2010-cu il 22 iyul tarixli sərəncamı ilə Mübariz İbrahimova Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra) fəxri adını vermişdir. Həmin vaxt Azərbaycanın demək olar ki, hər yerindən, hətta ən ucqar rayon və kəndlərdən belə M.İbrahimovun anadan olduğu Əliabad kəndinə ardı-arası kəsilmədən axın-axın insanlar gəlirdi.

Günlər ötdükcə şüurlu surətdə canını Vətən yolunda fəda edən bu əfsanəvi qəhrəman haqqında məqalələr, bədii əsərlər, mahnılar, habelə sənədli povest yazıldı, film çəkildi. Biləsuvar şəhərində küçələrdən birinə onun adı verildi. Qəhrəmanın adını daşıyan liseyin önündə isə onun mərmərdən yonulmuş möhtəşəm heykəli ucalır. Tədris ocağında hamı qəhrəmanın adına layiq olmağa çalışır. Odur ki, liseyin uğurları çoxdur. Təkcə bu il liseyi bitirən bütün məzunlar ali məktəblərə daxil olmuşlar. Bu, ölkə üzrə ən yüksək göstərici hesab edilmişdir.

M.İbrahimovun göstərdiyi əfsanəvi qəhrəmanlıq yetişməkdə olan gənc nəsil üçün əsl nümunə, örnək olmuşdur. Bugünkü gənc və yeniyetmələrimizin hər biri qəhrəmana oxşamağa, Vətəni onun kimi sevməyə, onun kimi əsgər olmağa, döyüşməyə çalışır.

İkinci Qarabağ müharibəsində Biləsuvardan 1681 nəfər torpaqlarımızın düşmən tapdağından azad edilməsində mərdliklə döyüşmüşdür. Onlardan 72 nəfəri şəhid olmuş, 75 nəfəri yaralanmışdır. Vətən müharibəsi şəhidlərindən 32 nəfəri orden və medallarla təltif edilmiş, 3 nəfər "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüşdür. Birinci Qarabağ müharibəsində isə 616 biləsuvarlı iştirak etmişdir. Onlardan 131 nəfəri şəhid, 91 nəfəri qazi olmuşdur.

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün 25 yanvar 2021-ci il tarixdə sərəncam imzalamışdır. Sənəddə əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin 2021-2025-ci illər ərzində mərhələli şəkildə mənzil və ya fərdi evlə təmin edilməsi nəzərdə tutulmuşdur.

Sərəncamdan irəli gələn vəzifələrlə əlaqədar Biləsuvarda da göstərilən kateqoriyaya aid şəxslər barədə məlumatlar qeydə alınmış və sənəddə qeyd olunan məqsədlərin həyata keçirilməsi üçün torpaq sahələri ayrılmış, həmin şəxslərlə əlaqədar digər müvafiq məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmişdir. Hazırda onlar üçün 11 fərdi yaşayış evi tikilir, digər tədbirlər həyata keçirilir.

Rayonda şəhidlərin adlarının əbədiləşdirilməsi üçün 39 küçəyə onların adı verilmiş, xatirələrinə çoxlu sayda bulaqlar tikilmiş, yaşadıqları evlərin fasadına lövhələr vurulmuşdur.

Şəhidlər ölmürlər. Onlar Azərbaycanın hərb tarixində çox böyük uğurlara imza atmış, yenilməz, müzəffər ordumuzun şanlı qələbəsində canlarını qurban verərək ən uca məqama yüksəlmişlər. Xalqımız, dövlətimiz onların xatirəsini həmişə uca tutur.

*Siz ey Vətən yolunda şirin canından keçib,*
*İgidliyi, mərdliyi özünə amal seçib,*
*Ömrün bahar çağında həyatdan erkən köçüb,*
*Ölümüylə bu yurdu, torpağı yaşadanlar!*
*Yaşayan hər ömürdə qanınız, canınız var!*

*Bir ata övladından el oğluna döndünüz.*
*Kim deyir ki, öldünüz, kim deyir ki, söndünüz?!*
*Gələcək nəsillərə yetəcəkdir ününüz!*
*Siz bu gün də, sabah da - əsrlərlə sağsınız!*
*Bu yurdun sinəsində vüqarsınız, dağsınız!*

*Siz yazdınız millətin tarixini qan ilə,*
*Sinənizdə yurd saldı yurda atılan güllə.*
*Məzarınız tutulub min çələngə, min gülə.*
*Tərsiniz çiçək kimi, həmişə baharsınız!*
*Azərbaycan köksündə əbədi yaşarsınız!*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Bir evin oğlu idi, bir elin oğlu oldu...



Gün günortanı keçsə də, havanın istisi azalmayıb. Bir az iti addımlarla gedirəm ki, gecikməyim, deyilən vaxt təyin olunmuş yerə çatım. Ötən gün şəhid anası Mehriban Qurbanova ilə zəngləşib danışmışdıq ki, İkinci Qarabağ müharibəsində yurdumuzun azadlığı uğrunda canından keçmiş oğlu Murad haqqında material hazırlamaq üçün görüşək.

Evin qapısı açıq idi. Asta səslə Mehriban xanımı çağırdım. Bir-iki dəqiqə sonra şəhid anası qapının ağzında göründü. Onunla ehtiramla görüşdüm. Divara Muradın hərbi formada olan müxtəlif ölçülərdə böyüdülmüş şəkilləri vurulub. Onun şəkillərindən boylanan baxışlarından igidlik yağır.

## Murad Aprel döyüşlərində də iştirak edib

Şəhid Murad Qurbanovun xatirələrini özündə yaşadan albomlara və bu albomlardakı şəkillərə baxa-baxa Mehriban xanımla yaxından tanış oluruq. Öyrənirik ki, Mehriban Qurbanova uzun illərdir Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Səbail rayon idarəsində çalışır. Oğlu Murad cəbhə bölgələrinə də elə buradan yola düşüb.

Mehriban xanım söhbətini Muradın ömür və döyüş yoluna kökləyir. Şəhid anasını dinlədikcə öyrənirik ki, Murad Qurbanov 23 mart 1996-cı ildə Salyan rayonunda dünyaya göz açıb. Birinci sinfə rayondakı 2 nömrəli orta məktəbdə gedib. Bir ildən sonra ailə vəziyyəti ilə əlaqədar Bakı şəhərinə köçüblər. Murad təhsilini 20-ci sahədə yerləşən 51 nömrəli məktəbdə davam etdirib. Orta təhsilini bitirdikdən sonra Bakı Maliyyə-İqtisad Kollecinə qəbul olub. 2015-ci ildə ordu sıralarına yollanıb. Qismətinə cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək düşüb. Murad ordumuzun böyük uğuru və üstünlüyü ilə başa çatan Aprel döyüşlərində də iştirak edib. Onların bölükləri müxtəlif günlərdə Tərtər və Goranboy rayonlarının müdafiəsində dayanıb. Murad dörd gün ərzində erməni qəsbkarlarına qarşı cəsarətlə vuruşub. 2017-ci ildə ordu sıralarından döndükdən sonra ticarətlə məşğul olub. 2020-ci il avqust ayının 20-də sevib-seçdiyi Nəzrinlə nişanlanıb.

Qəfil başlayan İkinci Qarabağ müharibəsi Murad Qurbanovun planlarını pozub. Vətən müharibəsinin başladığı ilk gündən o, könüllü olaraq döyüşə can atırdı. İstəyinə 2020-ci il sentyabrın 29-da çatıb. Qarabağa yollanıb. Əvvəlcə döyüşmək üçün onları Füzuli istiqamətinə göndəriblər. Beş-altı gündən sonra isə Cəbrayıl rayonu uğrunda gedən döyüşlərə cəlb olunublar. Oktyabrın 7-də onları Füzulidən Xocavəndə gətiriblər. Muradgil Hadrut qəsəbəsinin azadlığı uğrunda vuruşurmuşlar. Həmin günlər Azərbaycan Ordusu düşməni geri sıxışdıra-sıxışdıra addım-addım torpaqları ermənilərdən azad edirdi. Başı nə qədər döyüşlərə qarışsa da, Murad evə zəng vurmağı da unutmurmuş. Vaxtaşırı anasına, bacısına zəng vurub, sağ-salamat olduğunu deyirmiş. Oktyabrın 10-dan sonra ondan gələn zənglərin arası kəsilib. Ayın 12-də isə doğmaları onun torpaqlarımızın azadlığı uğrunda şəhid olduğunu eşidiblər. Ertəsi gün - oktyabrın 13-də Murad böyük izdihamla Səbail rayon Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılır. Murad qısa, amma şərəfli bir ömür yaşayıb.

Kövrək duyğulara köklənən şəhid anası övladı ilə bağlı xatirələrini çözələyir:

- Oğlum çox mehriban, qayğıkeş və coşqun bir uşaq idi. Hərbi xidmət, ömür yolunda qazandığı az-çox təcrübə hiss olunmadan onu gələcək həyata hazırlayırdı. Özünə həyat yoldaşı seçmiş, nişanlanmışdı. Vətən müharibəsinin başladığını eşidəndə dedi ki, ana, çağırmasalar da, mən Qarabağa gedəcəyəm, ermənilərlə vuruşacağam. İnşallah, toyu müharibədən sonra da edə bilərik. Əsas yurdumuzun taleyidir. Dedim ki, axı evimizin dayağı sənsən, bizi kimin ümidinə qoyub gedəcəksən? Cavab verdi ki, mən erməniləri Aprel döyüşlərində görmüşəm. Onları yaxşı tanıyıram, çox qorxaqdılar. Birini öldürəndən sonra qalanları qaçıb gedəcəklər. Bax, görərsən, torpaqlarımızı işğaldan tezliklə azad edəcəyik. Əgər mən döyüşə getsəm, çox yox, haradasa 15 gündən sonra qayıdacağam.

## "Qəlpə ürəyindən dəymişdi"

Muradı döyüşə yola salandan sonra gözümüz yolda, qulağımız səsdə idi. Oğlum tez-tez zəng vurub iştirakçısı olduğu döyüşlərdən, azad etdikləri şəhər və kəndlərdən, qazandığı uğurlardan danışırdı. Ondan zəfər dolu xəbərləri eşitdikcə sevinirdik. Amma sevincimiz uzun çəkmədi. Oktyabrın 10-da Muraddan zəng yox, mesaj gəldi. Yazmışdı ki, nigaran qalmayın, mən sağ-salamatam. Sonrakı günlərdə də ondan zəng gəlmədi. Nigarançılığımız artdı. Oktyabrın 12-də iş yoldaşlarım dedilər ki, sizin ünvanınıza şəhid gətirirlər. Bu xəbəri eşidəndə az qaldı ki, həyəcandan ağlım başımdan çıxsın. Sonra dedilər ki, şəhid olan sənin oğlun deyil, Əli Tağıyev adlı bir əsgərdir. Yazıq Əli də bizim küçəmizdə yaşayırdı. Həmin günlər bizim də işimiz çox idi. Heç gecələr də evə gəlmirdik. Başım nə qədər işə qarışsa da, içimdə bir narahatlıq dolaşırdı. Həmin gün axşam saat yeddi radələrində qapımızı bəd xəbər döydü: Murad Hadrut uğrunda gedən döyüşlərdə şəhid olmuşdu. Bu acı xəbəri eşidəndə yer-göy başıma dolandı. Oğlum döyüşə getməzdən əvvəl söz vermişdi ki, on beş gündən sonra qayıdacaq. Hesablayıb gördüm ki, oğlumun döyüşə yollandığı vaxtdan on beş gün keçib. Deməli, şəhid olsa da, verdiyi sözə xilaf çıxmamışdı. Murad bu dəfə evimizə yox, əbədi olaraq könüllərə, qəlblərə və ürəklərə qayıtmışdı. Düşmən mərmisindən qopan qəlpə Muradın ürəyindən dəymişdi. Yaxınlığında olan əsgər yoldaşları danışırdılar ki, son nəfəsində "Ay, məni ürəyimdən vurdular" deyib. Bu, onun dilindən qopan son kəlmə olub. Oğlumun xatirəsini əziz tutanların hamısına dərin minnətdarlığımı bildirirəm.

Bacısı İlahə Qurbanova da qardaşını kövrək hisslərlə yada saldı. Sonda dedi ki, indi hər axşam biz "Muradın işığının" ətrafına yığışırıq.

Muradın xatirəsinə düzəldilmiş guşəyə baxırıq. Guşədəki əşyalarda onun silinməz izi var. Medalların vəsiqələrinə də baxanda öyrənirik ki, İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə əsgər Murad Qurbanov "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Oğul və qardaş itkisi ilə yaşayan bu kövrək insanlarla sağollaşıb ayrılırıq. Evdən aralanıb yavaş-yavaş üzü dayanacağa tərəf addımladıqca fikirləşirəm ki, "Muradın işığı" heç vaxt sönməyəcək. Bu işığın nuru tükənməyəcək.

***Vahid MƏHƏRRƏMOV***

# BAŞLADIQ

**30 ilə yaxın müddətdə torpaqlarımızı işğal altında saxlayan Ermənistanın Azərbaycana qarşı davamlı təxribatları daha da intensivləşir...**

**Sentyabrın 26-dan 27-nə keçən gecə Ermənistan hərbi birləşmələri növbəti dəfə genişmiqyaslı hərbi əməliyyata başlayır...**

**Azərbaycan Silahlı Qüvvələri isə düşmənə layiqli cavab vermək üçün əmr gözləyir və illərlə gözlənilən hərbi komanda verilir - İrəli!..**

**Savaş tariximizin ən şərəfli səhifəsi olan Vətən müharibəsi başlayır...**

**Sentyabrın 27-də ölkə daxilində və cəbhədə cərəyan edən hadisələrin xronikası tariximizə yeni sətir, yeni abzasdan yazılır...**

Saat 07:30

Müdafiə Nazirliyinin məlumatı

## Ermənistan silahlı qüvvələri bütün cəbhəboyu genişmiqyaslı təxribat törədib

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.



Saat 08:35

Müdafiə Nazirliyinin məlumatı

## Düşmənin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Əhali arasında çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.



Saat 09:10

Müdafiə Nazirliyinin məlumatı

## Bütün cəbhəboyu qoşunlarımız əks-hücum əməliyyatına başlayıb

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə, müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri vurulub, ekipaj üzvləri sağdır.

Qoşunlarımızın sürətli əks-hücum əməliyyatı davam edir.

Saat 10:28

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatı

## Ölkə üzrə internetin verilməsi məhdudlaşdırılır

Ermənistanın törətdiyi genişmiqyaslı təxribatın qarşısını almaq üçün ölkə üzrə internetin verilməsi məhdudlaşdırılıb.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaydığı məlumata görə, nazirlik ölkə üzrə internetin verilməsində məhdudiyyətlər tətbiq edəcək: "Azərbaycan vətəndaşlarının münaqişə vəziyyətində internetlə bağlı yarana biləcək məhdudiyyətlər səbəbindən anlayış göstərəcəklərinə ümid edirik".

Saat 10:53

Müdafiə Nazirliyi təkzib edir

Ermənistan tərəfinin, guya, Azərbaycan Ordusuna məxsus 3 tank, 2 helikopter və 3 pilotsuz uçuş aparatının (PUA) vurulması barədə yaydığı məlumat yalandır və dezinformasiyadır.

Bildiririk ki, cəbhədə bölmələrimiz düşmən üzərində tam üstünlüyə malikdir.

Saat 11:08

Müdafiə Nazirliyinin məlumatı

## Azərbaycan Ordusu mülki əhalini atəşə tutmur

Məlumat verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhəboyu əks-hücum əməliyyatına başlaması barədə qərar verilib.

Rəsmi surətdə bəyan edirik ki, Azərbaycan Ordusu mülki əhalini, mülki obyektləri və mülki xarakterli infrastrukturları hədəfə almır. Azərbaycan işğalçı Ermənistandan fərqli olaraq hərbi əməliyyatlar zamanı Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququn müddəalarının tələblərinə riayət edir.



Ermənistan ordusu özünün atəş nöqtələrini qəsdən mülki əhalinin yaşayış yerlərinin içərisində və yaxınlığında yerləşdirir.

Azərbaycan Ordusu işğal altında olan ərazilərdəki mülki əhalini hərbi obyektlərdən kənar durmağa çağırır.

Saat 11:50

Prezident xalqa müraciət edir

## İlham ƏLİYEV: "Biz haqq yolundayıq, biz zəfər çalacağıq!"

Prezident İlham Əliyev xalqa müraciət edərək deyir ki, bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Ali Baş Komandan vurğulayır ki, son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter alırdı. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olub. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıb və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olublar. Amma Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi.

Bu tədbirlərlə düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı: "Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır".



Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü?

Prezident bu məsələyə aydınlıq gətirərək deyir ki, ilk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər: "Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir". Prezident deyir ki, Ermənistanın iyul və avqust aylarındakı təxribatlarına verilən layiqli cavab onlara dərs olmayıb. Ona görə yenə də çirkin əməllərini həyata keçirirlər.

Dövlət başçısı bildirir ki, əgər Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" deyirsə, onda hansısa danışıqlardan söhbət gedə bilməz. Bu azmış kimi, Ermənistan rəhbərliyi iddia edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir.

İlham Əliyev qətiyyətli şəkildə bəyan edir ki, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. Danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir və bu o deməkdir ki, işğala son qoyulmalıdır:

"Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər".

Ali Baş Komandan Ermənistanın son təxribatlarını, müharibə hazırlıqlarını təsdiq edən faktları da misal göstərir. Bunlar qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərarın qəbul edilməsi, Ermənistanın baş nazirinin on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacağı ilə bağlı bəyanatıdır. Bütün bunlar Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi.

İlham Əliyev bu barədə hətta BMT kürsüsündən də dünyaya səslənərək Ermənistanın yeni müharibəyə hazırlaşdığını, bu ölkənin təxribatlarının dayandırılmasının vacibliyini bildirdiyini deyir.

Azərbaycan Prezidenti Ermənistanın işğal edilmiş torpaqlarımızda qanunsuz məskunlaşma siyasətinə də aydınlıq gətirir: "Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir. Bu bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır".

Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisinin azaldığını vurğulayan dövlət başçısı deyir ki, bu ölkədə demoqrafik böhran yaşanır və onlarda işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirmələri üçün insan resursları yoxdur. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıb. Rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir, tarixi abidələrimiz, məscidlərimiz dağıdılır, təhqir edilir. Məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bunu edən faşistlərdir, vandallardır, vəhşilərdir.

Prezident deyir ki, Azərbaycan heç bir təxribata əl atmayıb, sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır: "Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır".

Həmçinin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Amma dövlət başçısı bu qətnamələrin 30 ilə yaxın müddətdə kağız üzərində qaldığını söyləyərək deyir ki, bu müddətdə Minsk qrupu çərçivəsində danışıqlar aparılsa da, Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıb. BMT-dən başqa bütün digər aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul etmişlər. İslam Əməkdaşlıq Təşkilatı ədalətli qətnamələr qəbul edib. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyir:

"Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"



Saat 12:11

Müdafiə Nazirliyinin məlumatı

## Əks-həmlə əməliyyatı uğurla davam edir

Azərbaycan Ordusunun bölmələri cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murovdağ istiqamətlərində Ermənistan qoşunlarının işğalı altında olan vacib yüksəkliklər uğrunda döyüşlər aparırlar.

Raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv edirlər.

Bütün cəbhəboyu şiddətli döyüşlər gedir.






Saat 13:42

Xarici jurnalistlərə qarşı təxribat

## Ermənistan silahlı qüvvələri türkiyəli jurnalistləri hədəfə alır

Erməni hərbi bölmələri "TRT Haber" və "Anadolu" Agentliyinin əməkdaşlarının olduğu nöqtəyə minaatandan 3 atəş açırlar.

Bu barədə məlumatı "Anadolu" Agentliyi və TRT yayır.

Bildirilir ki, mərmilər jurnalistlərdən 100 metr məsafəyə düşüb. Xoşbəxtlikdən hadisə nəticəsində jurnalistlər xəsarət almırlar.

Saat 13:46

Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatı

## Tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür

Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayır. Sənəddə bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülh və sabitliyə ciddi təhlükə olduğuna



yaxşı bələd olan və Ermənistanın Azərbaycana qarşı təcavüzü, işğalçı fəaliyyətinə beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələrək prinsipial mövqe nümayiş etdirən beynəlxalq ictimaiyyət bu ölkənin işğalçılıq siyasətini, təxribatçı əməllərini kəskin şəkildə qınamalıdır.

Eyni zamanda Ermənistan beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur edilməlidir. Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Saat 14:00

Müdafiə Nazirliyinin məlumatı

## Ordumuz bir sıra kəndlərimizi və vacib yüksəklikləri azad edib

Azərbaycan Ordusunun qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad edilib.



Hazırkı məlumata görə, cəbhənin Füzuli-Cəbrayıl istiqamətində aparılan hərbi əməliyyat nəticəsində uzun illər ərzində düşmən işğalı altında olan Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Ağdərə rayonu istiqamətində və Murovdağ silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb.

Döyüş əməliyyatları davam edir.

# 27 sentyabr, saat 06:00...

Saat 14:16
Prezidentin Mətbuat Xidmətinin məlumatı

### Rəcəb Tayyib Ərdoğandan İlham Əliyevə tam dəstək



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Prezidenti bu gün Ermənistanın hərbi təxribatı nəticəsində Azərbaycan mülki şəxslərinin və hərbi qulluqçularının həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib, onlara Allahdan rəhmət diləyib. Rəcəb Tayyib Ərdoğan həmişə olduğu kimi, bu gün də Türkiyənin Azərbaycanın yanında olduğunu vurğulayıb.

Başsağlığına görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidentinin daimi dəstəyini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev bu gün cəbhə xəttində Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində baş verən hadisələrin gedişi barədə məlumat verib.

Dövlət başçıları dost və qardaş Azərbaycanla Türkiyə arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduqlarını bildiriblər.



Saat 15:05
Müdafiə Nazirliyinin məlumatı

### Düşmənin döyüş texnikaları məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əks-həmlə əməliyyatı nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi və döyüş texnikaları məhv edilib.

Saat 15:57
Prezidentin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir

### İlham Əliyev: "Uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaq"

Günün ikinci yarısında Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilir.

İclasda çıxış edən Ali Baş Komandan deyir ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti davam edir və bu siyasət Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərir.

Amma Azərbaycan Ordusu bu hərbi təxribata cavab olaraq, hazırda əks-hücum əməliyyatı keçirir. Uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin canlı qüvvəsinə və hərbi texnikasına böyük ziyan vurulub. Əks-hücum nəticəsində Azərbaycanın işğal altında olan bir neçə yaşayış məntəqəsi işğalçılardan azad edilib:

"Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın davam edən işğala son qoyacaqdır!"



Prezident deyir ki, Azərbaycan Ermənistana 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verib. Amma görünür ki, bu, onlar üçün dərs olmayıb: "Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir".

Ali Baş Komandan bütün hərbi hissələrimizdə, hərbi birləşmələrimizdə ruh yüksəkliyinin olduğunu, eyni zamanda ordumuza könüllü yazılanların sayının on minlərlə insanı əhatə etdiyini söyləyərək bunu xalqımızın öz dövlətinə sadiqliyinin göstəricisi adlandırır: "Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır. Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik".

İclasda çıxış edən müdafiə naziri Zakir Həsənov isə Ali Baş Komandana məruzə edərək deyir ki, əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xətti yarılıb, yeddi kənd işğaldan azad olunub. Azərbaycan Ordusu digər istiqamətlərdə uğurlu əks-hücum əməliyyatı həyata keçirir və düşmən böyük itkilər verərək geri çəkilir.

Azərbaycan Ordusunun zərbələri həm ön xətdə, həm də düşmənin tam dərinliyində həyata keçirilir. Düşmən tam şəkildə geri çəkilir.

İclasa yekun vuran Ali Baş Komandan əldə edilmiş ilk uğurlar münasibətilə Azərbaycan xalqını, Azərbaycan Ordusunu təbrik edir: "Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

Prezidentin Mətbuat Xidmətinin məlumatı

### Fransa Prezidenti Emmanuel Makron İlham Əliyevə zəng edir

Prezident Emmanuel Makron Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini qeyd edib və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Dövlətimizin başçısı qeyd edir ki, Ermənistan rəhbərliyi şüurlu şəkildə danışıqlar prosesini pozur. Ermənistan rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı dövlət başçısı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən və davam edən hərbi təxribatla bağlı hadisələrin gedişi barədə məlumat verərək qeyd edir ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Azərbaycan Prezidenti bildirir ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.



Saat 16:29
Müdafiə Nazirliyinin məlumatı

### Ermənistan hərbi birləşməsinin komandanlığına təslim olmaq təklif edilib

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaşayış məntəqəsində yerləşən qarnizonunun tam məhv edilməməsi və döyüş itkilərinin sayının artmaması məqsədilə Azərbaycanın hərbi komandanlığı tərəfindən bu istiqamətdə yerləşən erməni komandanlığına müqavimət göstərməmək, silahı yerə qoyaraq təslim olmaq barədə təklif edilib.

Azərbaycan Ordusunun komandanlığı onu da bildirir ki, hərbi əsirlər və mülki şəxslərlə davranış Cenevrə Konvensiyasının tələbləri və beynəlxalq humanitar hüquqa əsasən həyata keçiriləcək.

Müqavimət göstəriləcəyi təqdirdə hər bir silahlı şəxs tərəfimizdən zərərsizləşdiriləcək.



Saat 18:18
Müdafiə Nazirliyinin məlumatı

### Düşmən zirehli texnikasını döyüş meydanında ataraq qaçır

Əks-həmlə əməliyyatı həyata keçirən Azərbaycan Ordusu bölmələrinin zərbələri nəticəsində düşmən çoxlu sayda zirehli texnikanı döyüş meydanında qoyaraq qaçıb.

Nazirlik Ermənistan qoşunlarının məhv edilən, eləcə də ərazidə qalan hərbi texnikalarının videogörüntülərini yayır.



Saat 18:28
Müdafiə Nazirliyinin məlumatı

### Murovdağ silsiləsindəki əhəmiyyətli yüksəklik azad olunub

Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murovdağ silsiləsindəki Murov zirvəsi azad olunub.



Əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.

Döyüş əməliyyatları davam edir.

Saat 18:45
Türkiyə Prezidenti sosial şəbəkədə paylaşım edir

### Rəcəb Tayyib Ərdoğandan Azərbaycana növbəti dəstək

"Bugünkü telefon danışığı zamanı bacarıq və qətiyyətinə bir daha şahid olduğum Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevə də bildirdiyim kimi, Türkiyə "bir millət, iki dövlət" anlayışı ilə azərbaycanlı qardaşları ilə həmrəyliyini gücləndirməyi davam etdirəcək".

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində etdiyi paylaşımda bildirib.

Türkiyə Prezidenti qeyd edir ki, Azərbaycana qarşı yeni hücumlar edən Ermənistan bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bir daha göstərdi: "Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanındadır. Erməni xalqını onları fəlakətə aparan hakimiyyətinə və onları oyuncaq kimi istifadə edənlərə qarşı gələcəklərinə sahib çıxmağa dəvət edirik. Bütün dünyanı işğala qarşı apardığı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq".

Saat 19:05
Azərbaycan Respublikası Prezidentinin Fərmanı

### Ölkə ərazisində hərbi vəziyyət elan edilir

Prezident İlham Əliyev Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, ölkəmizə qarşı silahlı hücumlar etməsi və mütəmadi hərbi təxribatlar törətməsi ilə əlaqədar, 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycanın bütün ərazisində hərbi vəziyyətin elan edilməsilə bağlı Fərman imzalayır.

Sənəddə bildirilir ki, hərbi vəziyyətin təmin edilməsi məqsədilə "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş tədbirlər həyata keçirilsin.

Fərmana əsasən, Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət dövründə saat 21:00-dan saat 06:00-dək komendant saatı tətbiq edilir.

Şəhər və rayonlara xüsusi giriş-çıxış rejimi tətbiq edilir, nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması üçün tədbirlər görülür.

Saat 19:59
Milli Məclisin iclası keçirilir

### Parlament Azərbaycanda hərbi vəziyyətə keçidi təsdiq edir

Milli Məclisin iclası keçirilir. Parlamentin Sədri Sahibə Qafarova bildirir ki, Prezident İlham Əliyev "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərman imzalayıb və həmin sənədin təsdiq edilməsi üçün Milli Məclisə təqdim edib. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə görə, "Hərbi vəziyyətin elan edilməsi haqqında" Fərman Milli Məclisə daxil olduqdan sonra 48 saat müddətində növbəti və növbədənkənar sessiyalar dövrünün olub-olmamasından asılı olmayaraq, parlamentin iclası keçirilir. Bugünkü iclasın keçirilməsi də bu zərurətdən irəli gəlir.




Müzakirələrdən sonra Milli Məclisin qərarı qəbul edilir. Qərara əsasən, "Hərbi vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 sentyabr tarixli Fərmanı təsdiq edilir.

Saat 20:08
Baş Prokurorluğun məlumatı

### Ermənistanın atdığı mərmi nəticəsində Naftalanda bir ailənin 5 üzvü həlak olub

Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan rayonunda bir ailənin 5 üzvü həlak olur. Baş Prokurorluğun yaydığı məlumatda bildirilir ki, Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində rayonun Qaşaltı kəndinin sakini, 1951-ci il təvəllüdlü Elbrus Qurbanov və onun 4 ailə üzvü, 1956-cı il təvəllüdlü Şəfayət Qurbanova, 2006-cı il təvəllüdlü Fidan Qurbanova, 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 1981-ci il təvəllüdlü Afaq Əmirova həlak olublar.





Bundan başqa təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutub, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətməyə davam edib. Hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib.

Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi, işğalçı dövlətə qarşı beynəlxalq hüquqla nəzərdə tutulmuş sanksiyaların tətbiq olunması məqsədilə tərəfimizdən xüsusi beynəlxalq tribunalın yaradılması üçün bir sıra beynəlxalq təşkilatlara, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasına müraciət ediləcək.

Saat 20:15
Müdafiə Nazirliyinin məlumatı

### Düşmənin 22 tankı, 15 zenit-raket kompleksi, silah anbarı məhv edilir

Qoşunlarımızın keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Ermənistan ordusuna məxsus silah-sursat anbarı məhv edilir.

Ordumuzun zərbələri nəticəsində anbarda baş verən partlayışlar nazirliyin yaydığı videoda aydın müşahidə olunur.

Əməliyyat gününün sonuna əldə edilən kəşfiyyat məlumatlarına əsasən, Ermənistan ordusu döyüşlər nəticəsində ciddi itkilərə məruz qalır. Belə ki, düşmənin 22 ədəd tank və digər zirehli texnikası, 15 ədəd "OSA" zenit-raket kompleksi, 18 ədəd pilotsuz uçuş aparatı (PUA), 8 ədəd artilleriya qurğusu məhv edilib, ölən və yaralı olmaqla canlı qüvvə baxımından 550 nəfərdən artıq itkisi var. Müxtəlif istiqamətlərdə onun 3 silah-sursat anbarı məhv edilib.

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri podpolkovnik Lernik Vardanyan məhv edilib, onun komandiri olduğu hərbi hissənin şəxsi heyəti isə ağır itkilərə məruz qalıb.

Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospital və mülki xəstəxanalarda yer qıtlığı yaranıb, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*





*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*



# Birlik, bərabərlik ayı

2020-ci ilin 27 sentyabrı… Zəfər günəşinin Qarabağda doğulduğu gün. Qəhrəmanlıq tariximizin, Qələbə salnaməmizin başlanğıc anı. Vətən bütövlüyü üçün ölümün növbəsinə durmuş oğulların gözlərini qırpmadan "Ya azadlıq, ya ölüm", "Qarabağ Azərbaycandır" hayqırtısı ilə səfərbərlik idarələrinin qarşısına axışaraq növbəyə durduqları şərəfli bir tarix. Xalqın düşmənə yerini göstərmək üçün qəzəblə qalxan bir yumruq ətrafında birləşdiyi, müqəddəs tarixin başlanğıc məqamı, bizi müqəddəs qələbəyə aparan yol, dəmir iradənin "dəmir yumruğ"a döndüyü şanlı tarix…

30 ilə yaxın bir zaman idi ki, düşmən ərazilərimizi işğal edib yurdumuzu viran qoyaraq torpaqlarımızda mənəm-mənəmlik edirdi. Hər fürsətdə, hər məqamda qan tökməkdən çəkinmirdi. Qana susamış düşmən vaxtaşırı atəşkəsi pozub dinc əhalini qorxu altında saxlamağa çalışırdı. Havadarlarının vasitəsilə əldə etdikləri müvəqqəti qələbənin təsirindən çıxa bilməyən vandallar bir qədər də irəli gedərək "tanklarını Bakiya sürəcəkləri" ilə bağlı sərsəm iddialar səsləndirirdilər. Problemi sülh yolu ilə həll etməyə çalışan Azərbaycan Prezidenti bunun mümkün olmayacağı təqdirdə münaqişənin hərbi yolla həllinin qaçılmaz olduğu barədə düşmənə vaxtaşırı xəbərdarlıq edir, "Bu qan yerdə qalmayacaq. Tökülən hər damla qan üçün düşmən cavab verəcək. Biz torpağımızın bir qarışını da güzəştə getməyəcəyik" deyirdi.

Müharibə deyəndə ilk növbədə yarımçıq qalmış ömürlər, qan, qırğın, anaların göz yaşı, körpələrin naləsi, nakam sevgilərin ürəklərdə dəfni, bir sözlə, qanla yazılan bir tarix - Vətəni canından çox sevən igidlərin döyüş meydanında göstərdiyi şücaət göz önünə gəlir. Bütün bunlara baxmayaraq, düşmən başqa yol qoymadığı üçün xalq, gənclərimiz öz Ali Baş Komandanından düşmənə yumruq göstərməyi, başa düşəcəyi dildə cavab veriləcəyi günü gözləyirdi. Xalq Prezidentinə, onun siyasətinə, ordumuzun gücünə inanırdı. 2020-ci il sentyabrın 27-si səhərini Azərbaycan xalqı müharibə xəbəri ilə açdı. Bu xəbər özü ilə qorxu, məyusluq gətirmədi. Birlik, coşqu, qələbəyə inam gətirdi. Xalq bilirdi ki, irəlidə düşmənin qarşısına çıxarılacaq yenilməz ordusu, düşmənə və havadarlarına cavab verə bilən güclü Prezidenti var. Həmin gün igidlərimizin əlləri yumulub qəzəbli yumruğa döndü. Millət bir ağızdan "Ya azadlıq, ya ölüm" dedi. Minlərlə igidimiz qəzəb püskürərək düşmənin üstünə yeridi.

## Sentyabr dərsləri

Adətən dərslər sentyabrda başlayır. Sentyabrda başlanan Vətən müharibəsi zamanı Azərbaycan əsgəri vətən sevgisi, yüksək hazırlığı, hərb tarixində misli görünməmiş döyüş qabiliyyəti və yeni müharibə taktikası ilə bütün dünyaya bir dərs verdi. Dünya dövlətimizin başçısı İlham Əliyevin qətiyyətini, möhkəm iradəsini, bənzərsiz sərkərdəlik qabiliyyətini, çevik siyasi gedişlərini, praqmatik siyasəti ilə onun bir idarəetmə məktəbi yaratdığını gördü, ondan öyrəniləsi, əxz ediləsi çox məsələnin olduğunu anladı.

…Ordumuz düşmənə göz açmağa aman vermədən irəliləyirdi. Əsgər və zabitlərimiz qələbə ruhu, qələbə əzmi və sarsılmaz bir inamla düşmən üzərinə gedirdi. İgidlərimiz əsl kişilik nümunəsi göstərərək mülki əhaliyə zərər verməmək üçün bütün imkanlardan istifadə edir, yalnız legitim hərbi hədəfləri dəqiq atəşlə sıradan çıxarırdı. 44 günlük müharibə tarixində ermənilərdən fərqli olaraq Silahlı Qüvvələrimiz tərəfindən nə bir uşaq bağçası, məktəb, nə bir xəstəxana, bir sözlə, infrastruktur obyekti hədəf olmadı. Bir uşağın, azyaşlının həyatına son qoyulmadı. Əsgərlərimiz düşmən üzərinə coşqu ilə, inamla, vətən sevgisinin müqəddəsliyi ilə gedirdilər. Eyni zamanda erməni cəlladlarının 30 ildə törətdikləri vəhşiliklərin qisas hissi, intiqam hissi də oğullarımızı qələbəyə səsləyirdi. Əsgərlərin psixoloji vəziyyəti, qələbəyə olan inamı, döyüş ruhu qələbənin labüd olduğunu göstərirdi.

Əsgər bu inamı öz Ali Baş Komandanından alırdı. Müzəffər Ali Baş Komandanın bütün sahələrdə məğrurcasına düşmənin üzərinə getməsi, nəinki düşməndə, onun havadarlarında da çaşqınlıq yaratmışdı. Dünya ictimaiyyəti İlham Əliyevdən dəqiq və qərəzsiz Azərbaycan həqiqətlərini eşidirdi. İlham Əliyevin səsi haqqın, ədalətin, Azərbaycanın səsi idi. Bu səs bir liderin xalqının haqlı olduğunu sübut etmək üçün həqiqəti görməyən, erməni lobbisinin fitvasına uyan insanları məkrdən, qərəzdən çəkindirmək, hiylədən uzaqlaşdırmaq üçün dünyaya yönəlik bir etiraz idi.

Biz addım-addım qələbəyə doğru gedirdik. Əsgərlərimiz, igidlərimiz canlarını verib, torpaqlarımızı düşməndən geri alırdılar. Bu tarixi günlərdə İlham Əliyevin sərkərdəliyi ilə əsgərlərimiz ən yeni və şərəfli tariximizi yazırdılar…

Müzəffər Ali Baş Komandanın dəfələrlə dediyi kimi, 44 günlük müharibənin qəhrəmanı ön cəbhədə döyüşən, cəsarəti, vətən sevgisi, namusu, qeyrəti ilə silahlanıb düşmənin canına vəlvələ salan, dişi-dırnağı ilə döyüşüb torpağımızı geri qaytaran əsgər və zabitlərimizdir. Bu müharibənin qəhrəmanı belə cəsur oğullar yetişdirmiş atalar, analar, bütövlükdə Azərbaycan xalqıdır. Bu qələbənin memarı, zəfər yürüşünün Baş Qəhrəmanı isə bu ordunu quran, formalaşdıran, ona komandanlıq edən Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Onun apardığı uğurlu siyasət nəticəsində ordumuz 30 illik yolu 44 günə qət etdi.

Sentyabrda başlanan Vətən müharibəsi torpaq həsrətinə birdəfəlik son qoydu. Bu müharibədə qəhrəman ordumuz düşmənin hərb maşınını darmadağın edib, ona sarsıdıcı zərbə vuraraq əbədi zəfər çaldı. Bu zəfər üstümüzdən 30 illik məğlub damğasını, utancı silib milli kimliyimizə əbədi olaraq "məğrur xalq" ifadəsini həkk etdi.

Bu qələbə yalnız işğal olunmuş torpaqları xilas etmədi. Bu, yalnız Ermənistan ordusu üzərində çalınan qələbə deyildi. Bu, uzun illərdən bəri Cənubi Qafqazda kök salıb, dünyanı zəhərləmiş "böyük Ermənistan" yaratmaq mərəzinə tutulmuş çürük bir ideologiyanın, xəstəliyin üzərində çalınan qələbədir. Bu, illərdir faşizm xəstəliyindən əziyyət çəkən erməni xalqının xilası deməkdir. Daha erməni "ideoloqları" erməni uşaqlarına reallıqdan uzaq mifik düşüncənin, üfunət iyi verən "böyük Ermənistan" nağıllarını danışa bilməyəcəklər. Azərbaycan Ordusunun düşmən üzərində çaldığı sarsıdıcı qələbə bu ideyanın müəlliflərinə, sərsəmlikləri anlamayıb bu ideyanın əsirinə çevrilmiş savadsız, sadə ermənilərə bir dərs oldu. Erməni uşaqları onlara bir də sərsəm nağıllar danışmaq istəyənlərə "böyük Ermənistanın" onlara qazandırdığı qəbiristanlıqları göstərib "susun", "yetər " deyəcəklər.

Bu gün dünyanın bir sıra hərbi məktəblərində Azərbaycan Ordusunun döyüş təcrübəsi tədris edilir. Eyni zamanda ordumuzun döyüş taktikası həm də mükəmməl bir model kimi tətbiq edilir.

Düşmən üzərində çalınan bu qələbəni, siyasəti özünə peşə edib siyasətlə məşğul olmaq istəyənlər üçün də ciddi bir dərs oldu. Dost da, düşmən də anladı ki, siyasət diletantlıq sənəti deyil, bir elmdir. Siyasi uğurlara imza atmaq üçün İlham Əliyev siyasi məktəbindən dərs almaqla uğurlu nəticələr əldə etmək mümkündür.

Azərbaycan 30 il düşmənin işğalı altında qalan torpaqlarını azad etməklə əbədi olaraq ərazilərimiz üzərində suverenliyini bərpa etdi. Ermənilər tərəfindən xarabazara çevrilmiş Qarabağda abadlıq və quruculuq işlərinə start verildi. Dağıdılıb yandırılmış, məhv edilmiş infrastruktur bərpa edilməyə, Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilməyə başlandı. 30 il yurd həsrəti çəkib, hər cür əzab-əziyyətə dözən insanlar indi mərhələ-mərhələ dogma torpaqlarına geri dönürlər. Bununla da illərdir qaranlığa qərq olmuş Qarabağda yenidən azadlıq, xoşbəxtlik günəşi doğdu.

Bütün ağrı-acısı ilə sentyabr ayı zaman məfhumundan çıxıb yurdumuza birdəfəlik sülh gətirən müqqəddəs tarixi bir simvola döndü. Sentyabr həm də Azərbaycan Ordusunun, Azərbaycan xalqının dünyaya təqdimat ayı oldu. Dünya bu şavaş zamanı öz oğlunun tabutu qabağında oynayan ananı, nişanlısının ölümündən sonra intihar edən gənc qızı, qardaşının şəhid xəbərini aldıqda, cənazənin gəlməsini gözləmədən intihar edən bacını, ərinin əsgər paltarını geyinib cənazəsini çiynində daşıyan xanımı gördü, eyni zamanda kürəyində yaralı döyüş yoldaşını aparan döyüşən əsgəri, ürəyində qəlpə ola-ola "canım bu vətənə qurban" deyən əsgəri, can verərkən "axı niyə Şuşanı görmədim" deyərək gözünü əbədi yuman döyüşçünü, əsgərinə "bu mənim qardaşımdır" deyib səngərdə əsgəri ilə çiyin-çiyinə döyüşən generalı, şəhid oğlunun bükülüb gəldiyi qəhrəmanlıq bayrağını öpərək "Vətən sağ olsun" deyən ata-anaları, "əsgərim mənim balamdır" deyən Ali Baş Komandanı, ata məzarı önündə qələbə hesabatı verən Prezidenti heyranlıqla müşahidə etdi.

Uğur, qəhrəmanlıq, sevinc, kədər, birlik, bütövlük ayı sentyabr… Şəhidlərinə baxıb "Vətən sağ olsun!", oğullarının göstərdiyi qəhrəmanlıqları görüb "İgidlərin var olsun", işğaldan azad olan yerlərdə görülən möhtəşəm quruculuq işlərini görüb "Tanrı sənə yar olsun, Azərbaycan!" deyirik.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



# Atasının yolu ilə getdi və geriyə zəfərlə döndü

Müharibənin nə olduğunu filmlərdə görmüşdü. Və bir də Birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş atasından eşitmişdi ki, müharibənin alovu, şiddəti ilə yaşayanlar onun qan qoxusunu ömürboyu özləri ilə daşıyırlar.



Bütün bunlar bəzən ona reallıqdan uzaq görünürdü. Bəzən də ona elə gəlirdi ki, atasının dediklərini ruhunda daşıyır. "Vətən", "torpaq", "qələbə" və bu qəbildən olan digər sözlər onun doğulub böyüdüyü evdə atasının dilindən çox səslənirdi. Bəlkə də bu səbəbdən uşaq yaşlarından ürəyində bir müharibə səhnəsi qurmuşdu. Nə vaxtsa onun reallaşacağına inanmışdı.

Böyüdükcə hiss edirdi ki, həmin səhnə ürəyində yuva qurmaqla yanaşı, həm də yaddaşına hopub. Hərdən yaddaşındakı bu səhnəni silməyə çalışsa da, mümkün olmurdu. Özü uydurmuşdu axı. "Bəs nə zaman düşmən üzərinə gedib torpaqlarımızı azad edəcəyik? Görəsən müharibəyə başlayacağımız günü görəcəyəmmi?" kimi suallar hər zaman beynində dolaşır, cavab gözləyirdi. Nəhayət, 2020-ci il sentyabrın 27-də suallarının cavabını aldı. Oktyabrın 20-də isə arzusuna qovuşdu - həmin gün döyüşə yollandı...

Xaçmazın Maksudkənd kəndindən yola çıxan Namiq Ağadadaşov Tərtər, Suqovuşan, Talış kəndləri uğrunda gedən döyüşlərdə iştirak edərək taleyinə şərəfli bir döyüş yolu yazdı. Bu yolda nələr görmədi?! Bir vaxtlar ürəyində qurduğu müharibə səhnəsini real yaşadı, düşmənlə üz-üzə gəldi, səngərin soyuğu canına hopdu, günlərlə yatmadı, amma düşməni məhv etmək, torpaqlarımızı onların əlindən geri almaq istəyi bütün bunlara üstün gəldi, ölümün gözünün içinə dik baxdı, qorxmadı. Çünki Birinci Qarabağ müharibəsində döyüş yolu keçmiş atası Natiq Ağadadaşov onu savaşa yola salanda demişdi: "Qorxma, oğlum, erməni elə də güclü deyil. Silahını möhkəm tut, o, sənin yol yoldaşın, dostun, sirdaşın olacaq. Bilirsən ki, dost dostu darda qoymaz". Namiq isə qorxunu hələ 2013-2014-cü illərdə Xocavənd və Ağdam rayonlarında - düşmənin 52 metrlik məsafəsində həqiqi hərbi xidmət keçərkən üstələmişdi.

Amma döyüş yolu nə qədər şərəfli olsa da, təhlükəli və qan-qadadır. O yolda addımlayanların ürəyində Vətən sevgisi, torpaq məhəbbəti, millət eşqi daim yanmalıdır ki, Namiq də həmin igidlərdən oldu. Deyir ki, Vətən yolunda şəhid olmaq xoşbəxtlikdir: "Müharibə bitir, sən isə heç bir zaman onu yaddan çıxarmırsan, daha doğrusu, çıxara bilmirsən. Mən şəhid olmadım. Bunu Allahın lütfü hesab edirəm. Müharibənin bitməsinə bir gün qalmış yaralandım, kəllə-beyin zədəsi aldım. Bu gün də baş-beyin pozulmasından, güclü sinir ağrılarından əziyyət çəkirəm, 3-cü qrup əliləm. Amma bilirəm ki, ömrümün sonunacan zəfərdən sonra doğulan və general Polad Həşimovun şərəfinə adını Polad qoyduğum oğlumun gözünün içinə dik baxacam, onun fəxr və qürur yeri olacam. Necə ki, mən atamla fəxr edirəm, qürur duyuram".

44 günlük savaşda Müzəffər Ordumuz Azərbaycanın hərb salnaməsinə hər gün bir qələbə yazdı. Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi hər bir əsgərin əlindən tutdu, onların döyüş ruhunu artırdı. Həmin günlərdə Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" hayqırtısı Vətən şüarı idi. Beynində, zehnində kök atan bu sözlər Namiqi də ruhlandırdı. Bu gün də böyükdən-kiçiyə hər kəsin dilində əzbər olan bu şüardakı "Qarabağ" və "Azərbaycan" sözlərindən müqəddəs bir söz varmı? Yoxdur! Dünyanın hər yerində yaşayan soydaşlarımız belə həmin günlər bu iki kəlmənin sehrində idilər. Namiq də bu sözlərin cazibəsi, Vətən sevgisi və düşmənə nifrət hissindən doğan bir gücün təsiri ilə qorxmaz, cəsarətli Azərbaycan əsgəri olaraq düşməni torpaqlarımızdan qovanlardan, "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı" medalları ilə adını Vətən müharibəsi tarixinə yazan minlərlə Azərbaycan oğlundan biridir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***



*Səndən ötrü can verməyə cümlə hazırız,*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!..*

# "Mənə bir şey olsa, anama deməyin, bu dərdə dözməz..."

Vətən təəssübkeşliyi ilə seçilən, vətənpərvərlik nümunəsi ilə əbədiyaşarlıq qazanan gənclərimizdən biri də 30 ilə yaxın erməni əsarətində olan Azərbaycan torpaqlarının 2020-ci ildə işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına şəhid olan Teymur Həsənovdur.



Teymur Mahal oğlu Həsənov 1989-cu il aprelin 3-də Bakı şəhərində hərbçi ailəsində dünyaya göz açmışdı. O, 1996-cı ildə Bakı şəhəri 153 nömrəli orta məktəbin birinci sinfinə qədəm qoymuş və 2007-ci ildə məktəbi müvəffəqiyyətlə bitirmişdi. Kiçik yaşlarından idmana böyük maraq göstərən və sərbəst güləşlə məşğul olan Teymur bir çox yarışda iştirak etmiş, mükafatlar qazanmışdı. İdmana olan həvəsi onu 2007-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil almağa gətirib çıxarmışdı.

2009-cu ildə ailə həyatı qurub. Atası müharibə veteranı, ehtiyatda olan gizir Mahal Həsənov Birinci Qarabağ döyüşlərinin iştirakçısı olub. Elə Vətənə, hərbi geyimə ilk sevgisi də o dövrdən yaranıb.

Teymur Həsənov 2011-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin çağırışı ilə hərbi xidmətdə olub. Müddətli həqiqi hərbi xidmətini "N" saylı hərbi hissədə 2012-ci ildə bitirib. Vətən qarşısında borcunu uşaqlıq dostu Raufla birgə yerinə yetirib. Elə Teymurun son şəkli də Raufla birgə çəkilib.

O, gəncliyindən həyətlərində göyərçin saxlayırdı, sülh quşlarını çox sevirdi, elə sülhü də. İkinci Qarabağ savaşı başlayanda Teymur Vətənini azad, firavan görmək arzusu ilə hər şeyi geridə buraxıb, sentyabrın 29-da könüllü olaraq minlərlə gəncimiz kimi torpaqlarımızı erməni işğalçılarından azad etməyə yollanır. Füzuli, Qubadlı, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edən Teymur oktyabrın 25-də qəhrəmancasına şəhid olur.

Uşaqlıq dostu Rauf danışır ki, Teymur üçün Vətən hər şeydən öncə gəlirdi. Elə buna görə də müharibə başlayan kimi o, torpaqların müdafiəsi üçün könüllü olaraq döyüşlərə qatıldı.

Anası Qüdrət Həsənova deyir ki, müharibə vaxtı Teymurun səhhətində problem yaranmasına baxmayaraq, o, geri dönmədi. Daşkəsəndəki hərbi hospitaldan qayıdandan bir gün sonra yenidən döyüşlərə qatıldı. "Hətta biz çox çalışırdıq ki, müalicəsi tam başa çatmamış cəbhənin ön sıralarına getməsinə əngəl olaq. Amma buna etiraz etdi, dedi ki, mən getməyim, sən getmə, bəs kim getsin. Komandiri də ona deyir ki, ailəlisən, uşağı olanları yuxarı (yəni dağın döşünə) aparmırlar, sən aşağıda qal. Deyib ki, mən daha təcrübəliyəm, bu əsgərlərin qabağında mənim kimisi getməlidir".

Teymur Həsənovun komandirinə son sözü isə belə olub: "Mənə bir şey olsa, anama deməyin, o, bu dərdə dözməz, qardaşıma deyin".

Amma neyləməli, müharibənin öz təzadları var...

Bir müddət sonra Teymurun komandiri onun əşyalarını ailəsinə göndərir. Çantasından çıxan əşyalar hər kəsin göz yaşlarına səbəb olur. Çünki onun "ölüm medalyonu"nun içində "Ana ağlama", "Ata ağlama", "Siz dəyərlisiniz" sözləri yazılmışdı.

Teymur Həsənov Ermənistan silahlı birləşmələrinin işğalı altında olan torpaqların azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan İkinci Qarabağ müharibəsində Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Teymur Həsənov 25 oktyabr 2020-ci ildə Qubadlı rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olmuşdur. İkinci Şəhidlər xiyabanında əbədiyyətə qovuşmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan sıravi əsgər Teymur Həsənov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda", 24 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", 25 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Füzulinin azad olunmasına görə", 24 iyun 2021-ci il tarixli sərəncamı ilə "Cəsur döyüşçü", habelə 5 noyabr 2021-ci il tarixli sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İndi Teymurun ruhu şaddır ki, onun uğrunda şəhidlik zirvəsinə ucaldığı Qubadlıda, Füzulidə, Cəbrayılda, ümumən erməni işğalından azad edilmiş torpaqlarımızda necə böyük quruculuq işləri gedir. Keçmiş məcburi köçkünlər tədricən öz yurd-yuvalarına qayıdırlar.

İgid döyüşçünün ailəsi, 8 və I2 yaşlı iki övladı onun arzularını yaşadır. Ailə dövlət qayğıları ilə əhatə olunub. Teymurun oxuduğu orta məktəbdə, təhsil aldığı Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında onun döyüş yolunu əks etdirən guşə yaradılıb. Nəsimi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə hər il sentyabrın 29-da Teymur Həsənovun ailə üzvlərinin, yaxın dostlarının, tələbə və döyüş yoldaşlarının, habelə ictimaiyyət nümayəndələrinin iştirakı ilə anım mərasimi keçirilir. Məzarı ziyarət edilir, üzərinə gül-çiçək dəstələri qoyulur, ruhuna dualar oxunur.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




# "Zəfər zirvəsi"nə yürüş





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin əməkdaşları Anım Günü ərəfəsində Baş Qafqaz silsiləsində Azərbaycanın ikinci ən hündür zirvəsi olan "Zəfər zirvəsi"nə kollektiv yürüş ediblər.

Agentliyin rəhbər heyəti və əməkdaşlarından ibarət 32 nəfərin iştirak etdiyi yürüş bələdçilərin müşayiəti ilə əvvəlcədən müəyyənləşdirilmiş marşruta uyğun, təhlükəsizlik qaydaları çərçivəsində həyata keçirilib.

Agentliyin Strateji kommunikasiya departamentindən AZƏRTAC-a verilən məlumata görə, çətin keçidləri olan zirvəyə qalxmağa hazırlıq üçün yürüş iştirakçıları əvvəlcə düşərgədə gecələyib. Daha sonra dəniz səviyyəsindən 4301 metr hündürlükdə yerləşən zirvəyə qalxaraq I Qarabağ şəhidi Rizvan Baxşiyevin timsalında bütün şəhidlərin xatirəsini yad ediblər.



Yürüş iştirakçıları arasında şəhid Rizvan Baxşiyevin oğlu, agentliyin əməkdaşı Xamid Baxşiyev də olub.

Qeyd edək ki, Bazardüzü zirvəsindən şərqdə yerləşən adsız yüksəkliyə Vətən müharibəsindən sonra "Zəfər zirvəsi" adı verilib.

# Zəfərə doğru...

**Gözlər televiziya ekranlarına dikilmişdi. Azərbaycan xalqı dövlətinin başçısı, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin müraciətinə diqqət kəsilmişdi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur", - deyirdi Prezident, Ali Baş Komandan.**







2020-ci ilin o payız günü - sentyabrın 27-si səhər saatlarında Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törətmiş, cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdu. Şəhidlərimiz vardı. Onların qanının yerdə qalmayacağına xalqı əmin edirdi Ali Baş Komandan. Və Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almış Ermənistanın məkrli məqsədini bir daha diqqətə çatdırırdı: "İlk növbədə Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti".

Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək niyyətinə, bu məqsədlə illər boyu gördüyü böyük işlərə, apardığı müzakirələrə, mücadilələrə işğalçı Ermənistan belə cavab verirdi.

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusu bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatına başlamalı oldu.

Müharibə özü ilə həyəcan, təlaş, qara xəbər qorxusu gətirir. Tarixboyu belə olub. İkinci Qarabağ müharibəsində bu hisslərin önündə ümid və inam dayanmışdı. Həm də elə möhkəm dayanmışdı ki, ehtimallara, tərəddüdlərə zərrəcə yer qalmamışdı.

Azərbaycanın kəndlərindən, qəsəbələrindən, şəhərlərindən oğullar hərbi komissarlıqlara gedirdilər. Onlar gənc idilər. Çoxu uğrunda döyüşməyə gedəcəkləri ərazilərimiz - Qarabağ və Şərqi Zəngəzur torpaqları təcavüzkar ermənilər tərəfindən işğal olunandan sonra dünyaya gəlmişdi.

Onların arzuları tükənməz, sevgiləri ümman, ümidləri sarsılmaz idi. Hər birinin qəlbində həyat eşqi coşub çağlayırdı. Onlar arzularını, ümidlərini Vətən sevgisiylə süsləyib cəbhəyə yollanırdılar. Düşmən bu sevginin yanından yel olub ötə bilməzdi.

Qəsbkar ermənilər 1980-ci illərin sonraları, 1990-cı illərin əvvəllərində Qarabağda, Şərqi Zəngəzurda çox qan tökmüşdülər. Azərbaycanın yalnız onların işğalına qarşı çıxan, döyüşən qəhrəman övladlarını şəhid etməmişdilər. Hələ dünyanın yaxşı-yamanını ağlı kəsməyən körpələrə, yatağa möhtac qalmış xəstələrə, əlillərə, qocalara, qadınlara da rəhm etməmişdilər, aman verməmişdilər. Təcavüzkar, qəddar ermənilər onları elə dəhşətli işgəncələrə məruz qoymuşdular ki, ölüm qurtuluşları olmuşdu.

2020-ci ilin payızında Vətənin xilası naminə silaha sarılan Azərbaycan oğulları isə azğın, vəhşi, qəddar, talançı, soyğunçu düşmənə belə zərbəni mərdliklə endirən xalqın övladları idi. Ataları, babaları kimi bu döyüşkən, cəsur, igid oğulların da bir amalı vardı, Vətən torpaqlarını yağıların əsarətindən qurtarmaq. Haqq uğrunda vuruşduqlarını bilmələri güclərinə güc qatırdı...

İşğal müddəti çox uzanmışdı. Qarabağ və Şərqi Zəngəzur ərazilərimiz otuz ilə yaxın idi ki, qəsbkar Ermənistan silahlı qüvvələrinin əsarətindəydi. Ancaq Azərbaycan dövləti, xalqı Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmamışdı. Heç zaman da barışmayacaqdı. İşğalın davam etdiyi müddətdə Azərbaycan dövləti bütün sahələrdə tərəqqiyə nail olmuşdu. İqtisadiyyatını gücləndirmişdi, sarsılmaz ordu qurmuşdu. O illər ərzində Qarabağ və Şərqi Zəngəzur torpaqlarını azad görmək, o yerləri ziyarət etmək Azərbaycan xalqının ən böyük arzusu olmuşdu.

Qəhrəman övladlar 2020-ci ilin sentyabrında Azərbaycanın Müzəffər Ordusunun tərkibində döyüşməyin həm də mənəvi gücünü duyur, qürurunu yaşayırdılar. Onlar əzmlə, cürətlə döyüşərək, şücaət göstərərək doğma xalqının heç zaman öləziməyən ümidini işıqlandırır, arzularını gerçəkləşdirirdilər. Amalları müqəddəs idi. Onlar Qarabağı, Şərqi Zəngəzuru azad etməyə getmişdilər. Ağır cəbhə yolları ilə zəfərə doğru irəlilədilər... Və sonda istəklərinə nail oldular.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Türkiyə hər zaman Azərbaycanın yanında olduğunu bir daha göstərdi

## Qardaş ölkənin lideri Ərdoğanın Azərbaycana növbəti səfəri də bir çox vacib hadisələrlə tarixə düşdü

Azərbaycan-Türkiyə əlaqələri yüksək zirvədədir və bu gün bütün istiqamətlər üzrə ən fəal dövrünü yaşayır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana növbəti rəsmi səfəri bunun daha bir bariz nümunəsi oldu.

İki ölkə arasında əlaqələrdə bütün istiqamətlər üzrə, o cümlədən ticarət dövriyyəsinin artırılması istiqamətində önəmli addımlar atılıb. Keçən il ticarət dövriyyəsi 6 milyard dollardan çox olub. Bu ilin yeddi ayında isə 40 faiz artıb və daha da artacağı gözlənilir. Hədəf yüksək rəqəmlərlə ölçülür. Belə ki, bir müddət bundan əvvəl 15 milyard dollar ticarət dövriyyəsi hədəflənmişdi. O zaman ticarət dövriyyəsi təqribən 2 milyard dollar idi. İndi 6 milyard dolları ötdüyü halda yəqin ki, həmin hədəfə yaxın gələcəkdə çatacağıq.

Azərbaycan-Türkiyə əməkdaşlığının və tərəfdaşlığının mühüm bir qolunu enerji sahəsi təşkil edir. İndi bu sahədə daha bir əhəmiyyətli layihə gerçəkləşməkdədir. Cari il sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması ilə iki qardaş ölkənin birgə həyata keçirdiyi növbəti dəyərli layihəyə start verildi.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın təməlini qoyduqları İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi illər əvvəl ölkələrimiz arasında başlanmış uğurlu enerji əməkdaşlığı yolunun davamıdır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin ən böyük hissəsi qardaş ölkənin ərazisindən keçərək 2006-cı ildən Azərbaycan neftini Ceyhana çatdırır. Buradan da neftimizin dünyaya yolları başlanır. Azərbaycan qazının ixrac marşrutları da Türkiyədən keçir. Bakı-Tbilisi-Ərzurum kəməri 2007-ci ildən fəaliyyət göstərir. Azərbaycan-Türkiyə birgə layihəsi olan TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) isə təkcə regionun deyil, bir çox Avropa ölkələrinin enerji təhlükəsizliyinə xidmət edir. Belə ki, bu kəmər Türkiyə-Yunanıstan sərhədində qazı Avropaya daşıyan TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) qovuşur. Əməkdaşlığın bəhrəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun potensialı gələcək üçün daha böyük ümidlər verir.

İğdır-Naxçıvan qaz kəmərinin də bu uğurlu layihələrdən biri olacağına şübhə yoxdur. Prezident İlham Əliyevin mətbuata bəyanatında dediyi kimi: "Bu gün təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz xətti - vaxtilə biz Sizinlə TANAP layihəsinin təməlini qoymuşduq, TANAP boru xəttinin açılışını bərabər etmişdik - bu gün isə Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start veririk. Qars-Naxçıvan dəmir yolunun inşasına dair Niyyət Protokolunun imzalanması da tarixi hadisədir. Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcəkdir. Biz bu gün Sizinlə, eyni zamanda Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi apardıq və mən Sizə məlumat verdim ki, yaxın aylarda bu yolun imkanları 1 milyon tondan 5 milyon tona qədər artırılacaq. Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da uğurla gedir. Azərbaycan ərazisində işlər, böyük ehtimalla, gələn ilin sonunda başa çatmalıdır. Yəni bütün bu tarixi layihələr bir daha onu göstərir ki, bizim dövlətlərimiz nə qədər bir-birinə bağlıdır, bir-birinə yaxındır. Biz bir-birimizə dəstək verməklə eyni zamanda regional məsələləri də düz istiqamətə yönəldirik. Yəni bizim müştərək maraqlarımız ondan ibarətdir ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, müharibələr olmasın".

Qeyd edək ki, İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. Bu qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında imzalanıb. Prezident İlham Əliyevin 2022-ci il fevralın 10-da imzaladığı sərəncamla isə kəmərin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu 80 kilometrdir. Kəmər gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq da mümkündür.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da mətbuata bəyanatında yeni layihəni yüksək dəyərləndirib: "Xəzər dənizindən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizin əhəmiyyəti koronavirus pandemiyası və bölgəmizdə yaşanan müharibələr nəticəsində daha yaxşı dərk edilmişdir. Bu baxımdan bir qədər əvvəl təməlini qoyduğumuz İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan ilə enerji sahəsində ortaqlığımızı daha da dərinləşdirəcəyi kimi, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək. Qars-Naxçıvan dəmir yolu layihəsi ilə yanaşı, yaşayış binaları və elektrik enerjisi ilə bağlı müqavilələr bir az əvvəl imzalandı. Beləliklə, nəqliyyat, logistika və enerji sahələrindəki əlaqələrimizi inkişaf etdirməklə bağlı iradəmizi bir daha ortaya qoyduq".

Qarşıda isə daha yeni layihələr dayanır. Bir neçə gündən sonra Naxçıvanda Türkiyə və Azərbaycanın vəzifəli şəxslərinin, beynəlxalq təşkilatların iştirakı ilə Türkiyə-Azərbaycan III Enerji Forumu keçiriləcək. Burada təbii ki, Naxçıvanın "yaşıl enerji"si haqqında da söhbət gedəcək. "Naxçıvanda günəş-elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan "yaşıl enerji" zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su-elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracı da mümkün olacaqdır." Dövlətimizin başçısı mətbuata bəyanatında bunu da diqqətə çatdırmışdır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mehriban Əliyevanın tapşırığı ilə Qənirə Paşayevanın səhhəti üzrə daha bir konsilium olub

Səhhətində yaranan problemlərlə əlaqədar sentyabrın 23-də Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilən Milli Məclisin deputatı Qənirə Paşayevanın reanimasiya şöbəsində müalicəsi davam edir.

AZƏRTAC xəbər verir ki, deputatın səhhəti ilə bağlı məsələlər ilk gündən Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarətindədir. Heydər Əliyev Fondunun əməkdaşları Mərkəzi Klinik Xəstəxananın həkim personalı və Mehriban Əliyevanın tapşırığı ilə Türkiyədən konsultasiyaya cəlb edilmiş həkim mütəxəssislər ilə daim əlaqədədir. Bakıya dəvət edilmiş türkiyəli həkimlə yanaşı, mütəmadi olaraq qardaş ölkədə olan digər həkimlərlə də videobağlantı formatında məsləhətləşmələr aparılır.

Növbəti konsilium zamanı Qənirə Paşayevanın səhhəti ilə bağlı vəziyyət bir daha dəyərləndirilib. Mərkəzi Klinik Xəstəxananın reanimasiya şəraitində tələb olunan müalicə protokollarına yeni dərmanlar da təyin edilib.

# Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfərinin yekunları ilə bağlı Türkiyə mediasına mühüm açıqlamalar verib

Rəcəb Tayyib Ərdoğan Türkiyəyə dönüşü zamanı təyyarədə Naxçıvana səfərinin yekunları ilə bağlı türkiyəli jurnalistlərə Zəngəzur dəhlizi, Azərbaycanın antiterror tədbirləri və digər məsələlərlə bağlı mühüm açıqlamalar verib.



AZƏRTAC Türkiyə KİV-ə istinadla xəbər verir ki, Rəcəb Tayyib Ərdoğan, ilk növbədə, Naxçıvanda ona və Türkiyə hökumətinin nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərlik və diqqətə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib. O deyib: "İyun ayında Bakıya səfərimin ardından bu gün də Türk dünyasına açılan qapımız olan Naxçıvanda olduq. Azərbaycan Prezidenti, hörmətli qardaşım İlham Əliyevlə birlikdə İğdır-Naxçıvan təbii qaz boru kəmərinin təməlini qoyduq. Cəmi 80 min 150 metrlik bu xəttin gündəlik 2 milyon kubmetr nəql həcminə çatdırılmasını nəzərdə tuturuq. Bu layihə naxçıvanlı qardaşlarımızın təbii qaza olan tələbatını tamamilə qarşılayır. Bu gün Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışını da həyata keçirdik. Hazırkı proseslər müdafiə sənayesində yerli və milli istehsalın əhəmiyyətini bir daha göstərdi. İnanıram ki, bu kompleks Naxçıvanın müdafiə qabiliyyətinə mühüm töhfə olacaq. Enerji, nəqliyyat və ictimai bina sahələrində imzalanan üç sazişlə Naxçıvan səfərimizi başa vurduq".

Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, hər səfər zamanı Azərbaycanla Türkiyə arasında əməkdaşlığın daha bir addım irəliləməsi onda xoşbəxtlik hissi doğurur. O əlavə edib: "Qardaşım hörmətli İlham Əliyevlə birlikdə keçirdiyimiz görüş əsnasında bir çox ikitərəfli və regional məsələləri müzakirə etmək fürsətimiz oldu. Xüsusən Qarabağ ətrafında son vəziyyətə toxunduq və Azərbaycanın haqlı mübarizəsinə dəstəyimizi bir daha təkrarladıq. Can Azərbaycanımızı antiterror tədbirlərində əldə etdiyi tarixi uğur münasibətilə bir daha təbrik edirəm. Şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza tezliklə şəfa tapmalarını arzulayıram. Azərbaycan Ordusu terrorçulara qarşı güzəştsiz, mülki əhaliyə qarşı isə son dərəcə mərhəmətli davrandı. Otuz il əvvəl Qarabağda yaşananlar ilə işğal edilmiş torpaqların azad edilməsi zamanı baş verənlər arasındakı böyük fərq indidən yaddaşlara həkk olunub. Mülki insanların ehtiyacı olan bütün məhsullar, ciddi mənada yük maşınları dolu qida məhsulları bölgəyə çatdırılır. Azərbaycanlı qardaşlarımızın həmin tədbirlərdən sonra mülki əhaliyə münasibətdə göstərdiyi bu insani və vicdanlı hərəkətlə bağlı onları ayrıca təbrik edirəm. Türkiyə bütün mərhələlərdə Azərbaycanın yanında olub".

Azərbaycana dəstəyini ötən həftə keçirilən BMT Baş Assambleyasında etdiyi çıxışında vurğuladığını diqqətə çatdıran Türkiyənin dövlət başçısı bildirib ki, antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün Qarabağda suverenliyi tam bərqərar olub. O qeyd edib ki, 44 günlük Vətən müharibəsinin ardından bölgədə dayanıqlı sülh və sabitliyin təsis edilməsi yolunda yeni bir fürsət pəncərəsi açılıb. "Bu gözləntimizi sentyabrın 11-də telefon danışığı zamanı Ermənistanın baş naziri Nikol Paşinyana da ifadə etdim. Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və qonşuluq hüququna hörmətlə yanaşıldığı təqdirdə həll edilməyəcək heç bir problem görmürük. Azərbaycanla Ermənistan arasında nizamlanma prosesində irəliləyişin təmin edilməsi regionda normallaşmaya da böyük töhfə verəcək. Cənubi Qafqazda sabitlik, sülh və rifahın bərqərar olması üçün Azərbaycanla birlikdə fəaliyyətimizi davam etdirəcəyik. Səfərimin təkcə ikitərəfli əlaqələrimiz deyil, bütün region üçün faydalı olacağına ümid edirəm".

Zəngəzur dəhlizi ilə bağlı sualı cavablandıran Rəcəb Tayyib Ərdoğan bildirib ki, quru və dəmiryolu marşrutları ilə Naxçıvanı Azərbaycanın digər bölgələri ilə birləşdirən nəqliyyat əlaqələri münasibətləri daha da inkişaf etdirəcək və bu güclü əlaqələr sayəsində bir çox məsələlər üzrə atılan addımlar gələcəkdə öz faydalarını verəcək. O vurğulayıb: "Bu səbəbdən, hər şeydən əvvəl, bu dəhlizin açılması üçün əlimizdən gələn səyləri göstərəcəyik. Türkiyə və Azərbaycan üçün mühüm olan bu dəhlizin açılması strateji məsələdir və mütləq tamamlanmalıdır. Zəngəzur dəhlizi açıldığı vaxt Bakıdan yola düşən bir maşın və ya qatar birbaşa Qarsa gələcək. Türkiyə-Azərbaycan qardaşlığı daha da güclənəcək. Bu məsələdə İrandan müsbət siqnallar daxil olması da sevindiricidir".

Xocalıda Azərbaycan bayrağının dalğalanmasına münasibət bildirən Rəcəb Tayyib Ərdoğan deyib ki, o, 31 il sonra TRT telekanalında göstərilən və Xocalı soyqırımı zamanı - 9 yaşında doğma evindən didərgin salınan qız kimi sevinc hissi keçirir: "Ən azı həmin balamız kimi biz də o sevincli anları yaşadıq. O qırğının açdığı yaralar dərindir. Təbii ki, həmin faciəni yaşayanlar da, biz də Xocalı qırğınını unutmayacağıq. Ermənistan Xocalı faciəsinin əvəzini ödəyir və ödəyəcək. Çünki həm Xocalıdan, həm də digər yerlərdən 1 milyon insan didərgin düşdü. Haraya? Azərbaycana. İndi onilliklər sonra Azərbaycan bu qırğının hesabını soruşdu. Çox fərqli şəkildə soruşdu və torpaqlarını geri qaytardı. Məlumdur ki, Amerika, Rusiya, Fransa - Minsk üçlüyü deyilən bu ölkələr illər boyu Azərbaycanın hüququnu tanımadılar. Sonda Azərbaycan özü öz problemini həll etdi və işi tamamladı. İndi Xocalıda artıq kim var? Xocalının sahibləri... Azərbaycan Ordusu Xocalıya xaos, qan və ölüm deyil, hüzur və sülh gətirmək üçün daxil oldu. Bundan bir çox il əvvəl erməni quldur dəstələrinin girdiyi kimi daxil olmadı. İnsanları qətl etmək üçün daxil olmadı. Bunu Xocalının layiq olduğu sülhü və hüzuru təmin etmək üçün etdi. Öz torpaqlarında Zəfər müjdəsi vermək üçün daxil oldu. Artıq həm Xocalı, həm də bütün Qarabağ üçün Azərbaycanın suverenliyi altında dayanıqlı sülh və hüzurun vaxtı gəlib çatıb. Ermənistanın vəzifəsi bu hüzurun bərqərar olması və qorunması üçün sülhü dəstəkləməkdir", - deyə Türkiyə Prezidenti vurğulayıb.

Rəcəb Tayyib Ərdoğan daha sonra bildirib ki, Azərbaycan Türk Dövlətləri Təşkilatının noyabrın 3-də Qazaxıstanda keçiriləcək iclasına Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarın da dəvət edilməsini istəyir. O əlavə edib: Sağ olsun, Azərbaycan Prezidenti İlham Əliyev bu məsələdə qətiyyətlidir. O da ŞKTR bayrağının orada dalğalanmasını istəyir.

Müxbirin Ermənistan rəhbərliyinin Zəngəzur dəhlizinin onun ərazisindən keçməsinə razı olmayacağı təqdirdə hansı addımların atılacağı ilə bağlı sualına cavab verən Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, onda dəhliz vasitəsilə yol İrandan keçəcək və Tehran buna müsbət yanaşır.

Türkiyə Prezidenti jurnalistlərə müsahibəsində vurğulayıb: "Səfərimiz Türkiyə-Azərbaycan qardaşlığının, bir millət, iki dövlət ruhunun bütün dünyaya elan edilməsidir. Bunu BMT kürsüsündən necə car çəkmişiksə, can Azərbaycanın öz torpağı Şuşadan necə söyləmişiksə, hər yerdə əməlimizlə göstərmişik və indi də göstəririk".

*Rəcəb Tayyib ƏRDOĞAN:*

# "Zəngəzur dəhlizi strateji xarakter daşıyır və region dövlətlərinin iqtisadi maraqlarına cavab verir"

Azərbaycanın həyata keçirdiyi uğurlu antiterror tədbirlərindən sonra Naxçıvanın həm Azərbaycan, həm də regionun digər dövlətləri ilə avtomobil və dəmir yolu əlaqəsinin yaradılması üçün imkan yaranıb. Bu yolların fəaliyyətə başlaması Türkiyə ilə Azərbaycanın əlaqələrini daha yaxınlaşdıracaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan səfərini yekunlaşdırıb vətənə qayıdarkən jurnalistlərin suallarına cavabında deyib.

Türkiyə Prezidenti nəzərə çatdırıb ki, artıq İrandan Zəngəzur dəhlizinin açılması ilə əlaqədar müsbət siqnallar gəlib. Bu, strateji dəhlizdir və regionun dövlətlərinin iqtisadi maraqlarına cavab verir. Buna görə də bu dəhlizin fəaliyyətə başlaması üçün lazım olan tədbirləri tez bir zamanda həyata keçirmək lazımdır.

R.T.Ərdoğan bildirib ki, Zəngəzur nəqliyyat dəhlizi sülh və iqtisadi inkişaf dəhlizi olacaq.

# Azərbaycanın müdafiə naziri ilə ABŞ müdafiə katibinin siyasi məsələlər üzrə müavini arasında telefon danışığı olub

Sentyabrın 26-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla Amerika Birləşmiş Ştatlarının müdafiə katibinin siyasi məsələlər üzrə müavini xanım Saşa Beykerin təşəbbüsü ilə telefon danışığı olub.




Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər ölkələrimiz arasında əlaqələr, regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı həmçinin ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

# Moldova parlamentinin sədri Ermənistanın müharibə cinayətləri barədə məlumatlandırılıb

İşğaldan azad olunmuş torpaqlarımızda Ermənistan tərəfindən basdırılmış minalar hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Kişineuda Moldova parlamentinin sədri İqor Qrosu ilə görüşündə söyləyib.

S.Əliyeva bildirib ki, Azərbaycan tərəfi işğaldan azad olunmuş ərazilərimizdə basdırılmış minaların düzgün xəritələrini dəfələrlə tələb etməsinə baxmayaraq, Ermənistanın xəritələri təhvil verməkdən boyun qaçırması bu ölkənin günahsız insanların qətlində maraqlı olduğunu, beynəlxalq humanitar hüquq normalarına etinasız münasibətini bir daha göstərir.

Azərbaycan torpaqlarında Ermənistan tərəfindən törədilən müharibə cinayətləri barədə ətraflı məlumat verən ombudsman qeyd edib ki, Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyi bu günədək naməlum qalır. Bu cür faktlar Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərini, beynəlxalq hüququn norma və prinsiplərinin birbaşa pozulması hallarını sübut edir.

Ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu deyən İqor Qrosu bildirib ki, Moldova haqlı mübarizəsində həmişə Azərbaycanın yanında olub. Bu gün də Moldova dövləti Azərbaycanda baş verən hadisələri diqqətlə izləyir.

"Moldova ilə Azərbaycan arasında müxtəlif sahələrdə sıx əlaqələr və səmərəli əməkdaşlıq mövcuddur. Onlar ümumi dəyərlərə, sülh və sabitliyi paylaşdığımız öhdəliyə əsaslanır. Biz bu əlaqələri möhkəmləndirmək istəyirik", - deyə İqor Qrosu əlavə edib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

Müzakirələrdə Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov da iştirak edib.

Qeyd edək ki, S.Əliyeva Moldova Xalq Müdafiəçisi Aparatının yaradılmasının 25-ci ildönümü ilə bağlı keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Kişineuda səfərdədir. Azərbaycan ombudsmanı səfər çərçivəsində bir sıra ikitərəfli görüşlər keçirəcək.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 338 QƏRAR Bakı şəhəri, 23 sentyabr 2023-cü il

## "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin tərtib olunma forması"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.1.4-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin tərtib olunma forması" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə Azərbaycan Respublikasına gətirilən və ya Azərbaycan Respublikasından çıxarılan valyuta sərvətlərinə dair təqdim edilən məlumatların tərtib olunma forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 28 iyul tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, №7, maddə 608, 2016, № 8, maddə 1449; 2017, № 10, maddə 1884; 2018, № 10, maddə 2157) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 23 sentyabr tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin tərtib olunma forması

1. Bu sənəd "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Dövlət Gömrük Komitəsi) tərəfindən həmin Qanunun 18.2-ci və 18.3-cü maddələrində qeyd edilən məlumat və sənədlərin tərtib olunma formasını tənzimləyir.

2. Dövlət Gömrük Komitəsi valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş valyuta sərvətlərinin bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyutanın aşkar edilməsi hallarında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər cinayətlərin əlamətlərini aşkar etdikdə bu barədə məlumat və sənədləri araşdırmanın aparılması üçün Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə (bundan sonra - Maliyyə Monitorinqi Xidməti) təqdim etməlidir.

3. Dövlət Gömrük Komitəsi "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının ərazisinə gətirilən valyuta sərvətlərinin məbləği 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq olduqda bu barədə məlumatı və sənədləri Maliyyə Monitorinqi Xidmətinə təqdim etməlidir.

4. Bu sənədin 2-ci və 3-cü hissələrində nəzərdə tutulmuş Maliyyə Monitorinqi Xidmətinə təqdim olunan məlumatlar Dövlət Gömrük Komitəsi tərəfindən formaya (bundan sonra - Forma) daxil edilir və Maliyyə Monitorinqi Xidmətinə gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş elektron sənəd formasında təqdim edilir (əlavə olunur). Bu sənədin 5-ci hissəsində nəzərdə tutulan məlumatları təsdiq edən sənədlərin surətləri Maliyyə Monitorinqi Xidməti tərəfindən tələb olunduqda elektron formada Maliyyə Monitorinqi Xidmətinə təqdim edilir.

5. Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən Formada aşağıdakı məlumatlar əks etdirilməlidir:

5.1. gömrük orqanı tərəfindən təsdiq edilmiş sadələşdirilmiş bəyannamənin tarixi və nömrəsi;

5.2. valyuta sərvətləri və milli valyutanın keçirildiyi gömrük məntəqəsinin adı;

5.3. bu sənədin 2-ci və ya 3-cü hissələrində nəzərdə tutulmuş əsaslardan biri;

5.4. şəxsin soyadı, adı, atasının adı, FİN kodu (olduqda), cinsi, doğum tarixi, Azərbaycan Respublikasının vətəndaşına münasibətdə, həmçinin doğulduğu yer;

5.5. şəxsin vətəndaşlığı və ya rezident ölkəsi;

5.6. şəxsiyyəti təsdiq edən sənədin tipi, seriyası və nömrəsi, verildiyi ölkə, Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə, həmçinin şəxsiyyəti təsdiq edən sənədin verilmə və etibarlılıq tarixi;

5.7. valyuta sərvətlərinin və milli valyutanın gətirildiyi ölkə;

5.8. valyuta sərvətlərinin və milli valyutanın çıxarıldığı ölkə;

5.9. valyuta sərvətlərinin və milli valyutanın gətirilmə və ya çıxarılma tarixi, valyuta sərvətlərinin növü, valyuta sərvətlərinin xarici valyutada məbləği və onun manatla ekvivalenti, habelə milli valyutanın məbləği;

5.10. valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş valyuta sərvətlərinin bəyan edilməsi rejiminin tələbləri çərçivəsində bəyan edilməmiş və ya düzgün bəyan edilməmiş valyuta sərvətləri və milli valyuta aşkar edildiyi hallarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və digər cinayətlərin əlamətlərini aşkar edərsə, bu barədə məlumat.

| Gömrük məntəqəsinin adı | Gömrük orqanı tərəfindən təsdiq edilmiş sadələşdirilmiş bəyannamənin | | Təqdimedilmə əsası* | Fiziki şəxsin | | | | | | | | | | | | | | Valyuta sərvətlərinin və ya milli valyutanın | | | | | | | Monitorinq olunmalı əməliyyata dair məlumat** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | eyniləşdirmə məlumatları | | | | | | | | şəxsiyyəti təsdiq edən sənədin | | | | | | | | | | | | | |
| | nömrəsi | tarixi | | adı | soyadı | ata adı | FİN kodu (olduqda) | cinsi | doğum tarixi | doğulduğu yer (Azərbaycan Respublikasının vətəndaşına münasibətdə) | vətəndaşlığı və ya rezident ölkəsi | tipi | seriyası | nömrəsi | verilmə tarixi (Azərbaycan Respublikasının vətəndaşına münasibətdə) | etibarlılıq tarixi (Azərbaycan Respublikasının vətəndaşına münasibətdə) | verildiyi ölkə | gətirildiyi ölkə | gətirilmə tarixi | çıxarıldığı ölkə | çıxarılma tarixi | növü | məbləği | məbləği (manatla) | |
| | | | | | | | | | | | | | | | | | | | | | | | | | |

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 339 QƏRAR Bakı şəhəri, 23 sentyabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Coğrafi obyektlərin adları haqqında", "Avtomobil nəqliyyatı haqqında", "Arıçılıq haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "Fərdi məlumatlar haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 814-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 189; 2019, № 3, maddə 518; 2020, № 11, maddə 1412) ilə təsdiq edilmiş "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nın 2.1.2-ci yarımbəndində "kütləvi informasiya vasitələrindən" sözləri "media subyektlərindən" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 340 QƏRAR Bakı şəhəri, 23 sentyabr 2023-cü il

## "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 fevral tarixli 33 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Nəşriyyat işi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Telekommunikasiya haqqında", "İnformasiya əldə etmək haqqında", "Teatr və teatr fəaliyyəti haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 17 fevral tarixli 810-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 fevral tarixli 33 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 193) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə 3-cü hissə hesab edilsin və aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları"nın 4.1-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## DQİDK sədri Tbilisidəki Azərbaycan Mədəniyyəti Muzeyinə qiymətli kitablar hədiyyə edib



Gürcüstanda səfərdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 26-da Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, muzeyin elmi işçisi Leyla Əliyeva nümayəndə heyətinə M.F.Axundzadənin həyat və fəaliyyəti, muzeydə saxlanılan Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının nümunələri, burada yaradılan digər guşələr, eləcə də muzeydə Azərbaycan mədəniyyətinin, dilinin təbliği, tədrisi ilə bağlı təşkil olunan kurslar barədə ətraflı məlumat verib.

M.Qurbanlı muzeyə Qurani Kərim və digər qiymətli kitablar hədiyyə edib.

## "Əl-Cəzirə" telekanalında Qarabağda yaşayan ermənilərin reinteqrasiyası tədbirlərindən danışılıb




ADA Universitetində İnkişaf və Diplomatiya İnstitutunun tədqiqatçısı, politoloq Anastasiya Lavrina Qətərdən yayımlanan "Əl-Cəzirə" telekanalına müsahibəsində 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı həyata keçirilən tədbirlərdən danışıb.

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin əməkdaşı müsahibəsində Azərbaycan hökumətinin erməni sakinlərinin təhlükəsizliyinin, eləcə də bütün hüquqlarının təminatı üçün ölkə konstitusiyası və qanunları çərçivəsində zəmanətlər verdiyini bildirib. Qarabağın erməni sakinlərinin nümayəndələri ilə keçirilən görüşlərin onların sosial-ictimai məsələlərinin həlli barədə müzakirələrin aparılması üçün yaxşı imkan olduğu vurğulanıb.

Anastasiya Lavrina ermənilərin guya Azərbaycanda sıxışdırılması və təzyiqlərə məruz qalması barədə erməni tərəfinin dediklərinin dezinformasiya olduğunu, həqiqəti əks etdirmədiyini söyləyib. Qeyd edib ki, Azərbaycan tolerant və çoxmillətli ölkədir, burada indi də 30 min erməni yaşayır. Bakıda erməni kilsəsi fəaliyyət göstərir, ermənilərə qarşı heç bir təzyiq yoxdur.

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin oktyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | **02** |
| 2. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Masallı** | Masallı, Yardımlı | **03** |
| 3. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Xaçmaz** | Xaçmaz, Şabran | **06** |
| 4. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Zaqatala** | Zaqatala, Şəki, Qax, Balakən | **09** |
| 5. | **Baş prokuror** Kamran Əliyev | **Gəncə** | Gəncə | **10** |
| 6. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Masallı** | Masallı, Cəlilabad, Yardımlı | **10** |
| 7. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Şəki** | Şəki, Qax | **11** |
| 8. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Göygöl** | Göygöl, Daşkəsən | **13** |
| 9. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **19** |
| 10. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Şəki** | Şəki, Qax, Oğuz | **20** |
| 11. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **20** |
| 12. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Hacıqabul** | Hacıqabul, Şirvan | **20** |
| 13. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Qəbələ** | Qəbələ, Oğuz | **20** |
| 14. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Göyçay** | Göyçay, Ağsu | **24** |
| 15. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Ağcabədi** | Ağcabədi, Ağdam, Bərdə, Zərdab, Laçın | **25** |
| 16. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Oğuz** | Oğuz, Şəki | **25** |
| 17. | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri** İnam Kərimov | **Göygöl** | Göygöl | **26** |
| 18. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **26** |
| 19. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | **27** |
| 20. | **Energetika naziri** Pərviz Şahbazov | **Füzuli** (Horadiz şəhəri) | Füzuli, Beyləqan, Xocavənd | **27** |
| 21. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Mingəçevir** | Mingəçevir, Yevlax | **27** |
| 22. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **27** |
| 23. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Samux** | Samux, Şəmkir | **27** |
| 24. | **Mədəniyyət naziri** Adil Kərimli | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı | **27** |
| 25. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Xızı** | Xızı, Siyəzən | **27** |
| 26. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Qazax** | Qazax, Ağstafa, Tovuz, Gədəbəy | **27** |
| 27. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **27** |
| 28. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Yevlax** | Yevlax, Ağdaş, Bərdə | **27** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.



**Heydər Əliyev İli 2023**

# Heydər Əliyev Mərkəzində "Liderin ürəyi" sənədli filmi təqdim olunacaq

Oktyabrın 10-da Heydər Əliyev Mərkəzində "Liderin ürəyi" ("Сердце лидера") sənədli filminin təqdimatı keçiriləcək.

TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar jurnalisti Mixail Qusmanın müəllifi olduğu film Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilib.

AZƏRTAC xəbər verir ki, film Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı və ölkəyə rəhbərlik etdiyi dövrü əhatə edir. Ekran əsərində belə bir qayıdışın dünya tarixində ilk dəfə baş verdiyi vurğulanır.

Filmin təqdimatı üçün 10 oktyabr tarixinin seçilməsi təsadüfi deyil. Belə ki, 10 oktyabr Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə birinci dəfə Prezident seçildikdən sonra andiçmə mərasiminin keçirildiyi gündür.

Heydər Əliyev Azərbaycan xalqının tarixində mühüm rol oynayıb, dünya siyasətində silinməz iz qoyub. "Liderin ürəyi" sənədli filmində Mixail Qusmanın vaxtı ilə Bill Klinton, Corc Buş, Jak Şirak, Madlen Olbrayt, Toni Bleyer, Zbiqnev Bjezinski və digər dünya siyasətçiləri ilə Heydər Əliyev barədə apardığı söhbətlər də yer alıb.

Məhz Heydər Əliyevin dövründə rəsmi Bakı beynəlxalq arenada öz mövqeyini gücləndirərək strateji tərəfdaşlarının sayını artırıb,




ATƏT və BMT kimi təşkilatlarda Azərbaycan diplomatiyası intensiv xarakter alıb. Uzaqgörən siyasətçi Heydər Əliyev xarici şirkətlərin Azərbaycana irihəcmli sərmayələr yönəltmələrinə, "Əsrin müqaviləsi"nin imzalanmasına nail olub.

Filmdə Heydər Əliyevin Mixail Qusmanla eksklüziv müsahibələrini, dəyərli fikirlərini dinləmək, siyasi fəaliyyəti ilə bağlı nadir arxiv kadrları görmək mümkündür.

Çəkilişlər Moskva, Bakı və Ulu Öndərin doğulduğu Naxçıvanda aparılıb.

"Liderin ürəyi" sənədli filminin rejissoru Valeri Spirin, ssenari müəllifi Marina Deniseviçdir. Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu isə film üçün şair Yuri Ryaşentsevin şeirlərinə mahnı bəstələyib.

Film Azərbaycan və rus dillərində hazırlanıb.

# "Heydər Əliyev İli"nə bp-nin töhfəsi

**"Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur".**

**Heydər Əliyev**

Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi bp Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə qeyd olunan "Heydər Əliyev İli"nə öz töhfəsi kimi yeni nəşr olunmuş dörd kitabın təqdimatını keçirib.

Kitablarda Azərbaycanın yeni müstəqil neft strategiyasının möhtəşəm tarixi, bu ölkənin yenidən dünyanın mühüm enerji mərkəzlərindən birinə çevrilməsi həqiqəti qiymətli tarixi faktlar və məlumatlar vasitəsilə nəql olunur.

Bu nəşr Azərbaycanın enerji salnaməsinin dörd əsas sütunu - Azəri-Çıraq-Günəşli (AÇG) neft yatağı, Şahdəniz qaz yatağı, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac boru kəməri və Cənub Qaz Dəhlizi haqqındadır.

Dünən Bakıda keçirilmiş təqdimat mərasimində çıxış edən bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "AÇG, Şahdəniz, BTC və Cənubi Qafqaz Boru Kəməri Azərbaycanın dünyasəviyyəli layihələridir. Onların hər birinin tarixi Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və xalqının gələcəyi naminə müdrikliklə yaratdığı strategiyadan başlayır. Faktiki olaraq, Azərbaycanın müasir tarixi və yeni neft dövrü məhz onun uzaqgörən rəhbərliyi altında formalaşıb. Bu kitabları nəşr etməklə biz Ulu Öndərin 100



illiyi münasibətilə qeyd olunan "Heydər Əliyev İli"nə öz töhfəmizi vermək və onun Azərbaycanın və bütün regionun inkişafındakı müstəsna rolunu ehtiramla yad etmək istəmişik.

Bu gün təqdim etdiyimiz kitablar illərlə aparılan geniş araşdırmaların və bu yeni tarixin yazılmasında iştirak edən şəxslərlə canlı müsahibə və söhbətlərin nəticəsidir. Fəxr edirik ki, bu töhfəmizlə Heydər Əliyevin bu möhtəşəm tarixdəki misilsiz rolu üçün minnətdarlıq və ehtiramımızı bir daha ifadə edə bildik".

Nəşrin müəllifi enerji məsələləri üzrə tanınmış ekspert, jurnalist, Neft Araşdırmaları Mərkəzinin rəhbəri və ən əsası, Azərbaycanın bütün yeni enerji dövrünün şahidi olmuş və bu sahədə müstəsna şəxsi biliyə malik olan İlham Şabandır.

Kitablar TEAS Press tərəfindən nəşr edilib. Araşdırma işləri və kitabların nəşri də daxil olmaqla layihənin ümumi dəyəri 154 157 AZN ($90 681) təşkil edir.

# Bu il Bakıda ICESCO-nun Regional ofisi açılacaq

Qətər Dövlətinin paytaxtı Doha şəhərində İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransı keçirilir. Tədbirdə Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə nümayəndə heyəti iştirak edir.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 26-da nazir "İslam dünyasında mədəni fəaliyyətin yenilənməsinə doğru" mövzusuna həsr olunan 12-ci Konfransda çıxış edib.

İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransına yüksək səviyyədə evsahibliyi etdiyinə və qonaqpərvərliyə görə Qətər Dövləti Hökumətinə və ICESCO rəhbərliyinə, mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Hamad Saniyə təşəkkürünü bildirən natiq daha sonra qeyd edib ki, Prezident İlham Əliyev Azərbaycanın bu təşkilatla əməkdaşlığına xüsusi önəm verir. Eyni zamanda ölkəmizin ICESCO ilə əməkdaşlığı Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın yaxından dəstəyi ilə daha da möhkəmlənir və genişlənir.

"Əlaqələrimizin möhkəmləndirilməsində təşkilatın baş direktoru Salim bin Məhəmməd əl-Malikin də səyləri təqdirəlayiqdir. Beynəlxalq əməkdaşlıq çərçivəsində bu il Bakıda ICESCO-nun Regional ofisi açılacaq və bu da ICESCO ilə münasibətlərin, bütünlükdə ICESCO gündəliyinin bölgədə təqdim edilməsi baxımından çox vacib bir addımdır", - deyə qeyd olunub.

Sonra Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair



"Bakı Prosesi" təşəbbüsünə ICESCO-nun verdiyi davamlı dəstəyin ölkəmizdə yüksək qiymətləndirildiyi bildirilib. Qeyd olunub ki, təşkilat 2011-ci ildən ölkəmizdə keçirilən Dünya Mədəniyyətlərarası Dialoq forumlarında yüksək səviyyədə təmsil olunur. ICESCO-nun 2024-cü ildə ölkəmizdə keçiriləcək növbəti forumda da iştirakının əhəmiyyətli olacağı diqqətə çatdırılıb.

Ölkəmizin tarixi-mədəni zənginlikləri və İslam irsi barədə məlumat verən Adil Kərimli qeyd edib ki, ölkəmizdə İslam mədəniyyəti təkcə qədim dini tikililərdə, onun memarlığında deyil, həm də qeyri-maddi irs və adət-ənənələrimizdə, xalq yaradıcılığında, ədəbiyyat, musiqi, rəqs, xalçaçılıq, tətbiqi sənət, kino və s. sahələrdə özünü göstərir.

Sonda nazir Şuşanın 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar qonaqları Şuşa ilə bağlı videomateriala baxmağa dəvət edib. Şuşa şəhərinin mötəbər tribunadan videotəqdimatı olub. Təqdimat iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

# Vitse-spiker Adil Əliyev Milli Məclisdə vətəndaşları qəbul edib

Sentyabrın 26-da Milli Məclisin Sədr müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev qəbul qrafikinə uyğun olaraq Milli Məclisdə vətəndaşların növbəti qəbulunu keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, vtse-spiker qəbulda iştirak edən şəhid ailələri üzvlərinin, qazilərin və digər vətəndaşların müraciətlərini dinləyib. Qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılmış müxtəlif məzmunlu müraciətlərin bir qismi yerindəcə həll edilib, sosial, humanitar, məişət və digər mövzularla əlaqədar qaldırılan bir sıra məsələlərin araşdırılması üçün aidiyyəti orqanlara sorğular hazırlanıb. Eyni zamanda müraciət edən vətəndaşlara mövcud qanunvericiliyin tələbləri çatdırılıb, bu barədə onlara məsləhətlər verilib.

Qəbul zamanı tarixi Qələbəmizlə bitən vətən müharibəsindən sonra keçən müddətdə işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri barədə



məlumat verilib. Şəhidlərimizin qanı hesabına qaytarılan vətən torpaqlarında şanlı bayrağımızın dalğalandığı bildirilib. Qəbuldakı şəhid ailələrinin üzvləri və qazilər Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın onlara hər zaman yüksək diqqət və qayğı göstərdiyini bildiriblər, şəhidlərimizin qəhrəmanlıqlarından qürur duyduqlarını qeyd ediblər.

Diqqətə çatdırılıb ki, cənab Prezident tərəfindən əhalinin müraciətlərinə yüksək həssaslıqla yanaşılması barədə verilən tapşırıq və tövsiyələrə uyğun olaraq, Milli Məclisin Sədr müavini Adil Əliyevin ünvanına daxil olan bütün müraciətlərə yüksək həssaslıqla yanaşılır, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir.

*"Azərbaycan"*

# Milli Məclisdə Rəqabət Məcəlləsinin layihəsi ilə bağlı ictimai dinləmə keçirilib

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən keçirilən dinləməni komitənin sədri Tahir Mirkişili açaraq, əvvəlcə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu lokal xarakterli antiterror tədbirləri ilə bağlı təbriklərini çatdırıb, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizə rəhmət, yaralılarımıza şəfa diləyib, şəhidlərin yaxınlarına başsağlığı verib. O, antiterror tədbirlərində əldə edilmiş uğurun regionda sülhün və əməkdaşlığın, həmçinin ölkə iqtisadiyyatının gələcək inkişafına daha geniş imkanlar yaradacağını söyləyib.

Milli Məclisin komitə sədri bildirib ki, Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə Rəqabət Məcəlləsinin layihəsi Milli Məclisə daxil olub. Tahir Mirkişili bu gün parlamentdə sənədin geniş ictimai dinləməsinin keçirilməsinə göstərdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bazar iqtisadiyyatına keçidin uğurla nəticələndiyini və ölkə iqtisadiyyatında əlavə dəyərin formalaşmasında özəl sektorun payının 83 faizdən çox olduğunu deyən komitə sədri son illərdə ölkədə aparılan iqtisadi islahatların, dövlətin bu istiqamətdə inzibati metodlardan daha çox tənzim metoduna keçməsinin sahibkarlar arasında ruh yüksəkliyi, eyni zamanda iqtisadiyyatın inkişafında əsaslı fəallıq yaratdığını bildirib. O, yeni Rəqabət Məcəlləsinin qəbul olunmasının ölkə iqtisadiyyatının inkişafı, biznes mühitinin əlverişliliyinin artırılması, azad sa-



hibkarlığın təşviqi baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirərək, sənədin ölkədə sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin hüquqi əsaslarını müəyyən etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, sənəd həm də istehlakçıların hüquqlarının müdafiəsini, məhsul və xidmətlərin keyfiyyətinin daha da artırılmasını hədəfləyir.

Sonra iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək, sənədin hazırlanması prosesi, beynəlxalq təcrübə, sənəddəki yeni anlayışlar barədə məlumat verib. Elnur Əliyev bildirib ki, sənədin qəbulu ilə iqtisadiyyatda özəl sektorun rolunun artırılması, bazar münasibətlərinin möhkəmləndirilməsi, müasir çağırışlara cavab verən azad, sağlam rəqabət mühitinin yaradılması təmin olunacaq. Həmçinin inhisarçılığa, sövdələşmələrə, o cümlədən digər bazar manipulyasiyalarına qarşı effektiv mübarizə aparılmasına əlverişli imkan yaranacaq.

Sonra İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli yeni Rəqabət Məcəlləsinin təqdimatını edib. O, məcəllənin hazırlanmasını zəruri edən amillərdən danışıb, bildirib ki, cənab Prezidentin fərman və sərəncamlarında qoyulan tapşırıqlara uyğun olaraq yeni iqtisadi və sosial çağırışlara hazır olmaq, dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi inkişafı təmin etmək, müasir tənzimləmə metodlarını tətbiq etmək üçün Avropa İttifaqının, həmçinin Türkiyənin, Rusiyanın, Qazaxıstanın bu sahədəki təcrübələri araşdırılıb, müvafiq beynəlxalq tövsiyə sənədləri və məhkəmə təcrübəsi öyrənilib.

Sənədin ümumi prinsipləri, yanaşmaları və üstünlükləri barədə məlumat verən Məmməd Abbasbəyli bildirib ki, məcəllənin əsas üstünlüklərindən biri bazarın sərhədinin dəqiq müəyyən edilməsidir. O qeyd edib ki, bu məcəllənin əsas məqsədləri inhisarçılığı, haqsız rəqabəti aradan qaldırmaq, ölkədə rəqabət əsasında dayanıqlı iqtisadi inkişafı təmin etməkdir. Xidmət rəisi sənəddə təsbit olunan rəqabətə dövlət nəzarətinin tənzimlənməsi, dövlətin rəqabətə təsir formaları, məsuliyyət tədbirlərinin tətbiqi və digər alətlər barədə məlumat verib.

Müzakirələr zamanı Milli Məclisin komitə sədri Sadiq Qurbanov, deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Etibar Əliyev, Vahid Əhmədov, Məşhur Məmmədov, Aydın Hüseynov, sahibkarlar assosiasiyalarının, ticarət palatalarının, QHT-lərin təmsilçiləri, ekspertlər və mütəxəssislər çıxış ediblər, layihə barədə fikirlərini, qeyd və təkliflərini səsləndiriblər. Çıxışçılar yeni məcəllənin ölkə iqtisadiyyatının inkişafına, biznes mühitinin əlverişliliyinin artırılmasına böyük təsir göstərəcəyini qeyd ediblər. Onlar Rəqabət Məcəlləsinin tətbiqi zamanı keçid dövrünün və işləmə mexanizminin müəyyən olunmasının, maraqların toqquşmasının və manipulyasiyaların qarşısının alınmasının vacibliyini bildiriblər, həmçinin sənəddə əks olunan terminoloji yanaşmalar, dövlət nəzarəti orqanının müstəqilliyinin təmini, bazarda hökmran mövqeyin müəyyən olunması, təsərrüfat subyektlərinin davranışlarının qiymətləndirilməsi kimi məsələlərlə bağlı qeydlərini diqqətə çatdırıblar.

Sonda iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli dinləmədə qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Tədbirdə Milli Məclisin komitə sədrlərinin müavinləri Əli Məsimli, Tahir Kərimli, deputatlar Mahir Abbaszadə, İqbal Məmmədov, Nurlan Həsənov, Fəzail Ağamalı, Bəhruz Məhərrəmov, Müşfiq Cəfərov, Milli Məclisin müvafiq şöbələrinin əməkdaşları, İqtisadiyyat Nazirliyinin əlaqədar vəzifəli şəxsləri, aidiyyəti institutların və təşkilatların nümayəndələri iştirak ediblər.

*"Azərbaycan"*

# Bərabərlik və inklüzivlik naminə əməkdaşlıq genişlənir

Bakıda Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) birgə təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib.

"Bərabərlik və inklüzivlik naminə əməkdaşlıq" mövzusunda təşkil olunan tədbirdə AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva və digər rəsmi şəxslər iştirak ediblər. Həmçinin konfransa Albaniya, Almaniya, Bosniya və Herseqovina, Bolqarıstan, Türkiyə və Gürcüstanın həmkarlar ittifaqlarının nümayəndələri, eləcə də BHİK-in və Pan Avropa Regional Şurasının (PARŞ) məsul şəxsləri qatılıblar.

Qonaqları salamlayan AHİK sədri Səttar Möhbalıyev konfransın əhəmiyyətindən və mövzunun aktuallığından danışıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qadın hüquqlarının qorunması istiqamətində həyata keçirilən strategiyadan və aparılan ardıcıl islahatlardan söz açıb. Bildirib ki, insan hüquqlarının müdafiəsi, gender bərabərliyinin əldə edilməsi, xüsusilə qadın və qızların cəmiyyətdə fəallığının artmasına nail olunması AHİK-in qarşısında duran əsas məsələlərdir: "Bu istiqamətdə qurumun həyata keçirdiyi siyasətin əsasında statistik göstəricilərin sosial-iqtisadi, hüquqi, mədəni və psixoloji aspektlərinin təhlili durur. AHİK-də qəbul olunmuş "Gender bərabərliyi konsepsiyası" əsasında uzunmüddətli fəaliyyət proqramları icra olunur, Gender və Qadın Problemləri üzrə Mərkəz, Gender bilikləri və texnologiyası məktəbi fəaliyyət göstərir. Dövlət Statistika Komitəsindən və AHİK-ə üzv olan 27 sahə həmkarları ittifaqı mərkəzindən daxil olan statistik məlumatlar ümumiləşdirilir, cinslər arasındakı fərqlərin və təcrübələrin təsiri öyrənilir. Bu işlərlə sahə həmkarlar ittifaqlarının strukturlarında təyin olunmuş 10 minə yaxın məsul şəxsi əhatə edən 2463 komissiya məşğul olur".

Səttar Möhbalıyevin sözlərinə görə, AHİK qadın üzvlərinin öz potensiallarının üzə çıxarılmasını prioritet istiqamətlərdən sayır: "Gender statistikası göstərir ki, həmkarlar ittifaqları üzvlərinin ümumi sayında kişilər 47,7 faiz olduğu halda qadınlar 52,3 faiz təşkil edir. Üzvlərin 18,9 faizi gənclərdir. Onların da yarıdan çoxu, yəni 9, 534 faizi gənc qadınlardır və bu xanımlardan da 6,18 faizi bütün səviyyəli rəhbər vəzifələrdə təmsil olunur. Sədr vəzi-



fəsində işləyənlərin isə 32,7 faizi gənc qadınlardır. Ümumilikdə həmkarlar ittifaqlarının seçkili orqanlarında qadınlar 47,8 faiz, bütün səviyyəli rəhbər vəzifələrdə isə 42,5 faiz göstərici ilə təmsil olunurlar".

Səttar Möhbalıyev təəssüflə vurğulayıb ki, bu qədər qlobal inkişafa baxmayaraq, dünyada qadınlar hələ də müxtəlif formalarda zorakılığa məruz qalırlar: "Qeyri-rəsmi iqtisadiyyatın əksəriyyətini qadınlar təşkil edir. Bərabər əməkhaqqı və layiqli iş şəraiti bütün hallarda qadınlara da şamil edilməlidir. İşəgötürənlər qayğı iqtisadiyyatını öz planlarının və büdcələrinin mərkəzinə yerləşdirməlidirlər ki, "ödənişsiz iş" anlayışı aradan qalxsın, sosial müqavilələrdə və kollektiv sazişlərdə qadın işçilər də təmsil olunsun. Biz də sosial tərəfdaşlarımızı qayğı iqtisadiyyatına sərmayə qoymağa və qayğı işinin dəyərinin lazımi səviyyədə tanınmasına çağırırıq. Bu davamlı inkişaf üçün də təməl faktordur".

AHİK sədri əlavə edib ki, qadınlar həyatın əsas qurucusu və gələcəyidir, onların hüquqları bütövlükdə insan hüquqları deməkdir: "Odur ki, qadınların bərabər hüquq və həmrəylik şəraitində səmərəli fəaliyyət göstərə bilmələri, layiqli işlə təmin olunmaları üçün səlahiyyətlərimiz çərçivəsində səylə çalışmalıyıq".

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova isə dövlətmizin qadın siyasətindən, ölkəmizdə gender siyasətinin gücləndirilməsi, qadınların cəmiyyətdə rolunun yüksəldilməsi üçün həyata keçirilən tədbirlərdən, qadınların elm və təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurlardan danışıb. Bildirib ki, Azərbaycan qadınları mühüm dövlət qurumlarında, parlament və bələdiyyələrdə layiqincə təmsil olunur, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərdə fəal iştirak edir, ölkə idmanının inkişafına böyük töhfələr verirlər.

Milli Məclisin komitə sədri Hicran Hüseynova ölkəmizdə qadınlarla bağlı məsələlərin həlli üçün qəbul olunan qanunlardan, imzalanan fərman və sərəncamlardan danışıb, müvafiq beynəlxalq sənədlərin tətbiq olunması ilə qadın hüquqlarının reallaşması və təminatı istiqamətində əldə olunan nailiyyətlərdən bəhs edib.

BHİK-in Bərabərlik Departamentinin müdiri xanım Paula Simonetti çıxışında qadın hüquqları ilə bağlı dünyadakı vəziyyət barədə ətraflı məlumat verib, bu istiqamətdə həmkarlar ittifaqlarının üzərinə düşən vəzifələri səsləndirib, bütün sahələrlə yanaşı, əmək şəraitində də qadınlar üçün bərabər imkanların yaradılmasının vacibliyinə toxunub.

Tədbirdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirlinin, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyevanın, ASK-nın vitse-prezidenti Vüqar Zeynalovun, Ombudsman Aparatının şöbə müdiri Lamiyə Zeynalovanın mövzu üzrə çıxışları dinlənilib. Daha sonra AHİK-in Gender məsələləri üzrə komissiyasının gördüyü işlər barədə qurumun şöbə müdiri Namiq Hüseynov, Azərbaycanın regionlarında qadın hüquqları ilə bağlı sahə həmkarlar ittifaqlarının fəaliyyəti haqqında Səhiyyə İşçiləri Həmkarlar İttifaqının şöbə müdiri Elnarə Muradova məruzə ediblər.

Tədbirdə rəy və təkliflər səslənib, mövzu üzrə geniş fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,* *"Azərbaycan"***

# TDT-nin Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının iştirakçıları Fəxri xiyaban və Şəhidlər xiyabanını ziyarət ediblər





Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin 2-ci Toplantısı və II Türk Dövlətləri Aqrobiznes Forumunun iştirakçıları sentyabrın 26-da Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib, məzarı önünə əklil qoyulub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üstünə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn tədbir iştirakçıları Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad edib, məzarları üzərinə tər güllər qoyublar. Həmçinin tədbir iştirakçıları "Türk şəhidliyi" abidəsini ziyarət ediblər, önünə əklil qoyaraq türk şəhidlərinə ehtiramlarını bildiriblər.

# Beynəlxalq forumun iştirakçıları Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər





Bakıda keçirilən "Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu: Heydər Əliyev və Türk dünyası" forumunun iştirakçıları sentyabrın 26-da Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Türk Dövlətləri Təşkilatının nümayəndə heyəti əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı ziyarət olunub və üzərinə gül dəstələri düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn nümayəndə heyətinin üzvləri ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsini ziyarət ediblər.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

# Bakıda II Türk Dövlətləri Aqrobiznes Forumu olub



Bakıda II Türk Dövlətləri Aqrobiznes Forumu keçirilib. Əvvəlcə Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

AZƏRTAC xəbər verir ki, tədbir Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin 2-ci Toplantısı çərçivəsində təşkil olunub. Forumda təşkilata üzv dövlətlərin və müşahidəçi ölkələrin hökumət üzvləri, dövlət qurumlarının və aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri iştirak ediblər.

İclası giriş sözü ilə açan Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkədə aqrar sahədə aparılan islahatlar və gələcək hədəflər barədə tədbir iştirakçılarına məlumat verib. Nazir qeyd edib ki, aqrar sahədə məhsuldarlığın daha da artırılması, iqlimə uyğun, yaşıl və rəqəmsal kənd təsərrüfatının yaradılması, həmçinin ixrac məhsullarının və coğrafiyasının şaxələndirilməsi bu sahənin dayanıqlı inkişafı üçün əsas prinsiplərindəndir.

Türk dövlətlərinin dünya miqyasında böyük iqtisadi gücə malik olduğunu deyən nazir Məcnun Məmmədov kənd təsərrüfatının bu iqtisadi gücün əsas mənbələrindən biri olduğunu vurğulayıb: "Sahib olduğumuz təbii ehtiyatlar, biomüxtəliflik, coğrafi yerləşmə və iqlim bizim aqrar potensialımızı daha da gücləndirir. Bu gün Türk dünyası iş adamlarının və rəsmilərinin bir araya gəldiyi Türk Dövlətləri Aqrobiznes Forumu ölkələrimiz arasında aqrar ticarət əlaqələrinin daha da güclənməsinə hədəflənib. Bizim siz iş adamlarından gözləntimiz bu prinsiplər əsasında əməkdaşlıq quraraq türk birliyinin iqtisadi gücünü daha da artırmaq və ərzaq təhlükəsizliyinə töhfə verməyinizdir".

Nazir Məcnun Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunan ərazilərimizi "yaşıl enerji zonası" elan etdiyini və bu ərazilərin böyük aqrar potensiala malik olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, hazırda əsas məqsəd işğaldan azad olunan ərazilərdə kənd təsərrüfatına yararlı torpaqları minalardan təmizləyərək xəstəliklərdən azad, rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaqdır. Nazir TDT ölkələrinin iş adamlarını Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında investisiya imkanları ilə tanış olmağa və burada ən yaxşı təcrübələr və texnologiyaları tətbiq etməyə çağırıb. O həmçinin iş adamlarını xüsusi investisiya güzəştləri təklif edən yeni yaradılmış Ələt İqtisadi Zonasında beynəlxalq ixrac standartlarına cavab verən və müasir texnologiyalarla təchiz olunan TDT-nin brendinə çevriləcək birgə müəssisələr yaratmaq imkanlarını da nəzərdən keçirməyə dəvət edib.

Tədbirdə çıxış edən TDT Baş katibi Kubanıçbek Ömüralıyev təşkilata üzv ölkələrin kənd təsərrüfatı sahəsində mövcud vəziyyət və aqrar potensial barədə məlumat verib. Baş katib qeyd edib ki, üzv ölkələrin nəqliyyat infrastrukturu və aqrar potensialından səmərəli istifadə iqtisadi inkişaf və ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

Türkiyənin kənd təsərrüfatı və meşə naziri İbrahim Yumaklı TDT-ni üzv ölkələr arasında kənd təsərrüfatı, qida, infrastruktur, nəqliyyat sahələrində əməkdaşlığı genişləndirən mühüm bir platforma adlandırıb. O, müasir çağırışlar fonunda mövcud çətinliklərin həlli üçün yol xəritələrinin hazırlanması və əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu, TDT üzvləri arasında olan strateji tərəfdaşlığın önəmli investisiyalara çevriləcəyinə inandığını bəyan edib.

Özbəkistanın kənd təsərrüfatı naziri Əziz Voitov vurğulayıb ki, üzv ölkələrin elmi-texnoloji, iqtisadi potensialı dayanıq inkişafa və ixrac coğrafiyasını genişləndirməklə qlobal bazarlara çatdırılmasına imkan verir.

Daha sonra Azərbaycanın kənd təsərrüfatı ilə bağlı hazırlanan videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən Qırğızıstanın kənd təsərrüfatı nazirinin birinci müavini Murat Ramatov, Qazaxıstanın kənd təsərrüfatı nazirinin müavini Abilxayir Tamabek, Şimali Kipr Türk Respublikasının kənd təsərrüfatı və təbii sərvətlər naziri Hüseyn Çavuş, Azərbaycan Nazirlər Kabinetinin Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımov, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bu tədbirin üzv dövlətlər arasında aqrar sahədə əməkdaşlığın yeni istiqamətlərinin formalaşmasına, yeni investisiya imkanlarının təşviqinə və iş adamları arasında əlaqələrin güclənməsinə xidmət edəcəyini vurğulayıblar.

Daha sonra II Türk Dövlətləri Aqrobiznes Forumu çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilib.

Qeyd edək ki, Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılan və digər dost və qardaş üzv-dövlətlər tərəfindən dəstəklənən Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin ilk toplantısı Özbəkistanda keçirilib.

# Forum panel sessiyalarda davam etdirilib



Bakıda II Türk Dövlətləri Aqrobiznes Forumu çərçivəsində panel sessiyalar keçirilib. Panel sessiyalarda iştirak edən dövlət və biznes subyektlərinin nümayəndələri Türk Dövlətləri Təşkilatının (TDT) ölkələrinin iqtisadi, aqrar potensialı, investisiya imkanları, həyata keçirilən islahatlar və mövcud nəqliyyat infrastruktur layihələri barədə tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən natiqlər TDT ölkələrinin işgüzar dairələri arasında əlaqələrin genişləndirilməsi imkanları, yerli və xarici iş adamlarına göstərilən dəstək və xidmətlər barədə təcrübələri bölüşüblər. Mütəxəssislər işgüzar dairələr arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi imkanlarını müzakirə ediblər.

Panel sessiyalarda "Türkdilli Dövlətlər Təşkilatı ölkələrinin qlobal iqtisadiyyatda və kənd təsərrüfatında yeri", "Türk Dövlətləri Təşkilatına üzv ölkələrdə kənd təsərrüfatının inkişaf dinamikası", "Türk Dövlətləri Təşkilatına üzv ölkələrin kənd təsərrüfatı sahəsində inteqrasiya imkanları" mövzularında təqdimatlar keçirilib.

Daha sonra II Türk Dövlətləri Aqrobiznes Forumu çərçivəsində TDT üzv ölkələrin aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilib. İkitərəfli görüşlərdə kənd təsərrüfatının bütün sahələri üzrə əməkdaşlıq imkanları müzakirə olunub.

# Türk Dövlətləri Təşkilatı Kənd Təsərrüfatı Nazirlərinin 2-ci iclası çərçivəsində ikitərəfli görüşlər keçirilib





Azərbaycan kənd təsərrüfatı naziri Məcnun Məmmədov Türk Dövlətləri Təşkilatı (TDT) Kənd Təsərrüfatı Nazirlərinin 2-ci Toplantısı və II Türk Dövlətləri Aqrobiznes Forumu çərçivəsində ikitərəfli görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, nazir Məcnun Məmmədov əvvəlcə Türkiyənin kənd təsərrüfatı və meşə naziri İbrahim Yumaklı ilə görüşüb. Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aqrar sahənin inkişafı istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib. Kənd təsərrüfatı sahəsində rəqəmsallaşma, innovativ texnologiya və həllərin tətbiqi, aqrar sahənin dayanıqlı inkişafının təmin edilməsi, bu istiqamətlərdə təcrübə mübadiləsinin aparılmasının vacibliyi barədə geniş müzakirələr aparılıb.

Görüşdə həmçinin kənd təsərrüfatı sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb. Tərəflər kənd təsərrüfatı sahəsində Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını, bu formatda tədbir və görüşlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

Daha sonra nazir Məcnun Məmmədov və TDT Baş katibi Kubanıçbek Ömüralıyev arasında görüş keçirilib. Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin Türk Dövlətləri Təşkilatının güclənməsində maraqlı olduğu və təşkilata üzv ölkələr arasında bütün sahələrdə əməkdaşlığın dərinləşməsinin əhəmiyyətini dəfələrlə qeyd etdiyi vurğulanıb.

Görüşdə təşkilata üzv ölkələrlə aqrar sahədə əməkdaşlığın mövcud vəziyyəti, gələcək əməkdaşlıq perspektivləri ətraflı müzakirə olunub. Kənd təsərrüfatı sahəsində ikitərəfli və çoxtərəfli müstəvidə təşkilata üzv dövlətlərlə əməkdaşlığın genişləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

# Bakıda Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu işə başlayıb



Sentyabrın 26-da Bakıda "Heydər Əliyev İli" çərçivəsində "Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumu: Heydər Əliyev və Türk dünyası" adlı beynəlxalq forum öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və Türk Dövlətləri Təşkilatının (TDT) tərəfdaşlığı ilə keçirilən tədbirdə Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanla yanaşı, TDT-də müşahidəçi üzv statusuna malik Türkmənistan, Şimali Kipr Türk Respublikası və Macarıstanın nümayəndə heyətləri iştirak edirlər.

Forumun rəsmi açılış mərasimindən öncə iştirakçılar Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər. Nümayəndə heyətləri müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini böyük ehtiramla yad ediblər.

Sonra Diasporla İş üzrə Dövlət Komitəsinin inzibati binasında Türk Dövlətlərinin Diaspor Gənclərinin I Forumunun açılış mərasimi keçirilib.

Azərbaycanın Dövlət Himni səsləndirildikdən sonra ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Tədbir Türk dövlətləri başçılarının Zirvə toplantılarını və çıxışlarını əks etdirən videoçarxın nümayişi ilə davam etdirilib.

Forum iştirakçılarını salamlayan Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov tədbirin Azərbaycan və Türk dünyası üçün çox mühüm tarixi hadisə - Azərbaycanın öz suverenliyini tam təmin etdiyi günlərdə keçirildiyinə diqqəti cəlb edib, bu münasibətlə bütün Türk dünyasına təbriklərini çatdırıb.

Ümummilli Lider Heydər Əliyevin Türk dünyasının diaspor strukturlarının formalaşmasına və inkişafına xüsusi diqqət göstərdiyini xatırladan komitə sədri bildirib ki, məhz bu istiqamətin uğurla davam etdirilməsi İkinci Qarabağ müharibəsində və sentyabrın 19-da antiterror tədbirlərinin keçirilməsi zamanı TDT-nin ölkəmizə dəstək göstərməsində, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirməsində böyük rol oynayıb.

Komitə sədri qeyd edib ki, I Forum ümumtürk diasporunun şəbəkələşməsi və mütəşəkkil qüvvəyə çevrilməsi baxımından böyük əhəmiyyət kəsb edir. "Türk dövlətlərinin diasporlarının, o cümlədən diaspor gənclərinin birgə fəaliyyəti həm ölkələrimizə, həm də bütövlükdə Türk dünyasına qarşı kampaniyaların qarşısını almaq baxımından da zəruridir", - deyə o vurğulayıb.

Sonra çıxış edən Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həm diaspor quruculuğu sahəsində, həm də Türk dünyasının birliyi naminə gördüyü işlər bu gün öz bəhrəsini verməkdədir.

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov diaspor gənclərinin fəaliyyətini vətənpərvərliyin bariz nümunəsi adlandırıb.

TDT Baş katibinin müavini Yerzhan Mukaş qeyd edib ki, Türk dünyasının birliyi uğrunda Heydər Əliyevin göstərdiyi xidmətlər heç vaxt unudulmayacaq.

Mövcud şəraitdə diaspor gənclərinin fəallığının artırılmasına diqqət çəkən Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev mümkün layihələrdən danışıb. Diqqətə çatdırılıb ki, 44 günlük Vətən müharibəsi dövründə xaricdəki erməni diasporunun Ermənistana yardım məqsədilə topladığı milyonlarla dollar vəsait Azərbaycanın mülki əhalisinə qarşı terror hücumlarının maliyyələşdirilməsinə sərf olunub.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsini, ərazi bütövlüyümüzün tam təmin olunmasını yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının Zəfəri olduğunu vurğulayıb.

Forum işini panel iclaslarla davam etdirəcək.

# TDT Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının Yekun Bəyannaməsi qəbul olunub

Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının Yekun Bəyannaməsi qəbul olunub.

Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və TDT Baş katibi Kubanıçbek Ömüralıyevin sədrlik etdiyi toplantıya quruma üzv olan və müşahidəçi qismində dəvət edilən ölkələrin kənd təsərrüfatı nazirləri və nazir müavinləri qatılıblar.

AZƏRTAC xəbər verir ki, Nazirlər Toplantısında iştirakçı dövlətlər arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı maraq doğuran layihələri reallaşdırmaq imkanları müzakirə olunub. Toplantıda çıxış edən natiqlər türk dövlətlərinin kənd təsərrüfatının bütün istiqamətləri üzrə geniş əməkdaşlıq potensialının olduğunu bildiriblər.

Toplantıda Azərbaycan tərəfinin türk dövlətlərinin vahid rəqəmsal aqro-data platformasının yaradılması, TDT brendi altında birgə kənd təsərrüfatı və qida məhsullarının istehsalı ilə bağlı təklifləri təşkilata üzv ölkələrə təqdim edilib və bu istiqamətdə işlərin aparılması ilə bağlı razılıq əldə olunub. Azərbaycan tərəfinin TDT ölkələrində rayonlardan birinin kənd təsərrüfatı paytaxtının müəyyən edilməsi ilə bağlı təklifi də müsbət qarşılanıb. Öncədən müəyyən edilən meyarlar əsasında TDT kənd təsərrüfatı nazirlərinin növbəti toplantısına qədər Azərbaycanın Quba rayonu kənd təsərrüfatı paytaxtı elan edilib. TDT kənd təsərrüfatı nazirlərinin növbəti toplantısının Qazaxıstanda keçirilməsi barədə razılıq əldə olunub.

Tədbirin sonunda Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının Yekun Bəyannaməsi qəbul olunub. Sənəddə kənd təsərrüfatı və qida məhsulları üzrə ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayələrin təşviqi, aqrar sahədə müasir texnologiyaların transferi, ən yaxşı təcrübələrin qarşılıqlı mübadiləsi, torpaq və su resurslarının səmərəli idarə olunması, kənd təsərrüfatı sığorta sisteminin təşviq edilməsi və digər sahələr TDT-yə üzv dövlətlər arasında gələcək əməkdaşlığın əsas istiqamətləri kimi müəyyən edilib.

# İlahiyyat İnstitutunda Anım Günü ilə bağlı tədbir keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 27 Sentyabr - Anım Günü ilə əlaqədar tədbir keçirilib. Öncə Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu birdəqiqəlik ehtiram sükutu ilə yad edilib.

Daha sonra AİI-nin IV kurs tələbəsi Əmrah Eminov tərəfindən şəhidlərimizin ruhuna Quran tilavəti təqdim olunub.

AİI rektoru, dosent Aqil Şirinov çıxış edərək, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan bayrağını işğaldan azad olunan torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edib.





Azərbaycanın tarixboyu başına gələn müsibətlərdən, bəlalardan şərəflə çıxdığını qeyd edən rektor bu sınaqda da Vətənimizin üzüağ olduğunu, Qarabağı erməni vandallarından geri aldığımızı vurğulayıb: "Vətənimizin igid oğulları Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı azad etdilər. Şəhidlərimizin ruhu şaddır, Qarabağ azaddır! Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan öz suverenliyini, tam təmin edib. Bu, dövlətimizin uğurlu və uzaqgörən siyasətinin nəticəsidir".

Azərbaycan Televiziyası ictimai-siyasi proqramlar studiyasının şöbə rəisi, tarix üzə fəlsəfə doktoru Mahir Qəribov çıxış edərək, "Tarixin izi ilə" layihəsi çərçivəsində hazırlanmış, müəllifi olduğu 27 Sentyabr - Anım Gününə həsr olunmuş film haqqında söhbət açıb.

Tədbirdə 44 günlük Vətən müharibəsi şəhidi, mayor Azər Mikayılovun qardaşı Anar Mikayılov çıxış edib. O, şəhidin həyat yolundan, hərbi əməliyyatlar zamanı göstərdiyi şücaətlərdən bəhs edib.

Tədbirdə Azərbaycan Televiziyasının "Tarixin izi ilə" layihəsi çərçivəsində hazırlanmış 27 Sentyabr - Anım Gününə həsr olunmuş film nümayiş etdirilib.

*"Azərbaycan"*

# Qarabağ bölgəsində mülki təyinatlı tikililərdə silah-sursat anbarları aşkar edilir





Ermənistan silahlı birləşmələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin mülki təyinatlı infrastrukturdan hərbi məqsədlər üçün istifadə etməsi növbəti dəfə aşkar edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ iqtisadi rayonunda tərk edilmiş tikililərə baxış zamanı bu obyektlərin silah-sursat anbarı kimi istifadə edildiyi müəyyən olunub.

Aşkar edilmiş silah və sursatla dolu yeşiklər, müxtəlif tipli qumbaraatanlar üçün mərmilər, "Kornet" tank əleyhinə raket kompleksinin idarə olunan raketləri, hərbi geyim dəstləri və zirehli dəbilqələr müsadirə edilib.

* * *

Qarabağ bölgəsində Ermənistan silahlı birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi məqsədlər üçün istifadə etdiyi mülki təyinatlı tikililərin aşkar olunması üzrə tədbirlər davam edir. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xocalı rayonu ərazisindəki mülki infrastruktur obyektlərinə baxış zamanı növbəti silah-sursat anbarı müəyyən edilib.

Anbardan aşkar edilmiş külli miqdarda patron, əl qumbaraları, minaatan, müxtəlif çaplı ağır artilleriya və tank mərmiləri, həmçinin tank əleyhinə raket komplekslərinin idarəolunan raketləri və digər döyüş sursatları müsadirə edilib.

Ərazidə həmçinin qoşqulara yüklənmiş halda xeyli sayda sursatla dolu yeşiklər də aşkar edilərək götürülüb.

# Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat

Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə sentyabrın 26-sı saat 17:00-a olan məlumatı açıqlayıb.

AZƏRTAC həmin siyahını təqdim edir.

1. Atıcı silah və qumbaraatanlar - 909
2. Artilleriya silahları - 47
3. HHM vasitələri - 226
4. Döyüş sursatları - 251308
5. Təchizat və ləvazimatlar - 1674
6. Optik və digər cihazlar - 164
7. Zirehli texnika - 22
8. Avtomobil texnikası - 75
9. Qoşqu - 21

# Xocalı rayonu ərazisində tərk edilmiş dayaq məntəqəsi



Müdafiə Nazirliyi qanunsuz erməni silahlı birləşmələrinin Xocalı rayonu ərazisində tərk edilmiş dayaq məntəqəsinin görüntülərini yayımlayıb.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


*Təkrar*

# Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi açıq tender elan edir

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən Sumqayıt DOST Mərkəzinin tikintisinin aparılması və müxtəlif təchizat avadanlıqlarının satın alınması.

Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Açıq tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs - Sudabə Qocayeva (tel: 012 525-50-26 #9231)

**İştirak haqqı: Lot üzrə 2500 (iki min beş yüz ) manat**
**Satınalan təşkilat: Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi**
**VÖEN: 1305817761**
**Bank: Azərbaycan Beynəlxalq Bankı ASC Yasamal filialı**
**Kod: 805562**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**VÖEN: 9900001881**
**SWIFT: IBAZAZ2X**
**H/hesabı: AZ59IBAZ38090019446221732216**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi.*
*3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir).*
*4. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*5. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
*6. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*7. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2022-ci il üzrə mənfəət (gəlir) vergisinin bəyannaməsi (Dövlət Vergi Xidməti tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*8. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Arayış satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Arayış Dövlət Statistika Komitəsindən alınmalıdır və son hesabat ilinə olan vəziyyəti əks etdirməlidir. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*10. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (Rəhbər şəxsin təyin olunması barədə əmr və ya qərarın surəti PDF formatında yerləşdirilməlidir).*
*11. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (Yüklülük arayışı satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır. Həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır).*
*12. İddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Arayış Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmalı və satınalma elanının yerləşdirildiyi tarixdən sonra verilmiş olmalıdır).*
*13. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması:*
*- iddiaçı tərəfindən müvafiq sahədə peşəkarlığın və təcrübənin mövcudluğu barədə təsdiqedici sənədlər, büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri (ödəniş və təhvil-təslim sənədləri ilə birlikdə) təqdim edilməlidir;*
*- iddiaçı ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədləri təqdim etməlidir. O cümlədən iddiaçı ilə qüvvədə olan əmək müqaviləsinə malik azı 1 nəfər sahə rəisi, inşaat mühəndisi, iş icraçısı, usta briqadir və topoqraf olmalıdır (ali təhsil barədə diplom, əmək kitabçası, əmək müqaviləsi bildirişi altsistemindən çıxarış, əməkdaşların müvafiq sahə üzrə azı 10 il ümumi və azı 5 il xüsusi iş təcrübəsi barədə müvafiq təsdiqedici sənədlər təqdim edilməlidir);*
*- iddiaçının hesabında sərbəst vəsait və ya kredit imkanı ən azı 3000000,00 manat olmalıdır (Kredit xəttinin açılması barədə bank tərəfindən verilmiş arayışda bu satınalma predmeti üzrə layihənin yerinə yetirilməsi məqsədilə 3000000,00 manat vəsaitin konkret ayrılmasının mümkünlüyü barədə arayış verilməlidir);*
*- iddiaçının son 3 (üç) il (2020-2022) ərzində tikinti quraşdırma və əsaslı təmir işləri üzrə maliyyə dövriyyəsi azı 15 000 000,00 (on beş milyon) manat olmalıdır;*
*- iddiaçı son 3 (üç) il ərzində sahəsi minimim 5000 m2 olan 1 tikinti obyektinin tikintisini və əsaslı təmir işlərini həyata keçirməlidir. Həyata keçirilmiş əsaslı təmir işləri müasir üslubda müxtəlif dizayn elemetlərini (laminat, mərmər üzləmə və sair) özündə əks etdirməlidir (Müvafiq müqavilə, layihə və işin yekun nəticələrini əks etdirən fotogörüntülər, həmçinin rəylər təqdim edilməlidir);*
*- iddiaçı maddi texniki bazası, o cümlədən icarəyə götürdüyü avadanlıqlar (Ekskavator, traktor, yük maşınları, kranlar və s.) barədə geniş məlumat (Müvafiq təsdiqedici sənədlər ilə birlikdə) təqdim etməlidir.*
*14. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmalıdır (texniki tapşırıqda tələb olunan bütün sahələr üzrə).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları satınalan təşkilata ünvanlaya bilərlər. Satınalma proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.10.2023-cü il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26.10.2023-cü il saat 11:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.10.2023-cü il saat 11:00-da** Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyində (Ünvan: Bakı şəhəri, Yasamal rayonu, İ.Qutqaşınlı küçəsi, 86) açılacaqdır.

***Tender komissiyası***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

## Microsoft proqram təminatı lisenziyalarının satınalınması məqsədilə *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il oktyabrın 6-sı saat 17:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün Open Scape Business X8 ATS qurğusunun təchizatı və quraşdırılması işlərinin, habelə İP və analoq telefon aparatlarının və İP istifadəçi lisenziyalarının satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 05.09.2023-cü il tarixli qərarına əsasən "Best Telekom" MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 05 sentyabr 2023-cü il tarixli qərarına əsasən "FİRE GROUP" MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi "Riyaziyyat və statistika" kafedrasının müdiri professor Natiq Əhmədova anası

**SARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5548
Sifariş 2488

Qiyməti 40 qəpik